BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

**İRADƏ MƏLİKOVA**

# MƏN FƏXR EDİRƏM Kİ, AZƏRBAYCANLIYAM

**BAKI - 2025**

Redaktorlar: Azərbaycan dilində, Rauf İlyasoğlu, şair-publisist
Talış dilində, Baladdin Veşo, şair-publisist

**İradə Məlikova. Mən fəxr edirəm ki, azərbaycanlıyam. Bakı: "Max Ofset" MMC, 2025, 312 səh.**

ISBN: 978-9952-8461-8-8

**© Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi 2025**



ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV

***“MƏN HƏMİŞƏ FƏXR ETMİŞƏM,
BU GÜN DƏ FƏXR EDİRƏM Kİ,
MƏN AZƏRBAYCANLIYAM”.***

**HEYDƏR ƏLİYEV**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MULTİKULTURALİZM SİYASƏTİ

Ümummilli Lider Heydər Əliyev Azərbaycanda müstəqil dövlət quruculuğunun banisi, siyasətçi-mütəfəkkir, şəxsiyyət olaraq tarixi şöhrət qazanmışdır. O, ölkənin siyasi, iqtisadi və mədəni inkişaf yolunu müəyyən etməklə dünyada müasir müstəqil Azərbaycanın imzasını tanıtmağa müvəffəq olmuşdur. Bu baxımdan multikulturalizm sahəsində Azərbaycanda həyata keçirilən siyasətlə tanış olduqda əhəmiyyətli uğurların əldə edildiyinin şahidi oluruq.

Əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan tarixən çoxmillətli yurd kimi tanınmışdır. Bunu yaxın tariximizdə – sovet dövründə müşahidə etmək kifayətdir. Müstəqil Azərbaycan Respublikasının qurulduğu dövrdə Heydər Əliyev bu həqiqətləri nəzərə alaraq çoxmədəniyyətliliyin inkişafının qayğısına qalmağı lazım bilmişdir.

Xalqların mənəvi-əxlaqi irsinin əsas qaynaqlarından biri olan xalq yaradıcılığı və ədəbi abidələrlə tanış olduqda onu yaradanların əsas səciyyəsini müəyyən etmək çətin deyil. Azərbaycan ədəbi-tarixi ənənələrində çoxmədəniyyətlilik özünü göstərir. Çoxmədəniyyətliliyi dəstəkləyən Heydər Əliyev bu həqiqətə əsaslanmnışdır. Ədəbiyyat tarixinə qısa nəzər salsaq, "Kitabi-Dədə Qorqud"da, Nizami, Nəsimi, Füzuli, Vaqif, Hüseyn Cavid və başqalarının əsərlərində bu həqiqətlərin bədii əksini müşahidə etmək olar.

Etnik millətçiliyin xalqlar arasında münaqişəyə səbəb olacağını müdrikcəsinə görən Heydər Əliyev Azərbaycançılıq ideologiyasını irəli sürərək birliyin möhkəmləndirilməsi üçün baza yaratdı. Nəticədə Azərbaycanda yaşayan

bütün xalqların birliyi təmin olundu. Ümummilli Lider haqlı olaraq demişdir: "...Ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da bütünlükdə hamısı azərbaycanlıdırlar".

"Heydər Əliyevin şah əsəri Azərbaycandır"- deyən Prezident İlham Əliyev multikulturalizm syasətini uğurla davam etdirir. Multikulturalizmin Azərbaycan modeli bir sıra xarici ölkə unversitetlərində tədris olunur.

Bu siyasətin nəticəsidir ki, son vaxtlar talış dilində folklor irsi, ədib və şairlərin yaradıcılıq məhsulları, antologiyalar nəşr edilir, əhali kompakt yaşadığı yerlərdə talış dili tədris olunur. Bu dildə çıxan "Aləm" jurnalı, "Dodo" və "Toloşon sədo" qəzetləri oxucular tərəfindən rəğbətlə qarşılanır.

Ümummilli Lider Heydər Əliyevin dövlət siyasəti səviyyəsinə qaldırdığı multikulturalizm siyasəti xalqlarımızın mədəni-etnik irsini qorumağa və inkişaf etdirməyə xidmət etdiyi kimi, vahid Azərbaycan vətənimizin qorunması yolunda bizi daha möhkəm birləşdirir.

***İmamverdi Həmidov***<br>
*Talış icmasının sədri*<br>
*Filologiya elmləri doktoru,*<br>
*professor*

# AZƏRBAYCAN DİLİ: REDAKTORDAN

"Dodo" qəzetinin baş redaktoru, yazıçı-jurnalist, tərcüməçi İradə Məlikova bildirəndə ki, dahi şəxsiyyət Heydər Əliyevin Respublikaya rəhbərlik etdiyi dövrlərdə talış elində gördüyü əvəzsiz xidmətləri, zəhmət adamlarının unudulmaz görüşləri barədə bir kitab hazırlayıram. Siz kitabın redaktoru olarsınızmı?

Bu təklifə məmuniyyətlə razı oldum və institutda oxuduğumuz və uzun illər dövlət qəzetində çalışdığım dövrdə dahi şəxsiyyət Heydər Əliyevin çay plantasiyalarında, üzüm bağlarında, pambıq tarlalarında kənd zəhmətkeşləri ilə mehriban görüşləri göz önümdən gəlib keçdi.

Kitabı diqqətlə oxudum. Lənkəran, Astara, Masallı və Lerik rayonlarının qabaqcıl zəhmət adamları ilə Heydər Əliyevin maraqlı görüşləri, ziyalıların unudulmaz xatirələri kitabda toplanmışdır.

Cənub bölgəsində yazıb-yaradan şairlərin dahi şəxsiyyətə yazdıqları şeirlərdən bir qismi də kitaba daxil edilmişdir.

İradə Məlikova bir çox kitabların müəllifidir. Azərbaycanda yaşayan çoxsaylı xalqların folklorunu, hekayə və rəvayətlərini toplayaraq dəyərli kitablar çap etdirmişdir.

İradə Məlikovanın ömür-gün yoldaşı Rövşən Məlikov Birinci Vətən müharibəsi iştirakçısıdır. Qarabağ müharibəsi veteranıdır. İlk yaradılan "Redıvıy qruppa"da xüsusi təyinatlı dəstənin komandiri olmaqla uğurlu döyüş əməliyyatlarında iştirak etmiş və şücaət göstərmişdir.

Vətənini, dövlətini, yurdunu qəlbən sevən İradə Məlikova son dərəcə vətənpərvər ziyalılarımızdandır.

İnanıram ki, bu növbəti kitab ona daha çox uğur qa-

zandıracaqdır.

Dahi şəxsiyyət haqqında yüzlərlə kitablar yazılıb. Təqdim olunan kitab isə talış regionunda yaşayan insanların ürək sözləridir.

**“Mən fəxr edirəm ki, mən azərbaycanlıyam”** kəlamı ilə başlayan kitab inanıram ki, oxucularımızın da marağına səbəb olacaqdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda belə xalqa müraciət etmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri, müdrik rəhbər, dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

***Rauf İlyasoğlu***
*“Həkəri” qəzetinin baş redaktoru, şair-publisist*

# TALIŞ DİLİ: REDAKTORDAN

Azərbaycanın tarixində çox başıuca şəxsiyyətlər olub ki, indi də xalq onları öz yaddaşında yaşadır, onların adını şərəflə çəkirlər. Bizim Azərbaycan məmləkətimiz özünün saysız-hesabsız var-dövlətinə görə çox mıftəxorların, qəsbkarların tamahına tuş gəlibdir. Bu məmləkətin torpağının altı da, üstü də sərvətdir, amma bizim böyük babalarımız hər bir çətinliyə qarşı əzmlə durublar, sinələrini önə veriblər. Ona görə ki Azərbaycanın çox böyük sərkərdələri, rəhbərləri olub, hünərli xalqı vardır, hünərli xalqın da yetişdirdiyi çox hünərli övladları vardır. Biz Babəkin, Cavanşirin, Şah İsmayil Xətainin, Şah Abbasın adlarını çəksək, xalq onların hamısını tanıyır. XX əsrin təlatümlü vaxtlarında Azərbaycana taleyin qisməti olan böyük sərkərdə Heydər Əliyev də həmin adlar sırasında olan tanınmış, dahi şəxsiyyətlərdəndir. Xalqın ən çətin günündə səsinə hay verib, öz dərin fəhmi, biliyi ilə xalqı labud qırğınlardan, çox böyük bəlalardan hifz etdi, ölkəni qorudu, qəsbkar qonşulara qarşı öz siyasəti ilə, öz bacarığı ilə bənd qoydu, onların qarşısını aldı. Sabahkı gün üçün, Azərbaycanın inkişafı üçün çox böyük addımlar atdı, böyük işlərin təməlini qoydu.

"Az fəxr kardəm ki Azərboyconovıjim" kitabını hazırlayan, "Dodo" qəzetinin baş redaktoru İradə Məlikova öz atdığı bu addımla göstərir ki, bizim xalqın böyük rəhbərə olan məhəbbəti, hörməti sonsuzdur. Bu kitabda verilən zəhmətkeş insanaların, alimlərin, şairlərin, rəhbər işdə olanların, dahi şəxsiyyət haqqında xatirələri olduqca oxunaqlıdır. İqtisadiyyatımızın inkişafı və xalqımızın güzəranının yaxşılaşması naminə Heydər Əliyevin göstərdiyi xidmətlər, gördüyü işlər əvəzsizdir. Azərbay-

canda yaşayan digər xalqlar kimi, Talış xalqı üçün də ölkəmizin inkişafı, ordumuzun möhkəmlənməsi ürəkaçan haldır.

Jurnalist İradə Məlikovanın hazırladığı bu kitabda dahi Heydər Əliyevin sadə camaatla necə yaxın olduğunu, onların qayğısına necə mehribanlıqla qaldığını, insanların ona necə hörmət bəsləməsini, talış xalqı haqqında dediyi xoş sözləri eşidərkən bir daha qürur hissi keçiririk.

Ümidvaram ki, İradə xanımın Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə ərməğan kimi hazırladığı bu kitab Talış xalqının Ulu Rəhbərə olan hörmət və ehtiramını bir daha sübut edir.

Mən redaktor kimi kitabı diqqətlə oxuyaraq, şeirləri Talış dilinə tərcümə edərkən xalqımın Ulu Heydərə olan məhəbbətini görməkdən çox xoşhal oldum, Heydər Əliyev timsalında Azərbaycan xalqının necə güclü bir iradə sahibi olmasını, xalqla rəhbəri arasında olan birliyi, etibarı görəndə fəxr etdim ki, azərbaycanlıyam!

İradə Dodonun çox böyük zəhmət və məhəbbətlə hazırladığı bu kitab Azərbaycanın gələcək nəsilləri, Talış balaları üçün dəyərli vəsaitdir. Ulu Öndər Heydər Əliyevin gördüyü işlər, açdığı yollar, xeyirxah məsləhətləri və göstərişləri xalqımızı inkişaf yoluna aparır. vəsaitdir. Ümid edirəm ki, İradə Dodonun çəkdiyi bu zəhmət öz qiymətini alacaq və təqdim olunan kitab oxucular tərəfindən rəğbətlə qarşılanacaqdır. Bir qələm sahibi olaraq mənim də Ulu Öndərə həsr etdiyim şeirimi təqdim edirəm:

## NURDUR HƏR EVDƏ HEYDƏR

Mübariz yolu tutduq,
Rəhbərdir dədə Heydər.
Qalib bir ordu olduq,
Öndə sərkərdə Heydər.

Çoxu haqqı itirdi,
Dövlət əldən gedirdi,
Millət haray edirdi,
Gəldi o vədə Heydər.

Boğdu zülməti, sıxdı,
Şərin taxtını yıxdı,
Ölkə ağ günə çıxdı,
Nurdur hər evdə Heydər.

Dedi sözün xasını;
Mudrik xalq duasını:
Xainlərin hamsını
Dərbədər edə Heydər.

O yol saldı-biz gedək,
O nə deyib-düz, edək,
Yaşar Azərbaycantək,
Yaşar tarixdə Heydər!

***Baladdin Veşo***
*Şair-publisist*

# MÜƏLLİFDƏN

***Ölkəmizdə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamını eşidəndə Heydər Əliyev ilinə mən də öz hədiyyəmi, necə deyərlər, əlimdən gələni etmək qərarına gəlmişdim.***

2 dekabr 2022-ci ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və Dini Məsələlər Şöbəsinin müdiri Fərəh Əliyevanın Ölkəmizdə yaşayan və fəaliyyət göstərən etnik icmaların rəhbərləri ilə görüşü keçirilib. Görüşdə Bakı Dağ Yəhudiləri Dini İcmasının, Samur Ləzgi Mədəniyyət Mərkəzinin, Avropa Yəhudiləri Dini İcmasının, Azərbaycan-Avar İctimai Birliyinin, Alban-Udi Xristian Dini İcmasının, Azəri Tat Mədəniyyət Mərkəzinin, Talış icmasının, Azərbaycanda Yaşayan Axıska Türklərinin "Vətən" İctimai Birliyinin, Gürcü Yəhudiləri Dini İcmasının, Kürd İcmasının, "Buduq" Xeyriyyə Cəmiyyətinin, Azərbaycan – Ukrayna Konqresi İctimai Birliyinin, Azərbaycan – Bolqarıstan Dostluğunun İnkişafına Yardım İctimai Birliyinin rəhbərləri, eləcə də talış dilində, eləcə də Azərbaycanda yaşayan müftəlif xalqların dilində nəşr olunan "Dodo" və Azərbaycan, rus, ləzgi dillərində nəşr olunan "Samur" qəzetinin baş redaktorları da iştirak edirdilər.

Daha sonra çıxış edən BBMM-in Himayəçilər Şurasının sədri Kamal Abdullayev Multikulturalizm Mərkəzinin yarandığı gündən etibarən dövlətin multikulturalizm siyasətinə uyğun olaraq, aktiv şəkildə fəaliyyət göstərdiyini bildirdi. O qeyd etdi ki, düşmən qüvvələr ölkəmizdəki sabitliyin pozulmasına çalışsalar da, buna nail ola bilmirlər və bilməyəcəklər.

Çıxışlardan sonra, görüşdə iştirak edən bütün etnik icma nümayəndələri mövzu ilə bağlı öz fikirlərini bölüşdülər.

Tədbir iştirakçıları Multikulturalizm Mərkəzinin fəaliyyətini, eləcə də qurumun etnik icmalarla əlaqələrini də yüksək qiymətləndirdiklərini bildirdilər. Sonda ölkəmizdə yaşayan və fəaliyyət göstərən etnik icmaların rəhbərləri öz fəaliyyətləri ilə bağlı təkliflərini də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyevanın diqqətinə çatdırdılar.

Bu tədbirdə mənim Ümummili Lider Heydər Əliyevin 100 illik yubleyinə kitab yazmaq təklifimi Himayəçilər Şurasının sədri Kamal Abdullayev çox gözəl təklif olduğunu qeyd etdi. Hətta o bildirdi ki, çox dəyərli təklifdir. Yaxşı olardı bütün icmalar belə bir kitabı hazırlasınlar. İradə xanımın bu təklifi çox məqsədə uyğundur.

Kitab həm dövlət dilimizdə, həm də hər bir icma öz mənsub olduğu dildə tərcümə edib nəşr olunsa, gözəl bir layihə alınacağına şübhə etmirik.

Bu gözəl layihəni yerinə yetirməyin nə qədər çətin olduğunun fərqində idim. Amma belə bir vüqarlı işi görmək çoxdankı arzum idi. “Dodo” qəzetinin baş redaktoru olduğum bu 6 ildə addım-addım Lənkəran, Masallı, Lerik, Astara, Biləsuvar və Cəlilabad rayonlarını gəzmişəm. Bu rayonlarda Heydər Əliyevin misilsiz zəhməti göz qabağındadır. Az da olsa, bu kitabı hazırlamaqda məqsədim Ulu Öndərin bu regionda gördüyü misilsiz xidmətləri, görüşdüyü zəhmətkeş insanları və ziyalıları haqqında dediklərini, həm də o insanların Heydər Əliyev haqqında söylədiyi fikirləri oxuculara çatdırmaqdır. Bu regionda yaşayan ziyalı insanların verdiyi layihələri yerinə yetirməyin sovetlər dönəmində nə qədər çətin olmasına baxmayaraq Heydər Əliyev o zamanlar onun öhdə-

sindən çox məharətlə gəlmişdir. Onun imza atdığı bütün işlər Azərbaycanın gələcəyi naminə olduğunu o zamanlar hər kəs dərk etmirdi. Buna misal olaraq 1998-ci ilin oktyabr ayında növbəti prezident seçkiləri ərəfəsində Astara rayonunda etdiyi çıxışlarında Heydər Əliyev özü bu barədə açıq-aşkar söyləmişdir.

Azərbaycan Respublikasının deyərdim ki, təməl daşını bir-bir öz əlləri ilə düzən Heydər Əliyevin gördüyü işləri nəzərdən keçirəndə belə bir dahi ilə bir illərdə, bir əsrdə yaşadığım üçün qürur duyuram. Bu kitabı çox genişləndirmək olar. Mən sadəcə "Dodo" talış dilində qəzetin baş redaktoru olaraq, acazıq da olsa Heydər Əliyevin bizim talış regionu üçün etdiklərini bir daha oxuculara göstərmək istəyirəm. Bununla yanaşı, ölkəmizin, həqiqətən, multikultural bir ölkə olduğu bu kitabda bir daha öz təsdiqini tapacaqdır. Kitabın iki dildə: həm dövlət dilimiz Azərbaycan dilində, həm də Talış dilində olması buna bariz bir nümunə olacaqdır.

**Ümummilli Lider Heydər Əliyevin ana dili haqqında səsləndirdiyi müdrik sözlər:**

***Xalqı xalq edən, milləti millət edən onun ana dilidir.***

***Millətin milliliyini ən birinci təsdiq edən onun dilidir.***

***Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz.***

***Mədəniyyət və dil qədər insanın millətini ucaldan şey yoxdur. İki şey insanın milliliyini, millətini ucaldır. Onun biri dilidir, ikincisi mədəniyyətidir.***

***Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir.***

***Bizim bütün alimlərimizin, şəxsiyyətlərimizin arxivləri dövlət əhəmiyyəti kəsb edən sərvətdir.***

**_İradə Məlikova_**
*"DODO" qəzetinin baş redaktoru*



***Hər bir vətəndaşın borcu Azərbaycanın dövlət müstəqilliyinə, öz ölkəsinə, Vətəninə, xalqına sadiq olmaqdan ibarətdir.***

# HEYDƏR ƏLİYEV – 100

### *Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

***29 sentyabr 2022-ci il***

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özü-

nüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi, istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və iri-miqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə

Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılmasında və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tari-

xi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömrü boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

**Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində anadan olub**.

1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) memarlıq fakültəsinə daxil olub, lakin İkinci Dünya müharibəsinin başlanması ona təhsilini başa çatdırmağa imkan verməyib.

Heydər Əliyev 1941-1944-cü illərdə əvvəlcə Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin müdiri, sonra isə Naxçıvan MSSR Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri vəzifələrində işləyib.

1944-cü ilin may ayında dövlət təhlükəsizliyi orqanlarında işə göndərilib.

1949-1950-ci illərdə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Leninqraddakı (indiki Sankt-Peterburq) Rəhbər

Kadrların Hazırlığı Məktəbində təhsil aldıqdan sonra, 1950-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində bölmə rəisi təyin edilib.

1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsinin qiyabi şöbəsini bitirib.

1958-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin əks-kəşfiyyat şöbəsinin rəisi, 1964-cü ildə DTK-nın sədr müavini vəzifəsinə təyin edilib.

1966-cı ildə Moskvada DTK-nın F.E.Dzerjinski adına Ali Məktəbinin rəhbər heyətin təkmilləşdirilməsi kurslarını müvəffəqiyyətlə bitirib.

1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyin edilib və həmin ildə də ona general-mayor rütbəsi verilib.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib.

Heydər Əliyev 22 il Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin deputatı olub. 1974-1979-cu illərdə isə SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini vəzifəsini tutub.

1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyünə namizəd, 1982-ci ilin dekabrında isə Siyasi Büronun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. Bu vəzifədə işləyərkən Heydər Əliyev SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik edib.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun

və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən istefa verib.

Heydər Əliyev 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar, yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edib.

1990-cı il iyulun 20-də Bakıya qayıdan Heydər Əliyev iki gün sonra Naxçıvana yola düşüb, həmin ildə də Azərbaycan SSR xalq deputatı və Naxçıvan MSSR xalq deputatı seçilib.

1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçilib və müvafiq qanunvericiliyə əsasən həm də Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olub. Bu vəzifədə o, 1993-cü ilə kimi çalışıb.

Heydər Əliyev 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis konfransında partiyanın sədri seçilib.

1993-cü ilin may-iyun aylarında ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandığına görə, Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbini irəli sürüb və ölkənin o dövrkü rəhbərliyi onu Bakıya dəvət etməyə məcbur olub.

Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilib, iyunun 24-dən isə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini

həyata keçirməyə başlayıb.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib.

O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar namizədliyini İlham Əliyevin xeyrinə geri götürüb.

2003-cü il dekabrın 12-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat edib və dekabrın 15-də Bakıda, Fəxri xiyabanda dəfn olunub.

Heydər Əliyev beş dəfə keçmiş SSRİ-nin “Lenin” ordeni ilə, “Qırmızı Ulduz” ordeni və çoxsaylı medallarla təltif edilib, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına, həmçinin müxtəlif ölkələrin ali mükafatlarına, nüfuzlu ali məktəblərin fəxri adlarına layiq görülüb.

# HEYDƏR ƏLİYEV AZƏRBAYCAN MULTİKULTURALİZMİNİN SİYASİ BANİSİ KİMİ

Multikulturalizm Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda ictimai-bədii, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi, xüsusilə sovet ideologiyasının hökmranlıq etdiyi illərdə kifayət qədər sistemsiz və spontan mahiyyətə malik idi. Onun sanki bütün vacib özəllikləri mövcud idi. Tolerantlıq və mənəvi potensial, dini loyallıq və milli özünəməxsusluq, psixoloji səbat və bəşəri dəyərlərə açıqlıq Azərbaycan insanını multikultural bir rejimin içinə daxil etməyə hazır idi. Bu və buna bənzər xüsusiyyətlər Azərbaycan ədəbi bədii düşüncə müstəvisində həm tarixən, həm də bu gün kifayət qədər görümlü və təsiredicidir.

“Kitabi-Dədə Qorqud” dastanından, şifahi və yazılı ədəbiyyatımızdan keçən bariz nümunələr uzaq keçmişdən bu günümüzədək multikultural ənənələrin mövcudluğunu aşkar şəkildə sübut edir. Bunun fonunda müasir dövrdə həllini tapası yalnız bir əsas məsələ qalırdı: hüquqi və siyasi müstəvidə multikulturalizmin yerini müəyyən etmək. Və bunu Ulu Öndər Heydər Əliyev etdi. O, Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Bu mərhələ siyasi mərhələ idi.

Ulu Öndər Heydər Əliyev bununla ilk növbədə multikulturalizm siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya nümayiş etdirdi. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında etnik və dini mənsubiyyətindən

asılı olmayaraq bütün vətəndaşlara vahid Azərbaycan dövlətinə mənsub olmalarının əsasında birlik hissi aşılanmağa başladı.

"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətəndiririk və qoruyub saxlayacağıq", – deyən Ulu Öndər bütün sonrakı siyası fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi.

Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib olanı Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlülük) prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir: "Din və dövlət" (Maddə 18, bənd 1); "Dövlət dili" (Maddə 21, bənd 2); "Bərabərlik hüququ" (Maddə 25, bənd 3); "Milli mənsubiyyət hüququ" (Maddə 44, bəndlər 1, 2); "Ana dilindən istifadə hüququ" (Maddə 45, bəndlər 1, 2); "Fikir və söz azadlığı" (Maddə 47, bəndlər 1, 2, 3); "Vicdan azadlığı" (Maddə 48, bəndlər 1, 2); "Hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri" (Maddə 127, bənd 10).

Ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir. Humanist və demokratik nəzəriyyə yaxud ideologiya olaraq multikulturalizm, tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı

anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil.

Ulu Öndər haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu Öndərin rəhbərliyi ilə, nəhayət ki, dönüşü olmayan demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi “dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik” olmalarını təmin etməli idi.

Təbii olaraq, Ulu Öndər etnik millətçiliyə alternativ kimi bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin, eyni zamanda Azərbaycan dövlətçiliyinin yüksəlişini şərtləndirən və multikulturalizmin əsas mənəvi bazası olan Azərbaycançılıq prinsipini milli ideologiya kimi irəli sürdü. O, qeyd etdi ki, etnik millətçilik, nəhayət etibarilə, etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Ulu Öndərin dediyi kimi, həqiqətən də, “Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da – bütünlükdə hamısı azərbaycanlıdır". Bu sözlər bu gün də son dərəcə əhəmiyyətlidir və belə bir aydın siyasi həqiqəti aktuallaşdırır: Biz, yəni Azərbaycanda yaşayan bütün xalqlar məhz bir yerdə, məhz azərbaycanlı olaraq dünya üçün maraq kəsb edə bilərik. Biz ayrı-ayrılıqda heç kim üçün maraqlı deyilik!

Azərbaycan multikulturalizminin siyasi banisi kimi Ümummilli Lider Heydər Əliyev multikulturalizm siyasətinin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi əhəmiyyət verirdi. Ulu Öndər daima Azərbaycanın yuxarıda adları sadalanan təşkilatlar tərəfindən qəbul edilən milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı konvensiyalara qoşulmasının vacibliyini qeyd edirdi. Onun rəhbərliyi altında Azərbaycan hökuməti insan haqları, o cümlədən milli azlıqların müdafiəsi sahəsində bu təşkilatlarla işgüzar əməkdaşlıq əlaqələrinin yaradılmasına müvəffəq olmuşdur. Ölkəmiz insan haqları və milli azlıqların müdafiəsi ilə bağlı bir çox beynəlxalq konvensiyalara qoşulmuşdur. Belə konvensiyalardan Avropa Şurasının "Milli Azlıqların Müdafiəsi Haqqında Çərçivə Konvensiyası" nı göstərmək olar. Bu konvensiya Azərbaycan hökuməti tərəfindən 1995-ci il fevralın 1-də imzalanmış və 2000-ci il 16 iyun tarixli Qanunla ratifikasiya edilmişdir. Azərbaycan Respublikası hər beş ildən bir "Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası" üzrə üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi ilə bağlı Avropa Şurasına hesabat təqdim edir.

Beləliklə, Ulu Öndər Heydər Əliyev multikulturalizmi Azərbaycançılıq ideologiyasının tərkib hissəsi kimi təqdim etməklə ölkəmizdə multikulturalizm siyasətinin əsasını qoymuş və Azərbaycan multikulturalizminin siyasi banisi olmuşdur. Ulu Öndərin multikulturalizm sahəsində həyata keçirdiyi bu böyük iş müasir dövrdə onun layiqli davamçısı Prezident İlham Əliyevin adı ilə bağlıdır.

# AZƏRBAYCAN RESPUBLİKASININ LƏNKƏRAN RAYONU



**DAİRƏVİ QALA**
**(Lənkəran şəhəri. XVIII əsrə aid yerli əhəmiyyətli memarlıq abidəsi)**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN 100 İLLİYİ LƏNKƏRANDA DA EHTİRAMLA QEYD OLUNUR

Azərbaycan xalqı bütün zamanlarda qüdrətli rəhbərlər, cəsur sərkərdələr, tarixi şəxsiyyətlər, böyük sənətkarlar yetişdirərək bəşər tarixinə və mədəniyyətinə təqdim edib. Onlar xalqımıza başucalığı gətirən qiymətli irs qoyub gediblər. Bu gün qədirbilən xalqımız məhz bu qiymətli irslə fəxr edir. Sözsüz ki, bu tarixi şəxsiyyətlərin içində ən qüdrətlisi müdrik dövlət və siyasi xadim Ulu Öndər Heydər Əlirza oğlu Əliyev olub. Qədirbilən Azərbaycan xalqı bu dahi şəxsiyyətin əbədiyaşar xatirəsini daim ehtiramla anır. Çünki Heydər Əliyev alovlu vətənpərvər kimi bütün mənalı ömrünü doğma xalqının səadətinə, milli tərəqqisinə təmənnasız olaraq sərf etdiyindən əsl Ümummilli Lider kimi xalqın qəlbində özünə əbədi abidə ucaltmışdır. Vətən sevgisi ilə yaşayan hər bir azərbaycanlı Heydər Əliyevlə Azərbaycanın bir tam, bir vəhdət olduğuna bütün varlığı ilə inanır və bu inamla xoşbəxt gələcəyinə baxır. Bu il xalqımız 20 il bundan əvvəl həyatını dəyişmiş Ulu Öndərimiz Heydər Əliyevin anadan olmasının 100 illiyini qeyd edir. Bununla əlaqədar cənab Prezident İlham Əliyev müvafiq Sərəncam imzalayıb. Sərəncamdan irəli gələn vəzifələr layiqincə icra olunur, Ulu Öndərin əziz xatirəsinə həsr olunmuş müxtəlif səpgili kütləvi tədbirlər keçirilir.

Azərbaycanın hər bir guşəsində olduğu kimi Lənkəranda da Ulu Öndərin xatirəsi müdrik rəhbərə dərin hörmət və ehtiramla anılır. Lənkəran camaatı Ulu Öndərin atalıq qayğısını həmişə hörmət və ehtiramla xatırlayır. Hələ keçən əsrin 70-80-ci illərində Ümummilli Liderimizin davamlı qayğısı ilə Lənkəran da özünün “qızıl dövrünü”

yaşamışdır. Məhz onun davamlı diqqəti və qayğısı ilə o zaman Lənkəran geridə qalmış ucqar bir rayondan (cənub-şərq) talış regionunun iqtisadi-mədəni mərkəzinə çevrilmişdir.

Sovet dövründə Ümummilli Lider Lənkərana 5 dəfə səfər edib. Bu səfərlərin hər biri lənkəranlıların yaddaşında silinməz izlər buraxıb. Məhz bu səfərlər zamanı Ulu Öndərimizin xeyir-duası ilə sosial-iqtisadi inkişafı sürətləndirən çoxlu sayda zavodlar, fabriklər, emal sexləri tikilərək istifadəyə verilib, saysız-hesabsız iş yerləri açılıb, ixtisaslı fəhlə kadrları hazırlanıb, əhalinin həyat şəraitini yaxşılaşdıran çox mühüm əhəmiyyətli layihələr icra olunub. Həmin dövrdə rayonda ümumi məhsul buraxılışı dəfələrlə artıb sənaye, kənd təsərrüfatı, ticarət və digər sahələr sürətlə inkişaf edib. Tərəvəz və çay istehsalındakı artım rayonun iqtisadi imkanlarını dəfələrlə artırıb. 70-ci illərdə artıq tərəvəz istehsalı 200 min tonu, çay istehsalı isə 16,5 min tonu keçmişdi. O zaman Lənkərandan keçmiş İttifaqının 900-dən çox sənaye şəhərinə faraş tərəvəz göndərildiyindən rayon "Ümumittifaq bostanı" adlandırılmışdı. Bütün sahələrdə zərbəçi əmək cəbhəsi açılmışdı. Hər bir zəhmətkeşin əməyi layiqincə qiymətləndirilir, onlara yüksək təltiflər, maddi həvəsləndirmə mükafatları təntənəli şəkildə təqdim olunurdu. Ulu Öndərin Lənkərana səfərlərinin xronologiyası bütün bu möhtəşəm fəaliyyəti parlaq şəkildə əks etdirir.

1972-ci ildə tərəvəzçilik və üzümçülük sahəsində yüksək nailiyyətlər əldə edildiyinə görə Lənkəran rayonu Azərbaycan KP MK-nın və Respublika Nazirlər Sovetinin Keçici Qırmızı bayraqlarına layiq görülüb. Bu bayraqları təqdim etmək üçün Heydər Əliyev 30 mart 1973-cü il tarixdə Azərbaycan KP MK-nın birinci katibi kimi ilk dəfə

Lənkərana səfər edib.

İkinci dəfə Ulu Öndərimiz 1974-cü ilin yanvar ayının 15-də Sov.İKP MK Siyasi Bürosunun üzvü, Sov.İKP MK katibi F.D.Kulakovla birlikdə Lənkərana gəlib, Lənkəran çayı üzərində tikilmiş su ayırıcı qovşaq kompleksinə baxıb, suvarma işləri, təsərrüfat rəhbərləri və əmək qabaqcılları ilə görüşüb.

Azərbaycan KP MK-nin birinci katibi kimi Heydər Əliyev 1976-cı ilin dekabrın 28-də 52 milyon kub/metr su ehtiyatı olan Xanbulançay dəryaçası su təsərrüfatı kompleksinin təntənəli şəraitdə işə salınması mərasimində iştirak etmək üçün Lənkərana növbəti dəfə gəlib. Açılış mərasimindən sonra Ulu Öndər suvarma idarəsinin, təsərrüfatların və müəssisələrin əməkçiləri ilə səmimi görüş keçirib, onların həyat və məişət şəraiti ilə yaxından maraqlanıb. Həmin gün Heydər Əliyev meyvə-tərəvəz konservi kombinatına da baş çəkərək tərəvəz emalı prosesi ilə tanış olub.

1979-cu il dekabrın 8-də Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi kimi yenidən Lənkərana gələrək 9-cu dəfə keçirilən ənənəvi məhsul bayramında və Lənkəran şəhərində yeni istifadəyə verilən çoxmərtəbəli məişət evinin açılışında iştirak edib, sonra Lənkəran Tarix-Diyarşünaslıq muzeyinə baş çəkib, buradakı ekspozisiyalarla tanış olub, Xatirə kitabına ürək sözlərini qeyd edib. Həmin gün Ulu Öndər Lənkəran şəhərində yeni tikilmiş Təyyarə limanı ilə də yaxından tanış olub. Sonra Ulu Öndər rayonun “Avrora” çay sovxozunun çay və sitrus plantasiyalarında fəhlələrlə görüşüb, çaybecərən qızlarla kollektiv şəkil çəkdirib, onlarla həmsöhbət olub, ata qayğısı ilə onların həyat şəraiti və təhsil məsələləri ilə maraqlanıb. Qabaqcıl manqa baş-

çısı Kübra Ağayeva ilə söhbət zamanı Ulu Öndər yaxşı işləməklə yanaşı təhsil almağın da çox vacib olduğunu bildirib. Nəticədə həmin manqa başçısı bu tövsiyəyə əməl edərək imtahanlara hazırlaşmaqla növbəti ildə Lənkəran pedaqoji texnikuma daxil olub, müəllim peşəsinə yiyələnib və bu gün də qəsəbə məktəbində müəllim kimi xalqın balalarının təlim tərbiyəsi ilə məşğul olur.

1982-ci ilin 30 iyununda Lənkərana yenidən gələn Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev şəhər partiya komitəsinin plenumunda iştirak edib. Həmin gün Heydər Əliyev rayonun qabaqcıl müəssisələrindən olan Tərəvəz-Konserv kombinatında, "Nəriman Nərimanov" sovxozunun tərəvəz sahəsində əməkçilərlə iş başında görüşüb. Qabaqcıl tərəvəzçi Zərəfşan Hacıyevaya üzünü tutub neçə uşağının olduğunu soruşub, "hələ ailə qurmamışam" cavabını alan Ulu Öndər ata qayğısı ilə "belə bir qabaqcıl əməkçi gəncin ailə qurmaması yaxşı hal deyil və yarı zarafat, yarı ciddi, o vaxtkı rayon partiya komitəsinin birinci katibi Dilrüba xanım Camalovaya belə məsələlərə diqqət yetirməyi tapşırıb. Həmin səfərdən dərhal sonra əmək qabaqcılı kimi Zərəfşana mükafat olaraq "Moskviç" minik avtomobili hədiyyə olunur, gözəl bir toy çalınır. Ulu Öndərin atalıq qayğısı və tövsiyəsi ilə ailə quran Zərəfşan xanım bu gün də xoşbəxt yaşayır, övladları, nəvə-nəticələri ilə fərəhli günlər keçirir.

Ulu Öndər həmin səfəri zamanı Lənkəran çay çəkici və bükücü fabrikində hazır çay məhsulu istehsalı prosesinə baxmış və şəhərdə yeni açılmış İdeoloji mərkəzin işi ilə də tanış olmuşdur. Sonra o, Lənkəran "İstisu" sanatoriyasında həkimlərlə və keçmiş ittifaqın ayrı-ayrı respublikalarından gəlib burada dincələn və müalicə alan müxtəlif

xalqların nümayəndələri ilə görüşərək səmimi söhbət etmiş, onların istirahət və müalicə şəraiti ilə maraqlanmışdır.

Ulu Öndər Azərbaycanı geniş tanıtdırmaq üçün bütün imkanlardan istifadə edirdi. Çox diqqətli insan olduğundan sanatoriyadan çıxarkən orada bir qəzet köşkünün qoyulmasını, Azərbaycan, rus və indilis dillərində qəzet və jurnalların, turist bələdçi xəritələrinin, rəngli təbiət şəkilləri əks olunmuş foto-albomların, bədii ədəbiyyat nümunələrinin satışının təşkil olunmasını tapşırmışdı. Sonrakı illərdə Latviyadan gələn rus dilli xanımın həmin köşkdə çoxdan axtardığı kitabı taparkən keçirdiyi sevinc və Azərbaycan xalqı haqqında dediyi xoş sözlər Heydər Əliyevin nə qədər müdrik bir insan olduğunu bir daha sübut etmişdi.

Ulu Öndərin ardıcıl diqqəti ilə sürətlə inkişaf edən Lənkəran şəhərində o zaman yüzlərlə ailə üçün çoxmərtəbəli binalardan ibarət 2 mikrorayon yaşayış massivi salınmış, Mərkəzi Xəstəxana üçün yeni korpus, 20-dən çox yeni məktəb, şəhərdə və kənd yerlərində onlarla uşaq bağçası, digər inzibati binalar, mədəniyyət evləri, klub və kitabxanalar, teatr, musiqi məktəbləri, şəhərlərarası avtovağzal, hava limanı, çoxlu emal müəssisəsi, dəmir-beton məmulatları zavodu, tərəvəz kombinatı, 3 çay emalı və 1 çayçəkici-bükücü fabrik, öz dörvü üçün çox müasir olan heyvandarlıq kompleksi, mexanikləşdirilmiş fermalar tikilib istifadəyə verilmiş, yeni yollar, körpülər salınmış, ilk dəfə dağ kəndlərinin iqtisadiyyatının inkişafı ilə bağlı tədbirlər həyata keçirilmişdi. Təkcə Yuxarı Xanbulançay hidroqovşağının tikintisində iştirak edən fəhlə və mühəndislərin mənzil şəraitini yaxşılaşdırmaq üçün 2 fəhlə qəsəbəsi- Su-8 (indiki Şəhidlər Xiyabanı ərazisi) və Azfilial (indiki

Xanbulaq) qəsəbələri salınmışdı. Həmin dövrdə əhalinin pul gəlirləri dəfələrlə artdığından şəhərdə, qəsəbə və kəndlərdə kütləvi şəkildə yaraşıqlı fərdi evlər tikilməyə başlanmışdı. Çox qısa bir müddətdə iqtisadi fəal əhalinin sayı dəfələrlə artmışdı. İnsanların mədəni səviyyəsi, yaşayış şəraiti xeyli yüksəlmişdi. Bütün bunları öyrəndikcə Ümummilli Liderimizin rəhbərbərlik bacarığına və qabiliyyətinə, insanlarla səmimi ünsiyyətinə heyran qalırsan. Bu gün həyatda yaşayan və bu görüşlərin şahidi olmuş insanlar, rəhbər işçilər, ziyalılar, əmək qabaqcılları, incəsənət xadimləri bu xronologiyadan daha çox fərəhlənirlər. Çünki onlar o sevinci, o fərəhi canlı olaraq yaşayıblar. Gərgin iş qrafikinə baxmayaraq, Lənkərana ardıcıl səfərləri və bu səfərlər zamanı lənkəranlılarla keçirdiyi isti, hərarətli görüşləri bir daha göstərirdi ki, Ulu Öndərimizin Azərbaycanın hər bir guşəsi kimi, Lənkərana da, burada yaşayıb-yaradan zəhmətkeş insanlara da böyük sevgisi və ehtiramı olub.

Xalqımızla birlikdə lənkəranlıların da Ulu Öndərimizə göstərdiyi sədaqət 1993-cü ilin avqust hadisələri zamanı bir daha özünü subut etmişdir. Məhz Ümummilli Liderimizin çağırışı ilə lənkəranlılar həmişə olduğu kimi, həmin hadisələr zamanı da dövlətçiliyimizin və müstəqilliyimizin müdafiəsinə qalxaraq onun qorunmasında qəhrəmanlıqla iştirak etmişdilər. Məhz 1993-cü ilin Avqust hadisələri bir daha sübut etmişdi ki, Lənkəran Azərbaycanın ayrılmaz parçası və ölkəmizin cənub-şərqi sayılan talış bölgəsində alınmaz qaladır.

Lənkəranlılar Ulu Öndərimizin müstəqil dövlətimizin başçısı kimi 1998-ci il oktyabrın 5-də Lənkəran şəhərinə səfərini daha çox xatırlayırlar. Ulu Öndərin Lənkərana səfərləri çoxumuzun gənclik illərimizə təsadüf etmişdir. Bu səfərlər zamanı Əlimərdan Ələkbər oğlu Əliyev də Ulu

Öndəri yaxından yox, məsafədən görmüşdü. Lakin tanrı onu yaxından görməyi, söhbət etməyi ona da qismət etdi. 1998-ci ilin sentyabrın 22-də Respublika sarayında keçirilən müəllimlərin birinci qurultayının fasiləsində təhsil nailiyyətlərinə həsr olunmuş sərgiyə baxış zamanı Əlimərdan Əliyev yaxınlaşıb Ulu Öndərə lənkəranlıların salamlarını çatdıraraq onu Lənkərana dəvət etdi. Onu diqqətlə dinləyən Ulu Öndər lənkəranlılara xüsusi salam-dualarını çatdırmağı və hökmən onlarla görüşə gələcəyini söylədi. Oktyabrın 5-də Lənkərana gələn Ulu Öndər Prezidentliyə namizəd kimi yerli saknlərlə hərarətli görüş keçirmişdir. Məhz həmin görüş zamanı Ulu Öndər lənkəranlıların Vətən qarşısında göstərdikləri şücaətə yüksək qiymət verərək demişdir:

**“Siz Azərbaycanın bu gözəl diyarını qurub-yaradanlarsınız, siz bu bölgənin müdrik insanlarının varislərisiniz. Siz Talışxanovlar-generallar sülaləsinin varislərisiniz. Siz İkinci Dünya müharibəsində qəhrəmanlıq göstərmiş, iki dəfə Sovet İttifaqı Qəhrəmanı adını almış general Həzi Aslanovun varislərisiniz, onun həmyerlilərisiniz, onun doğmalarısınız.**

**Azərbaycanın Talış dağları, bu Talış diyarı Azərbaycan xalqının böyük insanlarını, böyük şəxsiyyətlərini yetişdirmişdir. Siz burada–Lənkəranda, bu Talış dağlarının ətəklərində Azərbaycan elmini, mədəniyyətini, təhsilini inkişaf etdirən dəyərli insanlar yetişdirmisiniz. Biz bunlarla fəxr edirik, bütün Azərbaycan xalqı da bu dəyərli insanlarla fəxr edir”.**

Ümummilli Liderimizin bu qiymətli sözlərini dönə-dönə xatırlayan hər bir lənkəranlı məhz Heydər Əliyevin əsasını qoyduğu siyasi kursun bu gün də davam etməsindən sonsuz sevinc hissi keçirir. Xalqımızla birlikdə lənkə-

ranlılar da fəxr edir ki, Heydər Əliyev siyasi kursu bu gün də uğurla davam edir. Əldə olunan nailiyyətlər hər bir lənkəranlının qəlbini iftixar hissi ilə doldurur, xoşbəxt gələcəyə inamını qat-qat artırır.

Ümummilli Lider Heydər Əliyevin şərəfli həyat yolu tariximizin ən parlaq səhifələridir. Bu şərəfli həyat yolunun, bu yolda çəkilən zəhmətin bəhrəsini bizdən əvvəlki nəsillər görüb, indiki nəsillər görür, hələ neçə-neçə gələcək nəsillər görəcək.

50 milyonluq Azərbaycan xalqı bugünkü azadlığına, müstəqilliyinə və şöhrəti dünyaya yayılan dövlətinə görə məhz Ümummilli Liderimiz Heydər Əliyevə minnətdardır. Harada yaşamasından asılı olmayaraq hər bir soydaşımız əmindir ki, cənab Prezident İlham Əliyevin titanik səyləri ilə Vətənimiz Azərbaycan Heydər Əliyev siyasətinin nurunda bundan sonra da inkişaf edəcək, dünyanın ən sivil dövlətləri sırasında layiqli yerini tutacaqdır.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV LƏNKƏRAN VƏ LƏNKƏRANLILAR HAQQINDA

***Həzi Aslanov Böyük Vətən müharibəsində mərdliklə döyüşən, vuruşan Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisidir. O bu döyüşlərdə həlak olmuş, ancaq öz vətəndaşlıq borcunu yerinə yetirmiş, Azərbaycan xalqının hansı yüksək mənəvi xüsusiyyətlərə malik olduğunu dünyaya nümayiş etdirmişdir*.**

Lənkəran Dövlət Universitetinin professoru Məsud Məmmədov "Qədrin bilin" şeirini yazaraq bu gözəl şeiri Heydər Əliyevə vəsf etmişdir:

## MƏSUD DÖVRANİ
## QƏDRİN BİLİN

Nəxşi-Cahan Heydər yurdu,
Qəlbi hər an dolğun vurdu.
"Azərbaycan" – deyib qurdu.
Gedirəm mən Heydər yolun,
Qədrin bilin dürüst yolun.

Heydər Əlirza oğludur,
O çox vaxtında doğuldu.
Zəkalı eldə yoğruldu,
Gedirəm mən Heydər yolun,
Qədrin bilin dürüst yolun.

Xalqımın rəhbəri olub,
Düz əməllə qəlbə dolub.
Düşmənlərə zərbə vurub,
Gedirəm mən Heydər yolun,
Qədrin bilin dürüst yolun.

Mirzə Cəlil səsi gəlir,
Hər oylaqdan kəsi gəlir.
Bəşərdən də bəsi gəlir,
Gedirəm mən Heydər yolun,
Qədrin bilin dürüst yolun.

Hüseyn Cavid büstü gülür,
Sobalarda tüstü gülür.
Dağ-dərələr üstü gülür,
Gedirəm mən Heydər yolun,
Qədrin bilin dürüst yolun.

Rəbhər yolu tam pak bir yol,
Avropaya açılan qol.
İşlək oldu sağımla, sol,
Gedirəm mən Heydər yolun,
Qədrin bilin dürüst yolun.

Heydər, ruhu indi şaddır,
Oğlu İlham başdan başdır.
“Haystana” yumruq, daşdır,
Gedirəm mən Heydər yolun,
Qədrin bilin dürüst yolun.

Gəlirəm mən Lənkərandan,
Həm Muğandan, həm arandan.
Gərdiş edib Qarabağdan,
Gedirəm mən Heydər yolun,
Qədrin bilin dürüst yolun.

Hələ Dərbənd baxır bizə,
Dərdini çox vurmur üzə.
Gərdişini gərək dözə,
Gedirəm mən Heydər yolun,
Qədrin bilin dürüst yolun.

“Hay”la gələn, “Vay”la gedir,
Naxrı xıtıq, tayla gedir.
İran fırıq, sayla gedir,
Gedirəm mən Heydər yolun,
Qədrin bilin dürüst yolun.

Mən Məsudəm, məsud yaşar,
İgid kimi dağlar aşar.
Qoy bilsin bu geniş bəşər,
Gedirəm mən Heydər yolun,
Qədrin bilin dürüst yolun.

***Lənkəran 21.01.23***

# UNUDULMAZ GÖRÜŞ

***Lənkəranın həmişə böyük, yüksək ziyalı insanları olubdur...***

***Bizim dostumuz, Lənkəranın ən böyük ziyalılarından biri Mir Haşım Talışlının oxuduğu şeir məni çox heyran etdi... Nə qədər zəkalı bir insandır, nə qədər Azərbaycana sədaqətli bir insandır. Mən Sizə təşəkkür edirəm.***

***H.Ə.Əliyev***
***05.10.1998, Lənkəran***

## *M.M.Talışlıya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI*

***"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli fərmanına uyğun olaraq qərara alıram:***

***1. Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri olan Mirhaşım Mirmurtuza oğlu Talışlıya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.***

***2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.***

***3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti,***
***Bakı şəhəri, 14 avqust 2006-cı il***

5 oktyabr 1998-ci il tarixdə Mir Haşım Talışlı Lənkəran şəhər meydanında Ümummilli Liderimiz Heydər Əliyevi qarşılayarkən demişdir.

*Sənin qüdrətinə söz demək üçün,*
*Sözə İlahidən qüdrət gərəkdir;*
*Xalqın pənahısan, ümidgahısan,*
*Bunu dərk etməyə diqqət gərəkdir!*

1993-cü ildə Peyğəmbərimizin (s.ə.) mövlud günü münasibətilə klassik üslubda (əruz ölçüsündə) bir qəsidə yazmışdım. Orada deyirəm (Allaha) son beytlərdə:

*Səxavətinlə veribsən bu xalqa bir rəhbər,*
*Səlamət eylə onu, onda Haqq nidası gəlir.*
*Bu mövlud ilə Müsafir ümid edir, ya Rəbb!*
*Bu rəhbər ilə elin əsl rəhnüması gəlir!*

Bu beytlər mənim qəlbimə səbəbsiz gəlməmişdi.

Bundan əvvəlki hərc-mərclik dövrlərində Bakıdan gələn bir sıra dostlarla söhbətdə belə bir sual qoyulmuşdu:

– Görəsən, bu xalqa kim rəhbər olsa, Allah bizi nicat yoluna çatdırar?

Hamımız bir ağızdan belə dedik:

– Əgər Əliyev bu ölkəyə rəhbərlik eləsə, bu xalq bütün təhlükələrdən qurtarar!

Belə də oldu. Sonralar bütün ziyarətgahlara – Məşhədə getmək mənə nəsib oldu. Əlbəttə, bu müqəddəs ziyarətgahlar dua etmək yerləridir. Mən bu yerlərdə xalqımıza, vətənimizə, Heydər Əliyevə dualar etmişəm. Bu barədə “Söz” jurnalının ardıcıl olaraq dörd sayında “Ziyarət şəhərinə səyahətim” adlı məqaləmdə yazmışam və o məqalələrin hamısında əziz və hörmətli prezidentimizə – Heydər

Əliyevə dualar etdiyimi bildirmişəm.

Bütün siyasətçilərimizin yetişməsində insanların qəlbində özünə heykəl qoyan prezident Heydər Əliyev cənablarının böyük rolu vardır.

Mən bır rayon ziyalısı kimi həmişə onun rəhbərliyindən çox razı qalmışam. Əməkdar müəllim olmuşam. Moskvaya Müəllimlər qurultayına nümayəndə seçilmişəm.

Prezidentimizin yenidən respublikamıza rəhbər gəldiyinə çox sevinmişəm.

Hələ respublikamızdan getməmişdi.

1986-cı ildə Nizami Gəncəvinin 845 illiyi münaibətilə Lənkərandan Şəkər Aslan, Vaqif Hüseynov, Məmmədhüseyn Əliyev və mən həmin yubileyə ezam edilmişdik. Orada Qazaxıstandan qonaq gəlmiş şair Oljas Süleymanov prezidentimizə dedi ki, axı, bu 845 rəqəmi yuvarlaq deyil, siz nə əcəb bunu yubley üçün münasib hesab etmisiniz?

Ulu Öndər Heydər Əliyev Şeyx Nizami Gəncəvi haqqında demişdir:

"Nizami Gəncəvi elə sənətkarımızdır ki, mənə qalsa, onun 846, 847, 848, 849-cu illərini də yubiley günləri kimi qeyd edərdim. Gör Azərbaycanımızı, onun ədəbiyyatını, mədəniyyətini nə qədər yüksək qiymətləndirən şəxsiyyətdir."

Hamımızın yaxşı yadında olar: «Kitabi-Dədə Qorqud» kimi xalqımızın qədim və dəyərli yaradıcılıq nümunəsinin məktəblərdə keçirilməsi yasaq edilmişdi. Dahi Şəxsiyyət Heydər Əliyev bu əsərin 1300 illik yubileyini keçirmək barədə Sərəncam verdi və bu tədbir həyata keçirildi.

Heydər Əliyevin Mir Haşım Talışlı haqqında dediyi bir neçə dəqiqəlik xoş sözləri o belə xatırlayır. "Mən bö-

yük mükafat hesab edirəm və indi də o sözlərin təsiri ilə yaşayıram. O bildirdi ki, bir dəfə televerlişdə məni axıra qədər dinləyib, sözlərimi çox bəyənmişdir”. Dahi rəhbər demişdir. “Lənkəranın həmişə böyük, yüksək ziyalı insanları olubdur... Bizim dostumuz, Lənkəranın ən böyük ziyalılarından biri Mirhaşım Talışlının oxuduğu şeir məni çox heyran etdi... Nə qədər zəkalı bir insandır, nə qədər Azərbaycana sədaqətli bir insandır. Mən sizə təşəkkür edirəm.”

Ölkəmizdə sosial-quruculuq işləri geniş vüsət almışdır. Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatımızda, sosial həyatımızda işlər uğurla davam edir. Azərbaycan ədəbiyyatının inkişafında xidmətlərimə görə ölkə rəhbəri cənab

İlham Əliyevin imzaladığı 14 avqust 2006-cı il tarixli Sərəncamı ilə Prezident təqaüdünə layiq görülmüşəm. Sərəncamın imzalandığı gündən bir gün sonra Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıq məktubu göndərdim.

# İLLƏR TARİXƏ DÖNÜR

## Dilrüba Camalovanın dediklərindən

Tale mənə Lənkəranda Heydər Əliyevin başçılığı altında iki dəfə rəhbər vəzifədə işləmək xoşbəxtliyi nəsib etmişdir. Onun idarəetmə məktəbini keçmək özü bir həyat məktəbi idi.

Heydər Əliyevin Lənkərana səfərləri yaxşı yadımdadır. Respublikamızın bu bölgəsinə hər gəlişi toy-bayrama çevrilirdi. Camaat onu sevinclə, böyük məhəbbətlə qarşılayırdı. Yadımdadır, bir dəfə göstəriş verdi ki, məni qarşılamağa heç kəs gəlməsin. Amma gözlənildiyinin əksi oldu.

Heydər Əliyevin Lənkərana gəlişini eşidən adamlar əllərində ətirli çiçəklər səhər tezdən dəmiryol vağzalına yığışmışdılar. Böyük rəhbər vağzalda düşən kimi hər tərəfdən "Heydər Əliyev, Lənkərana xoş gəlmisiniz!" və "Eşq olsun! Eşq olsun!" sədaları eşidilirdi. Təəccübləndiyini görüb dedim ki, yoldaş Heydər Əliyev! Lənkəranlıların Sizə çox böyük hörməti var, başqa cür ola bilməz, onları heç kəs məcbur etməyib ki, Sizi qarşılamağa çıxsınlar. Hamının ürəyi Sizinlədir, böyük rəhbər kimi Sizə hörmət və məhəbbətləri var.

Zərifə xanım və oğlu İlham da onunla idilər. 1982-ci ilin iyun ayının 30-u idi. Heydər Əliyev Lənkəranda bir sıra sosial obyektlərin açılışında iştirak etdi. Ziyalılar evində rayon fəalları ilə görüşdə böyük nitq söylədi.

Heydər Əliyev Astaraya sərhədçilərlə görüşə getdiyinə görə Zərifə xanımı və İlhamı Lənkəranın görməli yerləri ilə tanış etdim. Qonaqları Xanbulançaydan yuxarıda yerləşən bulağa apardım.



**Heydər Əliyev və Dilrüba Camalova**

Oraya qalxmaq çətin idi. Hiss olunurdu ki, Zərifə xanım yorulub, dedi ki, beş-altı dəqiqədən sonra geri qayıdarıq. Amma belə olmadı, bulaq başında bir neçə saat əyləşdik. Ağaclar ətrafa sərinlik salmışdı, quşlar səs-səsə vermişdilər. Bulağın sərin, şəffaf suyundan doymaq olmurdu. Xalça-palaz üstündə əyləşmiş İlham hər şeyə maraq göstərirdi. Çay süfrəsi arxasında xeyli oturduq. Zərifə xanım elə bil nağıllar aləminə düşmüşdü. Oradan qayıdandan sonra katerlə Xanbulançayı gəzdik. Heydər Əliyev də bizimlə idi. Zərifə xanım dedi ki, nə yaxşı, Lənkərana gəldik, təbiətin gözəlliyinə tamaşa etdik, dincimizi aldıq. Lənkəranda olan günləri heç vaxt unutmaram.

Heydər Əliyev olduqca diqqətcil, sözübütöv, dövlət qarşısında xidməti olanları qiymətləndirən, qayğı göstərən bir rəhbər, dahi şəxsiyyət idi. Respublika Qadın Problemləri üzrə Dövlət Komitəsi sədrinin birinci müavini işləyəndə adəti üzrə istirahət günlərinin birində işə çıxmışdım. 2002-ci il idi. Birdən höküumət telefonu səsləndi. Dəstəyi qaldırdım, Heydər Əliyev idi.

– Siz işdəsiniz? – soruşdu? Demək, istirahət günlərində də işləyirsən. Çox yaxşı...

– Azacıq sükutdan sonra soruşdu:

– Evin var?

Belə sualı gözləmədiyimdən əvvəl tutuldum, sonra dedim:

– Uşaqların yanında qalıram...

– Neçə otaqlı ev istəyirsən?

Ani sükutdan sonra dedim:

– Dörd otaqlı.

Heydər Əliyevin göstərişindən sonra mənə Bakıda dörd otaqlı ev ayrıldı. Diqqət və qayğıya görə o dahi insana öz minnətdarlığımı bildirdim.

## DAHİ LİDERİM, BÖYÜK SƏRKƏRDƏM

Xalqın nicat yolu, böyük rəhbəri,
Haqqın, ədalətin, elm mənbəyi.
Sevdin canın kimi daim vətəni.
Silinməz iz qoydun ulu tarixdə,
Sən dahi liderim, böyük sərkərdəm.

Doğdu qaranlıqdan sanki bir çıraq,
Durdun əsgər kimi keşikdə oyaq,
Etdin dərdimizi dünyaya soraq.
Silinməz iz qoydun ulu tarixdə
Sən dahi liderim, böyük sərkərdəm.

Dağ oldun vüqarlı, heç əyilmədin,
Gördün çətinliklər heç çəkilmədin.
Tanıtdın hər yerdə vətəndaşını.
Silinməz iz qoydun ulu tarixdə,
Sən dahi liderim, böyük sərkərdəm.

Oldun öz xalqının qurtuluş yolu,
Ürəyi arzuyla, ümidlə dolu.
Əyilməz, sarsılmaz, qırılmaz qolu.
Silinməz iz qoydun ulu tarixdə,
Sən dahi liderim, böyük sərkərdəm.

İgidlər qan tökdü torpağı üçün,
Əsirlikdən azad olundu vətən.
Xarıbülbül ətir saçdı yenidən,
Qaçqın naləsinə olmusan həmdəm.
Sən dahi liderim, böyük sərkərdəm.

***Məcidova Leyla Qadir qızı***
***Lənkəran Dövlət Universitetinin***
***baş müəllimi,***
***Tarix üzrə fəlsəfə doktoru***

# O, SƏMİMİ BİR İNSAN İDİ

## Tanınmış həkim Əzizağa Talışinskinin dedikləri

"Mən Heydər Əliyev ilə evlərində bir neçə dəfə görüşmüşəm. Ailə üzvləri xəstə olanda məni dəvət ediblər. Həyatda Heydər Əliyev çox səmimi və qayğıkeş bir insan idi. İnsanların daxilini öyrənirdi, sonda isə öz fikrini bildirirdi. Çalışırdı ki, söhbət etdiyi insanın qəlbində olan sözləri ala bilsin.

Heydər Əliyev ilə danışıqdan sonra ona bildirdim ki, Azərbaycanda qulaq-burun və boğaz xəstəxanasının açılması çox gözəl olardı. Eynilə Uroloji xəstəxana kimi xəstəxananın açılması yerinə düşərdi – deyə bu barədə fikrimi bidirdim. Heydər Əliyev başladı başqa-başqa söhbətlərdən məsəllər çəkərək söhbətini davam etməyə. Fikrinin sonunda isə yenə gəldi mənim dediyim ideyanın üstünə.

Mən düşündüm ki, o bu ani müddətdə mənim dediklərimi analiz edirmiş özündə. Həm də mənim necə reaksiya verəcəyimi də nəzərindən qaçırmırdı.

O zaman səhiyyə naziri də yanımızda idi. Ona üzünü tutub dedi: "Sən fikirləş, belə bir xəstəxananın açılmasına köməklik elə".

Heydər Əliyevlə görüşümüz zamanı məndən bir nəfəri soruşdu. O hər şeyi bilirdi. Məndən bir daha soruşduğu adam haqqında həqiqəti öyrənib eşitmək istəyirdi. Həkimlərin Təkmilləşdirmə İnstitutunda qulaq-burun və boğaz kafedrasında müdir var idi – Nisəxanım Ağayeva. Azərbaycanlı bir qadın idi, həm də kafedra müdiri idi. Tibb elmləri doktoru haqqında məndən soruşdu ki, o, indi də kafedra müdiridir? Dedim, xeyr, indi o xanım kafedra müdiri deyil, indi onun yerində bir cavan həkim işləyir. O,

tibb elmləri namizədidir. Dərhal reaksiya verib dedi: – Necə yəni, tibb elmləri doktorun çıxartdılar, yerinə tibb elmləri namizədini qoydular?

Dedim, dünya belədir də. Heydər Əliyev: "Xeyr, dünya belə deyil! Bu mənim olmadığım vaxtlar olub", – deyə cavab verdi.

İran İslam Respublikasının Prezidentinin ailəsi Azərbaycan Prezidenti İlham Əliyevin qonağı idi. O zaman Rəfsəncanının oğlu və nəvəsi də xəstələnmişdi. O səbəbdən məni yenə dəvət etdilər ki, gələn qonaqlara xidmət edim. Uşağa baxdım və lazımi müalicəni yazdım".

Əzizağa Talışinskinin qardaşı Abbas Talışinski uzun illər Rusiyada həkim olaraq çalışmışdır. Ölümündən sonra Rusiya vilayətində onun üçün xatirə lövhəsi vurulub. Bu xatirə lövhəsində Rusiya vilayətinin səhiyyə naziri və digər qurumlar da iştirak ediblər. Abbas Talışinski həm də Böyük Vətən müharibəsi iştirakçısı olmuşdur. Lənkərandan olan Talışinskilər nəsli çox böyük bir ziyalı nəsildir. Talışinskilərin Azərbaycanda bir çox sahələrdə çalışan tanınmış ziyalıları olmuşdur və hal-hazırda da var. Bu nəsildən olan hərbçilər, yəni generallar və digər hərbi rütbələrə sahib olan şəxslər də olmuşdur. Demək olar ki, öz tanınmış ziyalıları ilə məşhur olan və Azərbaycan tarixində adı çəkilən ən nüfuzlu nəsillərdəndir.

Tanınmış qulaq-burun və boğaz həkimi olan Əzizağa Talışinskinin davamçısı oğlu Aydın Talışinskidir. O da atasının yolunu, həkimlik peşəsini çox layiqincə davam etdirir. Aydın Talışinski deyir ki, Moskva Dövlət Universitetinin tələbəsi olarkən Ulu Öndər Heydər Əliyevlə görüşmək fürsəti mənə də nəsib olmuşdur. O böyük şəxsiyyət ilə görüşərkən onun bizlərə verdiyi öyüd-nəsihət hələ də qulağımdan getmir. O bizə söylədi ki, harada olmağınız-

dan və hansı peşə sahibi olmanızdan asılı olmayaraq, bir azərbaycanlı olaraq ürəyiniz daima Azərbaycanla döyünməlidir. Hər yerdə Azərbaycanın adını qaldırmaq sizlər üçün ən əsas məsələ olmalıdır.

Biz öz gənclərimizi, gələcək nəslimizi bu ruhda, bu düşüncədə böyütməliyik. Gələcək işlərinizdə hər birinizə uğurlar arzulayıram.

# POLİQRAFÇI ALİM ŞƏDDAT CƏFƏROVUN XATİRƏLƏRİ

***Əsrlər boyu bizim ulu babalarımızdan indiyə qədər Azərbaycanın mütəfəkkir insanları milli azadlıq üçün mübarizə aparmışlar, vuruşmuşlar, amma buna nail ola bilməmişlər. Biz buna nail olmuşuq. Və bilin ki, bunu əlimizdə saxlamaq, bunu qorumaq hər bir insanın canından da artıqdır. Azərbaycan heç kəsdən asılı olmayacaqdır. Ancaq özü öz taleyini, öz gələcəyini həll edəcəkdir.***

Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir!

**El bilir ki, sən mənimsən,**
**Yurdum, yuvam, məskənimsən.**
**Anam dogma vətənimsən,**
**Ayrılarmı könül candan?**
**Azərbaycan! Azərbaycan!**

Həydər Əliyevlə ünsiyyətdə olmuş, təmasda olmuş, iş birliyində olmuş poliqrafiya üzrə ilk azərbaycanlı alim Şəddat Cəfərovun xatırladığı xatirələri:

Ulu Öndər Heydər Əliyevlə, demək olar ki, o işlədiyi dövrdə mən də elə işdə işləmişəm ki, bizim iş birliyimiz olub. Yəni o, burada Azərbaycanda rəhbər olduğu dövrdə, Moskvada rəhbər olduğu dövrdə, mən də Bakıda və Rusiyada böyük nəşriyyatların direktoru və direktor müavini vəzifəsində işləmişəm.

Heydər Əliyev çox böyük şəxsiyyət idi. Mənim dediyimə görə yox, Amerikanın prezidenti Klintonun vaxtında Heydər Əliyev haqqında dediyi sözü burada demək istəyirəm: Klinton deyib ki: Heydər Əliyev elə bir şəxsiyyətdir

ki, o nəinki Azərbaycanı, nəinki Rusiyanı, nəinki Amerikanı, ümumiyyətlə, dünyanı idarə eləyə bilən bir şəxsiyyətdir.

Bill Klinton hər kəs üçün bu sözü deməmişdir. O yalnız Heydər Əliyev haqqında bu dəyərli sözləri demişdir. Bu fikirdən aydın olur ki, o necə dahi insan olub. 1985-ci ildə mən "Azərbaycan" nəşriyyatında direktor müavini işləyirdim. "Azərbaycan" nəşriyyatı o vaxtı "Kommunist" nəşriyyatı adlanırdı. Bu nəşriyyat Mərkəzi Komitənin partiya nəşriyyatları sistemində birləşib və onlara rəhbərliyi Mərkəzi Komitə həyata keçirirdi. Orada bir şöbə var idi, Mərkəzi Komitənin nəzdində işlər idarəsi, Partiya nəşriyyatlarının işlərini sahmana salmaq üçün bu şöbə ilə tez-tez əlaqə saxlayırdıq.

Direktor müavini olduğum üçün bütün nəşriyyatın təchizat işlərinə mən cavabdeh idim. Təchizat sistemi ilə əlaqədar olaraq onlarla tez-tez əlaqə saxlayırdım. Ona görə də onlar məni yaxşı tanıyırdılar. 1985-ci ildə mənim kiçik övladım xəstələndi. Həkimlər mənə məsləhət etdilər ki, Rusiyanın mərkəzi hissəsində bu uşaq yaşasa, tez sağalar. Bu barədə mən MK-da olan rəhbərimə dedim və onlar Rusiyanın beş şəhərində rəhbəri olmayan böyük bir nəşriyyata məni rəhbər verdilər. Mən də Leninin doğulduğu Ulyanovsk şəhərini seçdim. Bu nəşriyyat "Azərbaycan" nəşriyyatından 4-5 dəfə böyük idi. Getdim, baxdım. Orada ilk növbədə Kolqin Gennadi Vasiliviç birinci katib vəzifəsində işləyirdi. O məni qəbul etdi. Onun qəbulunda olarkən mənə dedi: Haradansan? Dedim, Azərbaycandan. Cavabında mənə dedi ki: Azərbaycandan Heydər Əliyev mənim dostumdur. Mən Gürcüstanda ikinci katib işləyərkən Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində idi. Mənim çox ya-

xın dostum idi. Sən mənim yerlimsən, gəl, burada mən sənin üçün şərait yaradacağam. Heydər Əliyevə görə mənim Ulyanovsk şəhərində işləməyimə çox gözəl şərait yaradıldı. Mən ora gələndən sonra da öyrəndim ki, onlar mənim barəmdə Heydər Əliyevdən soruşmuşdular. O isə mənim haqqımda çox müsbət rəy verib və məsləhət verib ki, heç də pis olmaz, yaxşı olar. Məndən qabaq orada başqa rəhbər olmuşdu. Demək olar ki, nəşriyyat çox pis vəziyyətdə idi. Leninin doğulduğu şəhərdə hər şey onun adına layiq şəkildə olmalı idi. Bilirsiniz ki, o zamanın qayda-qanununa görə bunlar çox vacib idi. Mən də bütün bacarığımı işə saldım. Həm də bu, Heydər Əliyevin adı idi.

Həmin katib Heydər Əliyevə görə təzə tikilən binada ailəmdə 4 övladım olduğu üçün mənə beşotaqlı mənzil verdi. Demək olar ki, mənim bütün qayğılarım müsbət yerinə yetirilirdi. Odur ki mən də nəşriyyatı çox yüksək səviyyəyə qaldırdım. SSRİ üzrə birincilik səviyyəsinə yüksəltdim. Nəşriyyatı Keçici Qırmızı bayraqla təltif elədilər. Hər ayda işçilərə mükafatlar da verirdik. İşlədiyim müddətdə Ulyanovskda Heydər Əliyevlə görüşüm olmadı. Heydər Əliyev, ümumiyyətlə, 2 dəfə Ulyanovsk şəhərində olmuşdur. Birinci dəfə 1977-ci ildə Nəriman Nərimanovun heykəlini ucaldanda olub, ikinci dəfə isə 1983-ci ildə Volqa çayında Avropa ilə Asiyanı birləşdirən körpüyə gəmi dəymişdi. O zaman Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu üçün komissiyanın sədri olaraq Ulyanovsk şəhərinə gəlmişdi.

Uşaqlarım Leninin oxuduğu 1 saylı məktəbdə oxuyurdular. İstər nəşriyyatda işçilərim, istərsə də məktəbdə olan yerli insanlar hamısı Heydər Əliyev haqqında çox yüksək fikirlər, xoş xatirələrini söyləyirdilər.

1990-cı illərdə erməni quldurlarının fitnəkarlıqları ha-

mının yadındadır. Orada vəziyyətim də çox yaxşı idi. Amma Azərbaycanda olan hadisələrə görə mən də vətənə qayıtdım. Məni buraxmırdılar ki, siz yerinizə bir kadr verin, sonrasında buraxaq. Elə Bakıdan bir kadr göndərdim yerimə. Beləcə, böyük karyeramı buraxıb qayıtdım vətənə.

Bakıya qayıtdım. “Azərbaycan” nəşriyyatında işimə davam etdim. Bir gün axşam idi, yəni iş vaxtı qurtarmışdı. Bir nəfər yanıma gəlib bir qovluq qoydu stolun üstünə ki, bu nəşr ediləcək. O zaman Heydər Əliyev Naxçıvanda yaşayırdı. O dövrdə Heydər Əliyevin bir şəklini çap edəni bilirsiniz, nə gözləyirdi?! Amma mən qovluqdakı yazıları vərəqləyərkən düşünürdüm ki, bu dahinin yetirməsi olduğum halda necə mən onun kitabını çap etməyim? O zaman Rusiyaya hər şeyin hesabatı verilirdi. Bu çətinliyə baxmayaraq, mən o kitabı çap etdim. Kitabı aparıb ona təqdim etməyim bildirilsə də, mən getmədim. O səbəbdən ki bir kitab çap etmişəm. Nə böyük iş idi, mən Heydər Əliyev üçün etmişdim, onun bütün bizlər üçün etdiyinə baxanda. Ertəsi gün mənə zəng vuraraq Heydər Əliyevin kitabı bəyəndiyini bildirdilər. Kitab çapından 3-4 gün keçəndən sonra isə bir nəfər mənə zəng edib dedi ki, biz Heydər Əliyevin şəklini çap eləməyə icazə vermirik, amma sən onun kitabını çap etmisən. Özü də üz qabığında onun şəklini vermisən. İndi gəlib səni beşinci mərtəbədən atarıq bayıra. Düzü, mən çox hirsləndim, çünki məni nalayiq sözlərlə təhqir edirdilər. Mən də dedim ki, gəlib atmayan kişi deyil (üzr istəyirəm ifadəmə görə). Və telefonun dəstəyini yerinə qoydum. Axşam saat ona qədər gözlədim, gələn olmadı. Səhəri “Azərbaycan” nəşriyyatına işə gələndə polislərə tapşırdım ki, gözdə-qulaqda olsunlar və onları axşam olan olaylar barədə məlumatlandırdım. Tapşırıq verdim ki, hər girib-çıxan adama diqqət verin. Dedilər ki, lazımdırsa, sizə

cangüdən təyin edək, işə aparıb-gətirsin. Fikirləşib dedim ki, yox, lazım deyil cangüdən. Əgər məni Heydər Əliyevdən ötrü öldürürlərsə, mən bunu özüm üçün fəxr sayıram. İşlədim, ondan sonra heç kim gəlmədi. Hər şey qaydasında keçdi.

Ulu Öndər Heydər Əliyevin MK-nın İşlər İdarəsinə verdiyi tapşıqır və tövsiyələri mən məsuliyyətlə yerinə yetirirdim.

# QƏZƏNFƏR NƏSİRLİ
## *NƏSİLLƏRİN GÖRÜŞÜ*

Ümummilli Lider Heydər Əliyev Respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə tez-tez bölgələrə səfər edir, ölkənin əmək ritmi, əməkçi insanların həyatları, özləri ilə yaxından tanış olur, qayğı və problemlərini öyrənir, əmək bahadırları ilə, qabaqcıl əməkçilərlə elə iş başındaca görüşür, təsərrüfat işlərinin gedişini əyani şəkildə izləyirdi.

Lənkəran rayonunun inkişafı da Azərbaycan xalqının böyük oğlu, əvəzsiz siyasi şəxsiyyət Heydər Əliyevin hər zaman xüsusi diqqət mərkəzində olmuşdur. Təsadüfi deyil ki, Ulu Öndər 6 dəfə (1973, 1974, 1976, 1979, 1982 və 1998-ci illərdə) Lənkərana gələrək rayonun həyatı ilə yaxından maraqlanmış, əhalini düşündürən problemləri yerindəcə öyrənib, müvafiq tədbirlər görmüşdü. Hər gəlişində zavod, fabrik və digər müəssisələrdə görüşlər keçirən, tarlalarda zəhmət adamları ilə birbaşa ünsiyyətdə olan Heydər Əliyevin səfərləri Lənkəranın sosial-iqtisadi və mədəni həyatında əlamətdar hadisəyə çevrilməklə ümumi irəliləyişə güclü təsir etmişdir. Məhz bu amil sayəsində 1969-cu ildən 1982-ci ilə qədər Lənkəranda sənaye və kənd təsərrüfatı istehsalı sahəsində yüksək nailiyyətlər əldə edilmişir. 1970-1980-cı illər arasında neçə-neçə fabrik və zavod açılmış, xidmət sahəsi inkişaf etdirilmişdir. Bütün bu göstəricilərə uyğun olaraq əhalinin yaşayış səviyyəsi də kifayət qədər yaxşılaşmışdır.

Qeyd etdiyimiz kimi, Azərbaycan rayonlarına səfəri zamanı Ulu Öndərin sadə adamlarla elə iş başında ünsiyyətdə olması, onların işləri ilə yaxından maraqlanması və əməklərini qiymətləndirilməsi zəhmət adamlarında da xoş təəssüratlar yaradır, qəlblərini fərəh, sevinc hissi ilə doldu-

rurdu.

Təbii ki, Heydər Əliyev kimi tarixi şəxsiyyətlə belə görüşlər əmək bahadırları üçün unudulmaz, əlamətdar bir tarixə çevrilir, ömürlərinin sonuna kimi yaddaşlarında yaşayırdı.

1973-cü ildə həmyerlimiz Qəzənfər Nəsirlinin də taleyinə Ümummilli Lider Heydər Əliyevlə görüşmək nəsib olmuşdur.



**Heydər Əliyev və Müzəffər Nəsirli**

Belə ki, həmin il Heydər Əliyev Lənkəranda olarkən qabaqcıl əməkçilərlə görüşür, təsərrüfat işlərinin gedişi ilə yaxından tanış olur. O bu görüşdə bir qrup zəhmət adamına yüksək dövlət mükafatları – orden və medallar təqdim edir. Ulu Öndər Q.Nəsirlinin də əməyini yüksək qiymət-

ləndirir. Azərbaycan rəhbəri Qəzənfər müəllimi "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edir, ona yeni uğurlar arzulayır.

Heydər Əliyev ideallarına həmişə sadiq qalmış Qəzənfər Nəsirli üzün müddət bu əlamətdar tarixi günün təsirindən çıxa bilmir, ömrünün sonuna kimi xalqın müdrik başçısını, əvəzsiz xidmətini fərəh və iftixar hissi ilə xatırlayırdı. Həyatda, ictimai-siyasi fəaliyyətində meyar, ideal sandığı tarixi şəxsiyyətlə bu görüşü özü üçün xoşbəxtlik sayırdı. Heydər Əliyevin onun ünvanına söylədiyi xoş sözləri, ona işində daha böyük uğurlar arzulamasını Qəzənfər müəllim təqaüddə olanda da tez-tez xatırlayar, məktəblərdə, əmək kollektivlərində ictimai-siyasi tədbirlərdə, el-oba məclislərində, xüsusilə gənclərə, eləcə də övladlarına, nəvə-nəticələrinə böyük fərəh hissi ilə xatırladaraq belə deyərdi: "Mən həmişə xalqıma ləyaqətlə xidmət etməyə çalışmışam. Bütün el-oba, dost-tanış bilir ki, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevi daim özümə ideal bilmişəm. Onu çox böyük şəxsiyyət, qayğıkeş insan, dövlət xadimi hesab etmişəm. Siz də onun ideallarına sadiq qalın. Heydər Əliyev dühası Azərbaycan xalqını xoşbəxt gələcəyə aparır. Arzu edirəm ki, hər biriniz Ulu Öndərin azərbaycançılıq məfkurəsinə ləyaqətlə xidmət edəsiniz".

Bir qədər də Qəzənfər Nəsirlinin əmək bioqrafiyasından söhbət açmaq istəyirik. 1920-ci ildə Lənkəran şəhərində ziyalı ailəsində dünyaya göz açan Qəzənfər İbrahim oğlu Nəsirli ilk təhsilini 2-ci dərəcəli məktəbdə aldıqdan sonra, 1930-cu ildə Gəncədəki Zaqafqaziya Pambıqçılıq Akademiyasına daxil olur. 1935-ci ildə oranı bitirdikdən sonra uzun müddət Lənkəranda rayonlararası suvarma sistemləri idarəsində baş mühəndis, sonra rəis kimi çalışan Q.Nəsirli çox keçmir ki, öz sahəsində kamil mütəxəssis kimi tanın-

mağa başlayır. 1959-cu ildə o, Lənkəran rayon İcraiyyə komitəsinin sədri vəzifəsinə irəli çəkilir. 1964-cü ildə Lənkəranda Maşın Stansiyasının direktoru təyin olunur. Qəzənfər müəllim harada işləməyindən asılı olmayaraq həmişə məsuliyyətlə çalışaraq, üzərinə düşən işi, verilən tapşırığı və tövsiyələri layiqincə yeinə yetirməyə çalışmışdır.

Qəzənfər Nəsirli 1978-ci ildə Respublika əhəmiyyətli təqaüdçü kimi işdən ayrılaraq, yerini gənclərə etibar etmişdir. 81 yaşında dünyasını dəyişən Q.Nəsirli nəslinin estafeti bu gün etibarlı əllərdədir. Ömür davamçıları olan övladları, nəvə-nəticələri onun vəsiyyətlərini həyata keçirmək üçün layiqincə xidmət etməyə çalışırlar.

Qəzənfər Nəsirlinin vəsiyyətlərinə sadiqlik nümayiş etdirən nəvəsi Vüsal İbrahim oğlu Nəsirlidir. Babası kimi işgüzar, yüksək təşkilatçılıq sərgisinə və idarəetmə bacarığına malik olması ilə diqqət çəkən Vüsal bu gün Lənkəranın ictimai həyatında ən fəal gənclərdən biridir. Vətənpərvər, mübariz, bacarıqlı gənc kimi artıq nüfüz qazana bilmişdir.

2002-ci ildən Yeni Azərbaycan Partiyasının üzvü olan Vüsal Lənkəran şəhər Gənclər və İdman İdarəsinin rəis müavini vəzifəsində çalışıb.

2007-2010-cu illərdə Lənkəran şəhər Mədəniyyət və Turizm şöbəsinin tarix və mədəniyyət abidələrinin mühafizəsi sektorunun müdiri, 2010-2012-ci illərdə Lənkəran şəhər Gənclər və İdman İdarəsinin rəis müavini, 2012-2013-cü illərdə Lənkəran şəhər İcra Hakimiyyəti Başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri, 2015-2017-ci illərdə Lənkəran şəhər Mədəniyyət və Turizm şöbəsinin müdiri, 2017-2021-ci illərdə Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi vəzifələrində çalışmışdır. 2018-ci ildə ona “Dövlət qulluğunun ki-

çik müşaviri" ixtisas dərəcəsi verilmişdir.

2016-cı ildə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət və bələdiyyə idarəetməsi" ixtisaslaşmasının "Regional idarəetmə" ixtisası üzrə magistraturasını fərqlənmə diplomu ilə bitirmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun aspirantı olmuşdur. Hazırda "Avropa İttifaqının Yeni Qonşuluq Siyasəti və Cənubi Qafqaz" adlı elmi iş üzərində işləyir.

2022-ci ilin sentyabrından LDU-nin "Tarix və onun tədrisi metodikası" kafedrasının müəllimidir.

Qeyd edək ki, Vüsal Nəsirli Lənkəran Dövlət Universitetinin "Tarix və ictimaiyyət" ixtisasının bakalavr və magistr pillələrini fərqlənmə diploma ilə bitirmişdir.

Məlum olduğu kimi, 2012-ci ilin martın 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev talış regionuna səfəri çərçivəsində Masallı rayonunda da olmuş, bir sıra obyektlərin, o cümlədən Gənclər Mərkəzinin açılışında iştirak etmişdir. Bu tədbirdə Prezident həmçinin bölgə gəncləri ilə görüşmüş, onların işi ilə maraqlanmış, tövsiyələrini vermişdir. Bu tədbirdə Lənkəran gənclərini təmsil edənlərdən biri də Vüsal Nəsirli olmuşdur. Bu görüş bütün gənclər kimi, Vüsalda da xoş təəssüratlar yaratmış, qəlbini fərəh hissi ilə doldurmuşdur.

Bu barədə V.Nəsirlinin dediklərindən:

– Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bölgə gəncləri ilə görüşü məndə də böyük məmnunluq hissi yaradaraq unudulmaz anlar yaşatdı. Prezidentimizin gəncləri bizim inamımız, gələcəyə ümidimizin mənbəyi hesab etməsi, Azərbaycanın gələcəyini gənclərə etibar etməsi bizi ölkəmizin gələcək inkişafı üçün daha səylə çalışmağa ruhlandırmışdır. Bütün gəncləri Preziden-

tin daxili və xarici siyasətini dəstəkləməyə, onun ətrafında daha sıx birləşməyə çağırıram.

Yəqin ki, “Tarix təkrar olunur” desək, yanılmarıq. Bir vaxtlar babası Qəzənfər Nəsirli Ümummilli Lider Heydər Əliyevlə görüşmüş, onun dəyərli fikirlərini, tövsiyələrini, xoş sözlərini eşitmişdir. Bu gün nəvə Vüsal Nəsirliyə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşmək nəsib olmuşdur. Bu nəsillərin görüşü idi. Sübhə yox idi ki, bu görüş Vüsal Nəsirlinin də yaddaşında əbədi yaşayacaq, unudulmaz xatirəyə çevrilərək gələcək fəaliyyətində barometr rolunu oynayacaqdır.

# AZƏRBAYCAN RESPUBLİKASININ MASALLI RAYONU



## İMAMZADƏ-NƏZİRƏ XANIM TÜRBƏSİ
**(Masallı rayonu, Hişkədərə kəndi. XV əsrə aid ölkə əhəmiyyətli arxeoloji və eyni zamanda memarlıq abidəsi)**

# MASALLI RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI

# OQTAY ƏLİYEVİN 2006-CI İLDƏKİ ÇIXIŞI (QUSARDA, LƏNKƏRANDA VƏ ŞƏKİDƏ BÖLGƏ MÜŞAVİRƏSİNDƏ)

Biz hamımız Azərbaycandakı, rayonumuzdakı quruculuq işləri, tikintilər, kənd və xalq təsərrüfatının inkişafı, mədəniyyət, ədəbiyyat və incəsənət sahəsində, sahibkarlığın inkişafı istiqamətlərində şahidi olduğumuz uğur və nailiyyətlərə görə, xoşbəxt və firavan həyat səviyyəsinə görə bu dahi insana minnətdar olmalıyıq.

Heydər Əliyev Azərbaycanın bütün guşələrini gözəl, inkişafını yüksək görmək istəyirdi.

Bölgəmizdə, eləcə də Masallıda sənayenin əsaslarının, faraş tərəvəzçiliyin, çayçılığın, heyvandarlıq və üzümçülüyün intensiv inkişafınıda, bazar iqtisadiyyatına keçid islahatlarının, keçmiş SSRİ respublikalarının hamısından tez həyata keçirilməsində, sosial-mədəni tərəqqimizin sürətli irəliləyişində onun böyük qayğısı və zəhməti olmuşdur.

"Viləşçay" su dəryaçasının, iripanelli zavodun, onlarla sosial obyektlərin tikintisinə, yeni istehsal müəssisələrinin yaradılmasına və s. dahi şəxsiyyətin qayğı və diqqətini heç kəs unutmayıb. İndi Masallıda həmin "Viləş" suvarma kompleksi Ulu Öndərimizin adını daşıyır. Onun adını və əməllərini daim əziz tutan masallılılar ilk olaraq şəhərimizin mərkəzində icra hakimiyyətinin binası önündə Heydər Əliyevin əzəmətli abidəsini ucaltdılar. Şəhərimizdə geniş, yaraşıqlı, rahat prospekt yenidən quruldu və hazırda onun adını daşıyır. Mədəniyyət və istirahət parkı Heydər Əliyev parkı adlandırılmış, burada fəvvarələr yaradılmış, xeyli

yaşıllıq, abadlıq işləri görülmüş, Heydər Əliyev irsinin öyrənilməsində mühüm rol oynayacaq muzey binası tikilmişdir. Hazırda parkda əlavə işlər davam etdirilir.

Heydər Əliyev irsini və idarəetmə təcrübəsini dərindən öyrənmək məqsədilə RİH başçısı aparatı nəzdində Heydər Əliyev universiteti fəaliyyət göstərir, hər il 10 may ərəfəsində müxtəlif səpkili müsabiqələr, sərgilər, oxular, kütləvi idman yarışları keçirilir.

Böyük şəxsiyyət, dahi sərkərdə, müstəqil Azərbaycanın çiçəklənməsi yolunda misilsiz xidmətləri olan Heydər Əliyevə nə qədər abidələr ucalsa da, onun haqqında nə qədər mahnı və musiqi bəstələnsə də, küçələrə və xiyabanlara adı verilsə də, nə qədər haqqında kitablar yazılsa da, neçə-neçə beynəlxalq simpozium və konfranslar keçirilsə də, millətimiz onun qarşısında daim borcludur.

Dahi rəhbərimizin rayonumuzun əhalisi haqqında dediyi: «Masallıda çox zəhmətkeş, vətənpərvər, həqiqi Azərbaycan vətəndaşları yaşayır» qiymətli sözləri, bizi bir azərbaycanlı kimi daha yaxşı işləməyə, xalqımıza xidmətdə, Heydər Əliyev nümunəsi göstərməkdə, hər gün səfərbər edir.

Heydər Əliyevin ordu quruculuğu, neft strategiyasının həlli yolları, Azərbaycan dilinin statusunun möhkəmləndirilməsi, əhalinin sosial rifahının yaxşılaşdırılması, ölkəmizdə qadın və gənclər hərəkatının, torpaq, təhsil, səhiyyə və mədəniyyətin, idmanın və s. sahələrin inkişafı sahəsində islahatların aparılmasında, bütün bunların əsasında dünyada gedən qloballaşma prosesində milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaqla, müstəqilliyimizin və dövlətçiliyimizin qorunmasında və gücləndirilməsində rolu müqayisə edilməzdir. Əslində, Heydər Əliyevin onun Azərbaycanşünaslıq və Azərbaycançılıq elminin inkişafına

dair mükəmməl konsepsiyası Azərbaycanımızın dünyada imicinin artması bu amallara xidmət etmişdir. Onu tanımadan, ona vicdanla xidmət edib qorumadan, Azərbaycanı inkişaf etdirmədən, heç kəs özünü əsl azərbaycanlı adlandıra bilməz.

Möhtərəm Prezident ictimaiyyətin nümayəndələri qarşısındakı nitqində «Mən hər dəfə bu bölgəyə gələndə, inkişafı görəndə, bu gözəl ab-havanı görəndə çox sevinirəm» – dedi. Bölgənin çox böyük potensiala malik olduğunu, bundan səmərəli istifadə etməyin vacibliyini söylədi. Aparılan işlərin yaxın zamanlarda bölgədə gözəl nəticələr verəcəyini, yeni elektrik stansiyasının tikilməsini, qaz xətlərinin çəkilməsini, yeni yolların salınmasını, digər infrastruktur layihələrin artıq reallığa çevrildiyini diqqətə çatdırdı.

# MİR KAZIM ASLANLI - SARƏNGİN İDEYALARININ GERÇƏKLİYƏ ÇEVRİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

Azərbaycan ictimai fikir tarixinin, ədəbiyyatının, tibb elminin, turizminin ən nəhəng simalarından biri Mir Kazım Aslanlı - Sarəngdir. O, Azərbaycan tarixində müstəsna yeri olan Talış xanlarının nəsil şəcərəsinə mənsubdur. 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra onun ata-babası öz şəxsi əmlaklarını kolxoz quruculuğuna təslim etməkdən boyun qaçıraraq mövcud rejimə qarşı silahlı müqavimət göstərmişlər. Nəticədə onların bütün əmlakları 1922-31-ci illərdə tamamilə müsadirə edilmişdir.

İllüstrasiyalarla zəngin olan həyat meydanında möcüzələrin baş verməsi istisna deyil. Haqqında söhbət açdığımız M. Aslanlı məhz fitri istedadı, qeyri adi ağlı və zəkasının sayəsində tarixi zərurətdən və şansdan məharətlə istifadə edərək öz adını milli tariximizin görkəmli şəxsiyyətləri sırasına “qızıl hərflərlə” yazmışdır.

Hidrogen-sulfidli Masallı İsti su mineral bulaqlarının yerləşdiyi ərazidə onun apardığı elmi-tədqiqat işlərinin tarixi ötən əsrin 45-ci ilindən sonrakı dövrlərə gedib çıxır. Lakin Masallıda ilk dəfə “Ərkivan-Gülüstan İsti su Sanatoriyası”nın yaranması 1959-61-ci illərə təsadüf edir.

Bir el məsəli yada düşür: “Qorunanı Tanrı da qoruyur”.

Tale belə gətirir ki, M. K.Aslanlının Zaqatala və Bakıda təhsil aldığı illərdə tələbə yoldaşı olduğu iki tarixi şəxsiyyət: akademiklər İmam Mustafayev və Vəli Axundov 1954-1969-cu illərdə Azərbaycan KP MK-nın 1-ci katibi vəzifələrində çalışaraq faktiki olaraq dövlət başçısı olmuşlar. Qəhrəmanımız məhz həmin şəxsiyyətlərlə dostluq əla-

qələrindən məharətlə istifadə edərək özünün gələcək planlarını məqsədyönlü şəkildə, çox böyük əngəllərə, maneələrə, təqiblərə sinə gərərək ustalıqla reallaşdıra bilmişdir. Nəzərə alaq ki, həmin dövrdə SSRİ və İran şahənşahlığı müxtəlif ictimai-siyasi qütblərdə qərar tutduqlarına görə İmişli-Biləsuvar rayonları ərazisində sərhəd-buraxılış məntəqələri mövcud idi. Və Masallı rayonu ərazisində hər hansı bir sanatoriyanın yaradılması dövlətin apardığı beynəlxalq siyasətə daban-dabana zidd olduğuna görə real görünmürdü. Bax belə bir çətin, təzadlarla zəngin bir dövrdə M.K.Aslanlı reallaşması mümkün olmayan bir ideyanı reallaşdırdı.

M.K.Aslanlının həyat və yaradıcılığı barədə ən mötəbər mənbələrdən biri də yazıçı-publisist, jurnalist-tədqiqatçı Xodaşirin Cəbiyevin (Cabbari) qələmə aldığı "Şəms – zülmətlə şəfəq arasında" adlı əsəridir ("Bakı mətbəəsi" ASC-2021). Həmin kitaba istinad edərək M.K.Aslanlının qurub-yaratdıqlarının əhatə dairəsi barədə daha ətraflı bilgilər əldə etmək, səhih fikir söyləmək mümkündür.

M.K.Aslanlının irəli sürdüyü mütərəqqi ideyalar əsasən aşağıdakılardan ibarət olmuşdur:

– Viləş çayının qarşısında su bəndinin tikilməsi, Araz çayının bir qolunun ona birləşdirilməsi, orada su-elektrik stansiyasının inşa edilməsi

– Talış-Muğan zonasında təsərrüfat sahələrinin inkişafı üçün suvarma şəbəkəsinin yaradılması

– Dəmbəlov dağının ətəklərində istirahət güşələrinin tikilməsi, dağın zirvəsindən İsi kəndindəki "Palıdlı meşəlik" sahəsinə kanat yolun çəkilməsi

– Gələcəkdə tikiləcək "Viləşçay" dəryaçasında qayıqlarda gəzinti və idman yarışlarının keçirilməsi

– Ərkivan qəsəbəsindəki "Dəştvənd" sahəsində büllur qablar və kimya-əczaçılıq zavodlarının tikilməsi və s. bu

kimi səmərəli və maraqlı təkliflərlə çıxış etmişdir.

Məlumat üçün bildirək ki, şəxsi arzusundan irəli gələrək yuxarıda adını çəkdiyimiz sanatoriya, mineral su bulaqlarının mənbəyində deyil, onun yaradıcısının doğulub boya-başa çatdığı İsi kəndi ərazisində yerləşən "Palıdlı meşəlik" deyilən sahədə quraşdırılan 12 "fin evləri"ndən ibarət olmuşdur.

İrəli sürdüyü uzaqgörən ideyaların böyük bir hissəsi onun ölümündın sonra (1975), Azərbaycan KP MK-nın 1-ci katibi Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gələndən sonra həyata keçirilmişdir. Belə ki, H.Əliyevin ciddi səyi sayəsində ümumittifaq büdcəsinin vəsaiti hesabına Masallı rayonu İsi Qəriblər kəndlərinin ərazisində 1986-cı ildə "Viləşçay" dəryaçası istifadəyə verilmişdir. Həmin su anbarının həcmi 46,0 mln. $m^3$, torpaq bəndinin hündürlüyü 37 m və üstdən uzunluğu 3,2 km-dir. Anbarın 2-ci növbəsinin tikintisi ilə bəndin hündürlüyünün daha 15 m qaldırılması və həcminin 130 mln. $m^3$-ə çatdırılacağı nəzərdə tutulmuşdur.

1978-79-cu illərdə "AzərKəndTikinti" Tresti Həmkarlar Təşkilatının vəsaiti hesabına "Palıdlı meşəlik" deyilən sahə ilə üzbəüz "İkar" pioner düşərgəsi, 1984-86-cı illərdə həmin ərazidə hərbi hissələrin hesabına daha 4 ədəd "fin evləri" inşa edilmişdir.

1986-89-cu illərdə İsi kəndinin qarşısında müasir tələblərə cavab verən, hər cür rahatlığı olan, tibbin ən son nailiyyətlərinə cavab verən 4 mərtəbəli sanatoriya binası inşa edilmiş, lakin SSRİ-nin süqutundan sonra həmin tikintinin başa çatdırılması yarımçıq qalmışdır.

1993-cü ildə Heydər Əliyev Azərbaycanda 2-ci dəfə hakimiyyətə gələndən sonra M.K.Aslanlının ideyalarının gerçəkləşməsi istiqamətində işlər daha geniş vüsət almışdır. 1998-ci ildən başlayaraq ölkədə torpaq islahatının apa-

rılmasından sonra iş adamı İldırım Allahyarov dövlətdən müxtəlif illərdə (1998-2008) 600 min manatdan artıq kredit vəsaiti alaraq İsti su bulaqlarının yerləşdiyi 10 hektar ərazidə tikinti-abadlıq işləri apararaq "Masallı İsti su Fatimeyi-Zəhra Şəfa Sanatoriyası"nı yaratmışdır. Orada hər cür şəraiti olan çoxmərtəbəli binalar, kotteclər, hovuzlar, istirahət-əyləncə qurğuları inşa edilərək quraşdırılmışdır.

1998-ci ildə Masallı RİH-nin başçısı Teymur Yəhyayevin təşəbbüsü ilə "Viləşçay" dəryaçasında qayıqda gəzinti və idmançıların qayıqsürmə yarışları təntənəli şəkildə keçirilmşdir.

Regionların Sosial-İqtisadi İnkşafı Dövlət Proqramına uyğun olaraq son illərdə İsti su hidrogen-sulfidli mineral su bulaqlarının yerləşdiyi ərazilərdə 20-dən artıq istirahət mərkəzi istifadəyə verilmişdir. Həmin istirahət mərkəzlərində dünyanın bir sıra ölkələrindən gələn turistlər dincəlir, möcüzəli şəfa bulaqlarından bəhrələnərək sağlamlıq səadətinə qovuşurlar.

2012-ci ildə M.K.Aslanlı - Sarəngin anadan olmasının 100 illiyi ilə əlaqədar olaraq X.Cəbiyevin təşəbbüsü ilə onun qələmə aldığı "Şəms zülmətlə şəfəq arasında" adlı kitabın motivləri əsasında kinorejissor, professor Aydın Dadaşov tərəfindən "Tərk etmə məni" adlı kinofilm ekrana gətirilib.

2022-ci ildə Mir Kazım Aslanlı - Sarəngin anadan olmasının 110 illiyi Masallıda böyük təntənə ilə qeyd edilmiş, Masallı RİH-nin təşəbbüsü ilə qəbirüstü abidəsi təmir edilərək yeni büstü ucaldılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə "Viləşçay" dəryaçasının ikinci qovşağının tikintisi layihələşdirilmiş, inşaat işlərinin başlanması yaxın gələcəkdə həyata keçiriləcəkdir.

## UĞURLU İNKİŞAFIN MEMARINA SƏS VERƏK!

*Müdrik və mənalı həyat yaşamış insanlar haqqında yazmaq çox çətindir. Çünki onlar haqqında yazmaq üçün bu cür insanların keçdikləri həyat yolunun bütün məqamlarını rəssam kimi zərrəsinə qədər təsvir etməli, zərgər kimi bu ömrün bütün dönəmlərini xüsusi "naxışla işləməlisən" ki, heç bir səhvə yol verməyəsən. Axı bu məsələdə, azacıq edə biləcəyin bir səhv, nəhəng bir insanın zəngin həyat yolunu alt-üst edə bilər. Jurnalist qələmi də zərgər aləti kimi ehtiyatlı olmağı tələb edir belə yerdə. Elə bu gün haqqında danışacağım qəhrəmanım kimi...*

## Ş.R.ƏBİLOVA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Şirvan Rəşid oğlu Əbilova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü

verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İLHAM ƏLİYEV,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 7 sentyabr 2007-ci il*

*Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, YAP Siyasi Şurasının üzvü, "Qızıl qələm" media mükafatı laureatı, el ağsaqqalı, görkəmli ziyalı Şirvan Rəşid oğlu Əbilovun ictimai-siyasi həyatında səmərəli fəaliyyəti ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüd verilməsi ilə bağlı Sərəncamı, onun dəyərli və mənalı ömür yolundan bəhs edən bəzi dəyərli məqamlar haqqında:*

– Həyatda çox maraqlı hadisələr baş verir. Bir eldən-obadan olasan, bir-birini tanımayasan. Düzü, mən "DODO" qəzetinin baş redaktoru kimi çalışmağa başlayandan, demək olar ki, qəzetin bütün yükü mənim çiyinlərim üstündə olduğundan talış regionunda çox informasiyalardan məlumatsızam, yorğunluqdan çox informasiya qəbul edə bilmirəm. Çünki illərdir Azərbaycan dövlətimiz müstəqilliyə imza atandan Sovetlər dönəmindən bu yana qalaq-qalaq işlər yığılıb qalıb. Deyərdim ki, qəhrəman Şirvan Əbilov haqqında yazmaq mənə çox da asan deyil. Təəssüflənirəm ki, çox heyif bu el ağsaqqalını sağlığında tanımamışam. Düzü, araşdırmalar aparanda Masallı ziyalıları ilə söhbət edib soruşurdum ki, bu rayonda kim müdrik və dahi Heydər Əliyevlə üzbəüz görüşüb, danışıb?

Bir neçə məlumat toplasam da, nədənsə qane olmamışdım. İnternetdə Şirvan Əbilovun bir neçə videolarına baxdım. Ondan ötrü Şirvan müəllimin oğlu Ərəstun Əbilovla telefon əlaqəsi saxladım. Ərəstun müəllimi "DODO" redaksiyamıza dəvət etdik və o, dəvəti qəbul edib gəldi. Elə o gündən bizim tanışlığımızın təməli qoyuldu. Ərəstun müəllim atası haqqında elə geniş və dolğun danışdı ki, onun xoş təbəssümü və gözlərindəki sevinci, sanki ətrafa işıq saçırdı. O çətin anlarda atasının Azərbaycanın quruculuğunda elə onun özü ilə birgə necə addım atmaqlarından mənalı fikirlər söyləyirdi. Kəlmələrindən böyük həyat yolu keçmiş, həyatın ən dəhşətli keşməkeşlərindən üzüağ, alnı açıq çıxan el ağsaqqalının oğlunun söhbəti adamı valeh edirdi.



**Heydər Əliyev və Şirvan Əbilov**

Bəli, Atam Şirvan Əbilov Ulu Öndərimiz Heydər Əliyevlə görüşərək Yeni Azərbaycan Partiyasının ilk qurultayında iştirak etmiş, uzun illər hüquq-mühafizə orqanlarında şərəflə xidmət etmişdir. Təkcə talış elində, Masallı rayonunda, canı qədər sevdiyi Mahmudavar kəndində deyil, bütün Respublikada ağır-batman, cavanının, qocasının, dövlət məmurundan tutmuş adi insanlara qədər, hər kəsin yanında sözü keçərli olan el ağsaqqalı Şirvan Əbilov ölkənin ictimai-siyasi həyatında da fəal iştirak etmişdir. ***Ömrünün ən mənalı həyat səhifəsi, Ümummilli Lider Heydər Əliyevlə keçirdiyi görüşlərlə bağlıdır.*** Azərbaycan xaos və anarxiya içində boğulanda, bir dövlət kimi dünya xəritəsindən yox olub getmək təhlükəsi ilə üz-üzə qalanda ölkənin dəyərli ziyalıları kimi, o da BÖYÜK HEYDƏR ƏLİYEVƏ üz tutmağı özünə vətəndaş borcu hesab edib. O zaman hakimiyyətdə olan AXC–Müsavat hakimiyyətinin nümayəndələri, dəfələrlə ona Naxçıvana getməyi, Ulu Öndərlə görüşməyi qadağan etmişdilər. Şirvan müəllim bütün bu təqib və qadağalara baxmayaraq, min bir məşəqqətlə də olsa, Naxçıvana, Ulu Öndərin görüşünə gedər, cənub bölgəsinin əhalisi adından Azərbaycanı bu ağır durumdan xilas etmək üçün xalqın istək və arzularını ona çatdırardı.

Şirvan Əbilov Yeni Azərbaycan Partiyasının Təsis Konfransında iştirak etmək üçün 1992-ci ilin noyabrında Naxçıvana yollanır. O zaman Eldar İbrahimov onu Ümummilli Lider Heydər Əliyevlə görüşdürmək üçün Naxçıvan Ali Məclisinin binasına aparır. Şirvan müəllim deyir ki, o vaxt Ali Məclis Sədrinin köməkçisi olan Vasif Talıbov onu mehribanlıqla qarşılayaraq Ulu Öndərin qəbuluna ötürüb. Şirvan müəllim Ulu Öndərlə ilk görüşünü belə xatırlayır: **“Ulu Öndərin qəbuluna**

**girərkən bərk həyəcanlı idim. Bu dahi insanla söhbətə nədən başlayıb, nədən qurtaracağımı götür-qoy edirdim. Amma Ulu Öndərin səmimi və ürəkcanlı şəkildə məni dinləməsi, söhbət etməsi bütün həyəcanımı aradan qaldırdı. Ona bütün talış elinin camaatının xahişlərini çatdırdım. Dedim ki, əziz Heydər müəllim, xalqımız Sizi yenidən Respublikanın rəhbərliyində görmək, dağılmaqda olan Azərbaycanı xilas etməyinizi xahiş edir. Dərin təbəssümlə gülümsəyən Heydər Əliyev mənimlə o dərəcədə mehriban danışdı ki, vaxtın nə tez gəlib keçdiyini heç özüm də hiss etmədim. Amma mənim Masallıda sovxoz direktoru olduğumu bilən kimi bərk narahat oldu: "Sən bu vəzifənin sahibisən, Naxçıvana gəlib mənimlə görüşdüyünə görə səni dolaşdırıb həbs edə biləcəklərindən qorxmursan?" – dedi. Mən isə: "Haqq-ədalət axırda öz yerini tapar", – deyə cavab verdim. Ulu Öndər mənalı-mənalı gülümsəyərək: "Nə ürək sözün varsa, sabah konfransda söylə", – dedi.**

"Heydər Əliyev ideyaları ilə silahlandım..."

Ertəsi gün Yeni Azərbaycan Partiyasının təsis konfransında çıxış etmək üçün sıraya yazıldım. Amma çıxış etmək istəyənlərin çox olduğunu görüb düşündüm ki, çıxış etmək üçün, çətin ki, mənə növbə çatsın. Amma Heydər Əliyev ayağa qalxaraq: ***"Əziz yoldaşlar, çıxışa yazılanlar çoxdur. Vaxtımız da azdır. Gəlin talış regionundan yeganə təmsilçi olan Şirvan Əbilovu dinləyək, bununla da çıxışlara son verək",*** – dedi. Necə həyəcanla kürsüyə çıxdığımı, ürək sözlərimi zalda oturan 500-dən çox insana xitab etdiyimi indi də xatırlayanda həmin həyəcanı duyuram. Heç yadımdan çıxmaz, ***"Bayırda soyuq şaxtadır. Amma bu zalda bayırdakı soyuqdan əsər-əlamət belə yoxdur. Çünki bizi Heydər***

***Əliyev əzəməti, qüdrəti ilə isidir. Heydər Əliyev günəşi həmişə Azərbaycan xalqının üzərindədir",*** – dedim. Zaldakı gurultulu alqış səsləri elə indi də qulağımdadır...

Ərəstun Əbilovun el ağsaqqalımız olan atası Şirvan Əbilov haqqında danışdıqları deyərdim ki, kitabımın qəhrəmanı haqqında olan şah əsəridir. Ərəstun Əbilov özü atasının bütün bu gözəl işlərində onunla birgə qəhrəmanlıq göstərərək Ulu Öndərin yenidən ikinci qayıdışına öz iqtisadi dəstəyi ilə nail ola bilmişdi.

***Ölüm sevinməsin qoy o, Heydəri apardı.***
***Milyonların qəlbindən, ürəyindən qopardı.***
***Ölüm öz korluğundan xilas olsa, görərdi,***
***Ölümünə dahinin butün ellər ağladı,***
***Nə yaxşı ki, İlhamı o, sərkərdə saxladı.***

***Ərəstun Şirvanoğlu***



**Heydər Əliyev və İmran Əbilov**

Şirvan Əbilovun qardaşı olan İmran Əbilov uzun illər Azərbaycanda məsul vəzifələrdə çalışmışdır. İmran Əbilov yaddaşının ən işıqlı simaları arasında dahi şəxsiyyət Heydər Əliyevi yaşadır.

1969-cu ildən başlayan görüşlərini ən kiçik incəliklərinə kimi qələmə alıb: "1969-cu ilin iyununda nazir müavini kimi fəaliyyətə başlayandan bir ay sonra Heydər Əliyev hakimiyyətə gəldi. Sonrakı fəaliyyətimin əsas hissəsi bu dahi şəxsiyyətin rəhbərliyi altında oldu. Yaxşı bilirdik ki, Heydər Əliyevlə hər hansı bir məsələ haqqında danışmaq üçün ciddi hazırlaşmaq lazımdır. İlk kəlmələrindən bilirdi ki, işin içindəsən, ya yox. Danışanda hər sözünə diqqət yetirməli idin. Lakin müsahibinə elə şərait yaradırdı ki, adam özünü sərbəst hiss edir, fikrini tam bildirirdi... Yaddaşı haqqında isə əfsanələr danışmaq olar. 1979-cu ilin yayında Bərdədə kənd təsərrüfatı işçilərinin zona müşavirəsi keçirilməli idi. Nazir Məmməd Əsgərov Heydər Əliyevin Bərdəyə gedəcəyini, Kirov adına sovxozun fermasına baxacağını söylədi və mənim orada hazırlıq işlərinə başlamağımı tapşırdı. Bir gün əvvəl fermada olub, hazırlıq işləri gördük. Ertəsi gün respublika rəhbəri əlaqədar nazir və katiblərlə fermaya gəldi. Hamımız ağ xalatda Heydər Əliyevi qarşıladıq. Bərdənin raykom katibi Rüstəm Səfərəliyev məni respublika başçısına təqdim edərək: "Nazir müavinidir", – dedi. Heydər Əliyev Səfərəliyevə tərəf döndü və bir qədər acıqla dedi: "Deyirsən, mən nazir müavini Əbilovu tanımıram?"

Heydər Əliyev 1982-ci ilin martında heyvandarlıq üzrə plenium keçirməli idi. Biz buna çox ciddi hazırlaşırdıq. Həmin dövrdə mən onunla kabinetində iki dəfə şəxsən görüşdüm. O bütün sahələrdə olduğu kimi, sanki heyvandarlıq üzrə də akademik idi. Bütün incəlikləri soruşdu və axırda dedi ki, heyvandarlıq adi sahə deyil, böyük bir elm sahəsidir.

# ŞƏRƏFLİ ZİYALI ÖMRÜ

Uca Tanrı Həmdulla muəllimi yalnız yaxşılıq etmək üçün yaratmışdır. Mudrik şəxsiyyət, gözəl əməllər sahibi olan bu kamil insanın dunyaya göz açdığı may ayının 10-da 85 yaşı tamam oldu. Həmdulla müəllim bütün varlığı ilə Vətəninə, millətinə bağlı vətəndaşdır. Xeyirxahlıq etmək, xalqın işıqlı sabahı üçün yorulmadan çalışmaq onun həyat amalıdır.

Həmdulla müəllimin adı Masallının hər yerində insanlıq, nəciblik meyarı kimi səslənir. Rayonun sayılan-seçilən nüfuzlu, mərhəmətli ağsaqqalıdır. Bədalan kəndində yaşayır. Yurd yeri ona hər şeydən əzizdir, doğmadır.

Həmdulla Məmmədov taleyində böyuk rol oynayan hadisə haqqında özu danışır:

“1953-cü ilin qışı idi. Onda səkkizinci sinifdə oxuyurdum. Soyuq hava adamın iliyinə işləyirdi. Təzə-təzə qaranlıq düşürdü. Evimizin ikinci mərtəbəsinin eyvanından gün çıxan tərəfə baxırdım. Bir nəfərin yolla getdiyini gördüm. Bunu atama dedim. Atam çölə çıxıb həmin adamı evə dəvət etdi. O, evimizə gəldi. Bu ucaboy, yaraşıqlı adam Heydər Əliyev idi. Qarlı bir gün idi, o, Lənkərandan qayıdırdı, axşam bizdə qaldı. Mən onlara çay aparanda atamla çox mehriban danışırdı. Səmimi görüşdük. Dərslərimlə maraqlandı. “Oğlum, dərslərinə yaxşı fikir ver, yaxşı oxumağına arxayınlaşma. Bizdə – Naxçıvanda sınaq attestat imtahanı vaxtı şagirdlər mövzunu yazıb kibrit qutusuna salır, qutunu sapla bağlayıb pəncərədən birinci mərtəbəyə buraxır və mövzunun cavabını həmin qutuya salıb yuxarı çəkərdilər. Bununla vəziyyətdən çıxardılar”, – dedi. Atama bildirdi ki, dərslərində iştirak et, ona ucadan qəzet oxutdur. Qoy dünyagörüşü, nitqi inkişaf etsin. Onun də-

yərli söhbətlərinə görə səhərin açılmasını istəmirdim. Bir gecəlik bizdə qonaq qalması sonralar həyatıma çox yeniliklər gətirdi. O yenilik ki, o gecə mənə dönə-dönə tapşırdı ki, dilləri öyrənim. Odur ki orta məktəbi bitirdikdən sonra ali məktəbə gedərkən fransız dili üzrə oxuyub bitirdim. Hal-hazırda oğlum Vüqar və gəlinim Arzu xanım da fransız dili üzrə müəllimdirlər. Ulu Öndərlə o görüşü unuda bilmirəm. Bu illər ərzində qazandığım bütün uğurlarıma görə mən Ümummilli Liderimiz Heydər Əliyevə borcluyam. O gecəni mən çox gözəl xatırlayıram. Qarşımda 30 yaşlı bir gəncin sevgi dolu danışığı indiyə qədər qulaqlarımda səslənir. O qarlı, sehrli axşam bütün həyatımı dəyişdi. O gecə ondan aldığım pozitiv enerjini işlədiyim müddətdə bütün ətrafımda olan şagird və müəllim heyətinə ötürə bildim".

1963-cü ildə ali təhsilini yüksək qiymətlərlə başa vuranda institutda qalıb işləməyi təklif edirlər. Amma Masallı torpağına bağlılıq onu çəkir. Ali təhsilli mutəxəssis kimi təyinatını Bədalan məktəbinə alır. Məktəbdə istedadlı uşaqların uzə çıxmasında gənc müəllimin əməyi böyük olur. Altı aya məktəbdə çalğıçılardan ibarət ansambl yaradır. Çox keçmir ki, ansamblın şöhrəti rayona yayılır. İndi xalqın sevimlisi olan Baloğlan Əşrəfov, Həbib Rəhimov ilk addımlarını bu ansamblda atıblar.

1965-ci ildə çalışdığı Bədalan kənd orta məktəbinin tədris işləri üzrə direktor müavini seçilir. 1966-cı ildə maarif naziri, xalqımızın vətənpərvər, görkəmli ziyalısı akademik Mehdi Mehdizadə Bədalan məktəbində olanda Həmdulla müəllimin təhsil quruculuğu işlərinin inkişafına ürəkdən can yandırmasını, gənc nəslin təlim-tərbiyəsi üçün var gücu ilə çalışmasını görüb onu məktəb direktoru təyin edir. Və o, 20 il bu təhsil ocağına rəhbərlik edir. Ali

kateqoriyalı fransız dili muəllimi Həmdulla Məmmədov sonradan uzun muddət RTŞ-də metodist işləmişdir.

Müqəddəs Həcc ziyarətində olmuş dinə imana bağlı el ağsaqqalı Hacı Həmdulla Məmmədov nümunəvi ailə başçısı kimi bu gün də gənclərə örnəkdir.

## XİLASKAR

Batan bir gəmiyə xilaskar oldu,
Solan ümidlərə yağdı ömür, gün.
Xalqın gücü ilə iqtidar oldu,
Yenidən səmada çıxdı parlaq gün.

Dağların qüvvəsi qayıtdı xalqa,
Dostlar qanad açdı, düşmənlər susdu.
Qovuşdu bir millət doğruya, haqqa,
Düşmənlər çaş qalıb kölgəsin pusdu.

Qoyuldu Zəfərin təməl daşları,
Torpaq sahibinə qayıtdı, güldü.
Qədim bir ölkənin vətəndaşları,
Qiymətli sərvəttək başa qoyuldu.

Əmin-arxayınlıq qayıtdı ömrə,
Böyük bir axına qoşuldu hamı.
İradə dar gündə bənzər dəmirə,
Yol getdi sel kimi el izdihamı.

**Camal Lələzoə**

# AZƏRBAYCAN RESPUBLİKASININ LERİK RAYONU



## BÜZEYİR MAĞARASI
**(Lerik rayonu Büzeyir kəndi. Daş dövrünə aid ölkə əhəmiyyətli arxeoloji abidə)**

# LERİK RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI FÜZULİ HACIYEVİN 2006-CI İLDƏ (QUSARDA, LƏNKƏRANDA VƏ ŞƏKİDƏ) BÖLGƏ MÜŞAVİRƏSİNDƏKİ ÇIXIŞI

"Dövlət dilinin təkmilləşdirilməsi haqqında" fərmanın, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası qanununun qəbul edilməsi, əslində, Heydər Əliyevin 30 ildən çox apardığı dil siyasətinin qanunauyğun və məntiqi nəticəsi idi.

– Xalqın azsaylısı, çoxsaylısı yoxdur. Xalqın hamısı xalqdır. Ona görə də Azərbaycanda yaşayan xalqların hamısı xalqdır, biz heç kəsi azsaylı xalq hesab etmirik, hamısı Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır, hamısı da birlikdə vahid Azərbaycan xalqıdır.

– Bizim bütün alimlərimizin, şəxsiyyətlərimizin arxivləri dövlət əhəmiyyəti kəsb edən sərvətdir.

Heydər Əliyevin milli lider kimi mühüm xidmətlərindən biri də xalqımızın tarixi tərəqqi yolu, mənəvi dəyərlərin, bugünkü mənafeyi və inkişaf perspektivlərini əks etdirən Azərbaycançılıq ideyası və məfkurəsini formalaşdırmasıdır. Azərbaycançılığı xüsusi məfkurə kimi təbliğ edən Ümummilli Lider bu anlayışın ideoloji əsasını təqdim etmişdir. Azərbaycançılıq dünya azərbaycanlılarını birləşdirən, soydaşlarımızın mənəvi birliyini, vətənə bağlılığını təmin edən milli ideologiyanın təcəssümüdür.

Bu ideologiyanın, məfkurənin yaradıcısı olan, həmişə öz uzaqgörənliyi və siyasi müdrikliyi ilə hamını heyrətləndirən Heydər Əliyev hələ 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən, dekabr ayının 16-da Ali Məclisin qərarı ilə dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Naxçıvan Ali

Məclisində Heydər Əliyevin sədrliyi və bilavasitə təklifi ilə qəbul olunan bu qərar sonradan Azərbaycan Respublikası Ali Soveti tərəfindən də qəbul olundu. 1991-ci ildən müəllifi Heydər Əliyev olan Azərbaycançılıq artıq tarixə həkk olundu və hər il xalqımız tərəfindən yüksək səviyyədə qeyd olunmağa başlandı.

Dövlət qayğısını sözdə yox, əməli işdə görən, Azərbaycanı özünün qeydiyyat məkanı deyil, Vətəni sayan, özünün dininə, milli mənsubiyyətinə, ədəbiyyat və mədəniyyətinə, adət-ənənəsinə hörmət və ehtiramın şahidi olan milli azlıqlar Vətənçilik idealı ətrafında daha sıx birləşdilər. Qarabağ müharibəsində, müqəddəs vətən torpağı naminə döyüşlərə gedərək ölümün gözünə dik baxanların və şəhidliyi özünə şərəf bilənlərin hamısı: ləzgilər də, kürdlər də, talışlar da, avarlar da, tatlar da, ruslar və yəhudilər də azərbaycanlılar idi. Onları bir-birindən etnik amillər, dini etiqad fərqləndirsə də, Vətənçilik birləşdirirdi. Heç təsadüfi deyil ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı aparılan döyüşlərdə fərqlənərək qəhrəmanlıq nümunəsi göstərən, «Milli Qəhrəman» adını alanlar içərisində milli azlıqların nümayəndələri də vardır. Təkcə Lerik rayonundan 5 nəfərə Azərbaycan Respublikasının Milli Qəhrəmanı adı verilmişdir.

Azərbaycançılıq hər şeydən əvvəl məfkurədir. Bu məfkurə təkcə Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların deyil, həm də bütün dünyada yaşayan azərbaycanlıların milli maraqlarını ifadə edir. Eyni zamanda bütün azərbaycanlılar harada yaşamasından və hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq, özlərinin mənəvi vətəni olan Azərbaycan Respublikasını düşünür, onun nüfuzunu uca tuturlar.

Bu məfkurənin məzmunu barədə Ümummilli Lider Heydər Əliyevin "... hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı, Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" və "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" fikirləri bu gün hər bir vətəndaşı düşündürməli, hər bir azərbaycanlının əsas qayəsini təşkil etməlidir. Biz azərbaycanlılar da Ulu Öndərimiz kimi azərbaycanlı olduğumuz üçün fəxr etməli, bu hissləri gənc nəslə aşılamalıyıq.

Azərbaycançılığı şərtləndirən, azərbaycanlıları fərqləndirən bir neçə amil vardır. Ən başlıca şərt tarixin sınaqlarından çıxaraq bu günə kimi yaşayan milli-etnik gerçəkliyimiz, ikinci Azərbaycan dilidir. Təsadüfi deyildir ki, "Azərbaycan çoxmillətli respublikadır və bu çoxmillətlilik bizim sərvətimizdir" deyən Heydər Əliyev Azərbaycan dilini milli varlığımızın əsas atributu, çoxmillətli xalqımızı birləşdirən əsas amil hesab etmişdir.

# ZƏHMƏTLƏ QAZANILAN DOSTLUQ

1994-cü il dekabrın 23-də Azərbaycan Prezidenti Heydər Əliyevin sədrliyi ilə Respublika (indiki Heydər Əliyev) sarayında aqrar islahatlara həsr olunmuş Respublika müşavirəsi keçirilirdi. Müşavirəyə Azərbaycanın bütün bölgələrindən nümayəndələr dəvət olunmuşdu. Lerik rayonunu təmsil edən nümayəndələr arasında fermer Xanış Şahıyev də vardı. Müşavirədə çıxış edənlər Prezident Heydər Əliyev tərəfindən aqrar islahatlara dair verilmiş tapşırıq və göstərişlərin gedişi barədə söz açır, qazanılan uğurlardan məlumat verir, ölkə başçısının islahatlara dair fərman və sərəncamlarını bəyənirdilər. Prezident suallar verir, kənddə yaşayanların vəziyyəti ilə maraqlanır, insanların torpağa qayğı hissinin artırılmasından ötrü tövsiyələrini də deyirdi.

Fermer Xanış Şahıyev danışmaq üçün əlini qaldıranda Prezident Heydər Əliyev ona söz verir. Fermer əvvəlcə bir neçə kəlmə ilə özünü təqdim edir. Deyir ki, 64 yaşım var, atam 1941-1945-ci illər müharibəsində həlak olub. Böyük bir ailəni dolandırırdım. Buna görə məktəbə gedə bilməmişəm, təsərrüfatla məşğul olmuşam. Taxıl əkmişəm, mal-qara saxlamışam. 22 uşaq atasıyam. İki oğlum Qarabağ uğrunda döyüşlərdə həlak olub. Heydər Əliyev Xanış kişiyə müraciətlə: “Allah şəhidlərə rəhmət eləsin” deyir.

Xanış Şahıyev sözünə davam edərək bildirir ki, məni bu müşavirəyə Sizə olan sonsuz məhəbbətim və ehtiramım gətirib. Televiziyada çıxışlarınıza ailəmiz böyük maraqla baxır, hər sözünüz ürəyimizdən xəbər verir. Xalq üçün çəkdiyiniz zəhmət qəlbimizi dağa döndərir. Sidqi-ürəkdən xalqına bağlısan. Buna görə də xalq tərəfindən sevilirsən, xalqın məhəbbətini qazanmısan.



**Heydər Əliyev və Lerik rayonundan dostu fermer Xanış Şahıyev**

Lerikli fermer ölkə başçısına rayonda aqrar islahatların gedişindən, gələcəkdə görüləcək işlərdən danışır, sözünün axırında deyir:

“Hörmətli Prezident, bilirəm ki, dünyada dostunuz çoxdur. Əgər çoban dostunuz yoxdursa, bloknota yazın ki, Lerikdə çoban Şahıyev Xanış mənim dostumdur”.

Xanış Şahıyevin çıxışı ölkə başçısının xoşuna gəlir və onu dost kimi qəbul edir. Xanış kişi Prezident Heydər Əliyevə dərin hörmət və ehtiramını bildirərək 1995-ci il mayın 10-da, müqəddəs Qurban bayramı günü kəsdiyi qoyunları Prezident sarayına gətirir və ölkə başçısı ilə görüşüb bayram münasibətilə onu təbrik edir. Fermer Prezidentə öz ailəsi və təsərrüfatı barədə ətraflı söhbət açır, Lerik camaatının salamlarını rəhbərə çatdırır. Prezident Xa-

nış Şahıyevin təsərrüfatdakı fəaliyyətini dəyərləndirir. Kəsdiyi qoyunları Bakıda şəhid və qaçqın ailələrinə paylamağa göstəriş verir. Xanış Şahıyev ənənəsinə sadiq qalaraq hər il Qurban bayramında qurbanlar kəsib paytaxta gətirib ölkə başçısı ilə görüşürdü.

Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev 2005-ci və 2006-cı illərdə Lerikə səfərlərində fermer Xanış Şahıyevlə görüşmüş, dostluqda sadiqliyini bir daha nümayiş etdirmişdir. Xanış Şahıyev 2009-cu ilin aprelində dünyasını dəyişmişdir.

2020-ci il sentyabrın 27-də torpaqlarımızın azadlığı uğrunda başlayan Vətən müharibəsində Xanış Şahıyevin nəvələri də könüllü olaraq iştirak etmişdirlər. Elgün və Altay Mövlanov qardaşları 44 günlük Vətən müharibəsində qəhrəmancasına şəhid olmuşdular.

# ÇƏTİN GÜNÜN DAYAĞI

**Novruz Novruzov**
*Şabran Rayon İcra Hakimiyyətinin başçısı*

***İnanıram ki, müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır.***
**Ümummilli Lider Heydər ƏLİYEV**

"Mənim əsas məqsədim xalqıma xidmət etməkdir"– deyə bəyan edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində tarixlərə şahid, planetimizin qədim insan məskənlərindən biri Talış dağlarının ulu Savalanla qol-boyun olan, Kömürgöy, Qız yurdu, Şanisin zirvələrinin qucağında qərar tutmuş Lerik rayonu da ölkəmizin digər bölgələri kimi sürətli inkişaf və tərəqqi yolundadır. Bunun nəticəsidir ki, indi təkcə Azərbaycanımızda deyil, bu azman dünyanın coğrafi xəritəsində Leriki arayıb axtaran, ünvan bilənlərin, tanıyanların sayı gündən-günə artır.

Zəngin səmalara boy vermiş dağların qoynunda, ucalıqda qərar tutan, göylərə bir az da yaxın olan bu qədim yurd yerimiz dövlət başçısı kimi ali qonağın bu yerlərə səfərlərini, ziyarətlərini özünün minillik yaddaşında ən əziz, müqəddəs bir xatirə kimi qoruyub saxlamaqda, onun xoş təəssüratını qəlbində yaşatmaqdadır.

Lerikli dostlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu bölgəyə səfərləri ilə bağlı kitab hazırladıqlarını, bir vaxtlar Lerik Rayon İcra Hakimiyyətinin başçısı işləmiş şəxs kimi mənim də bu kitaba daxil ediləcək bir yazı hazırlamağımı xahiş edəndə yaddaşımın

xəzinəsinə üz tutdum. Xəyal məni ömrümün yaddaş kitabına əbədi yazılan ötən günlərə apardı. Ən çətin məqamlarda qəti qərar vermək üçün dönə-dönə ölməz irsinə müraciət etdiyim Ümummilli Liderimiz Heydər Əliyevin parlaq irsi göz önünə gəldi; "Ən böyük şəxsiyyət özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insandır". Ulu Öndərin bu kəlamı daha çox bu dahi şəxsiyyətin özünün həyat amalından nişan verirdi. Azərbaycan, Vətən sevgisi tükənməyən Ulu Öndərin də ölkəmizin cənub-şərqindəki bu ucqar dağ rayonuna, Lerikin sadə zəhmət adamlarına bir isti münasibəti var idi. Ona görə də bu sərhəd rayonuna xüsusi önəm verir, öz diqqət və qayğısını əsirgəmirdi. Adamlarına, ağsaqqallarına hörmət, ehtiram göstərirdi.

Bunu göstərən unudulmaz anlardan biri əbədiyaşar Prezidentimizin 2002-ci il iyunun 23-də məni Goranboy rayonuna İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edərkən baş verdi. Söhbət zamanı:

– Xanış kişi necədir? – deyə soruşdu.

Mən də cavab verdim ki: " Yaxşıdır".

Ulu Öndər: "O mənim dostumdur", – dedi.

Bu, iki cümlədən ibarət danışıqda böyük hikmət var idi. Dövlət idarəçiliyinin, nəhəng quruculuq işlərinin qayğılarına baxmayaraq, dost dediyi sadə zəhmət adamı ilə olan münasibətlərə sədaqət. Bax, dahiliyin, sadəliyin, böyüklüyün parlaq nişanəsi idi bu və zaman da göstərdi ki, bu münasibətləri böyük dahinin varisi necə böyük qədirbilənliklə davam etdirdi.

...Ömrün elə unudulmaz anları, məqamları, hadisələri olur ki, insan onu yalnız özününkü hesab edir. O anların, məqamların sevincini, fərəhini, qürurunu başqaları ilə bö-

lüşməyə sanki "xəsislik" edir, elə bil onların adiləşəcəyindən ehtiyat edir və elə bu səbəbdən də, çox vaxt onları məhz öz qəlbində mənəvi bir xəzinə kimi qoruyub yaşadır.

Ulu Öndərimizlə o qədər də çox olmayan, ancaq mənim üçün hər biri bir insan ömrünə bəs edəcək qədər, şəxsən birbaşa ünsiyyətdə olduğum məqamlar vardır ki, onlar olduqca müqəddəsdir. Bax elə bu mənada Ümummilli Liderimiz, Ulu Öndər Heydər Əliyevlə bağlı neçə-neçə xatirəni ən müqəddəs əmanət kimi qəlbimdə, yaddaşımda yaşadıram.

Şübhəsiz, nə vaxtsa həmin xatirələrdən daha geniş söz açacağam. Bu gün isə hər dəfə yada düşəndə ruhumu titrədən o xatirələrdən birini danışacağam.

1998-ci il idi. Onda mən Lerik Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışırdım. Həmin gün yayın isti iyul ayının ikinci həftəsi, daha dəqiq, 9-u idi. Günortadan xeyli ötsə də, gün uzun olduğundan, axşama hələ bir az vardı. İlin bu vaxtlarında havalar adətən çox isti keçir. Necə deyərlər, yer-göy od tutub yanır. Ancaq o gün hava sakit idi, günün istisi adamı elə də yandırmırdı. Günəş də aydın səmadan bir qədər qaşqabaqlı boylanırdı.

Torpaq islahatı ilə bağlı yerli əhali ilə görüşmək, lazımi izahat işləri aparmaq üçün Murya kəndinə getmişdim. Adamlar, kəndin ortasını kəsib keçən maşın yolunun alt tərəfində, kiçik meydançada toplaşmışdılar. Yaxınlaşıb kənd sakinləri ilə salamlaşdım. Əvvəlcədən mənim üçün qoyulmuş stolun arxasına keçib toplaşanlardan oturmalarını xahiş etdim. Adamlara bir də göz gəzdirdim. Nəzərlərim hələ keçmiş kolxoz dönəmində üzümçülük briqadiri işləyən vaxtlardan yaxşı tanıdığım Sətulla kişiyə sataşdı. Bu yaşlı kişiyə xüsusi ehtiram göstərməyi lazım bildim: Sətulla kişi, irəli gəl, görüşək, dedim.

Sətulla kişi adamların arasından çıxıb mənə tərəf bir neçə addım yeridi. Mən də yerimdən qalxıb qabaq stolun arxasından çıxdım. Sağ əlimi görüşmək üçün kişiyə tərəf uzadıb, sol əlimi də, səmimiyyət əlaməti olaraq, qaldırıb ağsaqqalın çiyninə qoymaq istədim. Nə uzatdığım sağ əlim Sətullanın mənə uzanan əlinə çatdı, nə də sol qolum kişinin çiyninə. Mənə elə gəldi ki, kişi geriyə səngirlədi. Yox, deyəsən, elə mən də səngirlədim. Torpaqdan bir uğultu qopdu. Bir neçə yerdə toz burulğanı ərşə qalxdı. Hər şey gözlərimizin yaddaşımıza köçürə bildiyi bir anın içində baş verdi.

Hə, bu mənzərə mənə tanış idi. 1976-ci ildə Özbəkistanda ordu sıralarında xidmətdə olarkən elə onda da yay aylarında, Gülüstan vilayətində belə bir "səhnə" ilə qarşılaşmışdım. Yer dənizin dalğaları kimi birdən-birə hərəkətə gəlib yırğalanmış, uğultu qopmuş, toz qalxmış və bir sözlə, qorxulu zəlzələ olmuşdu. Buxara şəhərinin yaxınlığındakı Qazlı şəhəri dağılmış, yerlə yeksan olmuşdu.

İndi bu da elə bil eynən həmin zəlzələ idi. Bu gün də gözlərimin önündə torpaq, kənd, kəsək illər əvvəl olduğu kimi beləcə dalğalandı. Gözlərim nənni kimi yırğalanan evlərə sataşdı. Nə yaxşı ki, uçub dağılmırdı. Sonra bir andaca uğultu kəsildi, toz burulğanı yoxa çıxdı. Bayaqdan bəri əllərini göyə qaldırıb "ya Allah, özün kömək ol" deyən camaat da susub durdu.

Ətrafa nəzər saldım. Şükür, burada bir tələfat yox idi. Amma bu mənə rahatlıq gətirmədi. Bir anda ağlıma yüz fikir gəldi. Yubanmadan beş-altı addım aralıda, yolun kənarında hazır dayanmış maşınıma tərəf yeridim. Əyləşib rayon mərkəzinə yola düşdüm. Bir neçə dəqiqə əvvəl gördüyüm, gözlərimin önündə yerin dalğalanması mənzərəsi içimə uğultu ilə hopmuş, başım isə gurultu ilə dolmuşdu. Yol

boyu ətrafa, yolüstü kəndlərdəki evlərə, tikililərə baxır, dağıntı olub-olmadığını gözəyarı dəqiqləşdirir, rayon mərkəzinə tələsirdim...

Açığını deyim ki, 90-cı illərin əvvəllərində Respublikamızın hər yerində olduğu kimi, çalışdığım Lerik rayonunda da gün-güzəran çətinləşmişdi. Ümummilli Liderimizin xalqın təkidli tələbilə hakimiyyətə yenidən qayıdışından sonra adamların bənizindəki solğunluq da yenicə sovuşur, soyuyub "kül" düşmüş təndirlər indi-indi qızırdı ki, bu da Tanrıının göndərdiyi "zəlzələ" sınaq...

1998-ci il iyulun 9-da yerli vaxtla saat 19:19-da Talış dağlarında 6,5 bal gücündə baş verən bu zəlzələ respublikamızın cənub-şərq bölgəsinə xeyli zərər vurmuşdu. Lerikin bəzi kəndlərində yaşayış evləri tamam dağılmışdı. Qəzalı vəziyyətə düşən evlər də çox idi. Bu və ya digər dərəcədə zərər çəkməyən, xəsarət almayan yaşayış məntəqəsi və ya tikili isə, demək olar ki, yox idi. Xoşbəxtlikdən zəlzələ günortadan azca keçmiş, adamlar həyət-bacada, iş güc başında olan vaxt baş vermişdi. Bəlkə də, bu səbəbdən insanlardan ağır xəsarət alan, sağlamlıqları ilə bağlı ciddi zərər çəkənlər olmamışdı. Bir də Lerik dağlarının cavanlığı dada çatmışdı. Əslində, zəlzələnin episentri Lerik rayonu idi. Episentrdə isə Azərbaycan Milli Elmlər Akademiyası təkanların 7 bal gücündə olduğunu qeydə almışdı. Bu dağlar hələ cavan və möhkəmdir, inkişaf dövrünü yaşayırlar. Başqa coğrafi ərazidə belə bir gücdə zəlzələdə salamatçılığa gümanın azlığı bir yana, heç ümid etmək də boş xəyal idi. Lerik dağları isə dözdü...

Əbədiyaşar Prezidentimiz Heydər Əliyevin tapşırığı əsasında Baş nazirin müavini, Fövqəladə Hallar üzrə Hökumət Komissiyasının sədri Abid Şərifov, komissiya sədrinin müavini, Meliorasiya və Su Təsərrüfatı Komitəsinin

sədri Əhməd Əhmədzadə və digər rəhbər vəzifəli şəxslərdən ibarət rəsmi nümayəndə heyəti Lerikə gəldi. Zəlzələnin fəsadlarını aradan qaldırmaq üçün rayon təşkilatları da onlarla birgə işə başladılar.

Zəlzələdən iki gün keçmişdi. Ötən iki gündə vaxt tapıb baş çəkə bilmədiyim kəndlərdə əhali ilə görüşmək, vəziyyətlə yerindəcə tanış olub işlərin gedişi ilə maraqlanmaq üçün ikinci mərtəbədəki iş otağımdan çıxıb birinci mərtəbəyə enmişdim ki, İcra Hakimiyyətinin ümumi şöbəsinin müdiri Təhməz Əliyev hövlnak özünü mənə çatdırıb:

– İndicə Prezident Aparatından zəng vurublar, cənab Prezident Sizinlə danışacaq! – dedi.

O bu xəbərdən özünü elə itirmişdi ki, heç dayanıb məni gözləmədən gəldiyi kimi də tez geri döndü.

Düzünü deyim ki, elə mən özüm də Təhməz müəllim kimi həyəcanla yuxarı qalxdım. Kabinetimə keçib telefonun dəstəyini qaldırdım. Danışıq məntəqəsindəki telefonçu qız məni dərhal Prezident Aparatının nümayəndəsi ilə xətdə birləşdirdi.

Qəbul otağından:

– İndi cənab Prezident sizinlə danışacaq, – dedilər.

Həyəcanlı idim, bəlkə, səsim də titrəyirdi.

– ...Bəli, cənab Prezident, – deyib salam vermək istəyirdim ki, Ümummilli Liderimiz məni qabaqladı. Telefonun o başından Ulu Öndərin doğma, şaqraq səsi gəldi. Mənimlə salamlaşıb təmkinlə vəziyyəti soruşub öyrənməyə başladı. İlk əvvəl adamları xəbər aldı: – İnsan tələfatı yoxdur ki? Çoxmu zərər dəyib?

Prezidentimizin təmkinli, doğma səsindən özümü ələ aldım. Ulu Öndərimiz hər sualdan sonra azca fasilə verir, bununla da mənə fikrimi dəqiqləşdirib arxayın, sərbəst danışmağa şərait, imkan yaradırdı.

Ümummilli Liderin öz kəlamıdır: "Gərək nəbzin Vətənin nəbzi ilə vursun!" Həmişə qəlbi doğma Azərbaycanın qəlbi ilə bir vuran Ulu Öndər onun salamlarını bütün lerikliləra çatdırmağı, dövlətin onlara dayaq duracağını, yardım edəcəyini bildirməyimi tapşırdı.

Telefon danışığı bitdi. Quş kimi yerimdən qalxıb bu xəbəri ölkə başçısının şəxsən zəng edib, vəziyyətlə bir daha özü maraqlandığını, həmişəki kimi çətin anlarında yenə də onlarla birgə olduğunu, dayaq durduğunu, onlara salam göndərdiyini, zəlzələdən keçən bu iki gündə hələ də özünə gələ bilməyən adamlara bildirməyə tələsdim.

Bu xəbər ildırım sürəti ilə bütün rayona yayıldı, ən ucqar kəndlərə gedib çatdı. Ulu Öndərin bu telefon zəngi zəlzələnin ağrı-acısına sanki bir məlhəm oldu. Adamların üzündəki xof, narahatlıq, nigaranlıq yaz dumanı kimi əriyib getdi. Telefon zənginin sevinci üzüntü və kədəri beləcə üstələdi. İnsanlar bir daha əmin oldular ki, bunlar sadəcə təsəlli vermək üçün olan sözlər deyil.

Qısa vaxtda respublika hökumətinin müvafiq komissiyası zərər çəkmiş ailələrə dəymiş ziyana görə kompensasiya ödədi, qeyri-hökumət, ayrı-ayrı təşkilatlardan, rayonlardan yardım göstərildi. Abadlıq, bərpa işləri yeni bir vüsət aldı.

İndi o vaxtdan illər keçib. Zəlzələ və onun gətirdiyi dağıntılar, bəlkə də, çoxdan yaddan çıxıb. Ancaq Ulu Öndər Heydər Əliyevin sadə insanlara göstərdiyi diqqət və qayğı, onlara verdiyi ümid və inam leriklilərin qəlbində daim qürur doğuran kövrək və əziz bir xatirə kimi yaşayır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev ölkəmizin hər bir regionunun, bölgəsinin dinamik inkişafına, tərəqqisinə, ölkənin hər bir vətəndaşının sosial rifah halına xüsusi önəm verir. Dövlət başçımız, özünün

söylədiyi kimi, “hər bir azərbaycanlının Prezidenti” olduğunu işi, əməli və siyasi fəaliyyəti ilə sübut edir.

Vaxtaşırı regionlara, ayrı-ayrı bölgələrə işgüzar səfərləri, yerli sakinlərlə canlı ünsiyyəti, qayğı və problemlərlə yerindəcə tanış olub maraqlanması, onların həlli, xüsusi bir yanaşma və bu səfərlərin yaratdığı nikbin əhvali-ruhiyyə hər bir vəzifəli şəxs üçün nümunə, örnək, gündəlik fəaliyyət normasıdır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevi Goranboy və Şabran rayonlarında qarşılamaq sevincini İcra Hakimiyyəti başçısı kimi mən də yaşamışam. Cənab Prezidentin Lerikə etdiyi uğurlu səfərlər də mənim üçün indi çalışdığım rayonlar qədər önəmli olub. Mən tam qətiyyətlə deyirəm ki, məhz bu tarixi səfərlərin nəticəsində bu gün Lerik Azərbaycanın əsl çiçəklənən bir diyarına çevrilib.

Elə buna görə də möhtərəm Prezidentimiz təkcə leriklilərin deyil, Azərbaycan sevgisi ilə yaşayan, doğma Vətəni daha abad, daha gözəl, daha firavan görmək istəyən ölkənin hər bir vətəndaşının minnətdarlıq, sonsuz təşəkkür ünvanıdır.

Gündən-günə gözəlləşən, böyüyüb qol-qanad açan doğma Lerikə arabir yolum düşür. Böyüyüb boya-başa çatdığım bu diyarın bugünkü növrağı onun qurucularına qarşı qəlbimi minnətdarlıq hissi ilə doldurur. Qoy Lerik öz əzəməti ilə qoynuna sığındığı füsunkar Talış dağlarına tən olsun, ona yaraşsın, Azərbaycanımızın yaraşığı olsun!

# HEYDƏR ƏLİYEV MƏKTƏBİNİ KEÇMİŞƏM

**Miri Qənbərov**
*"Azərkontrakt" Səhmdar Cəmiyyətinin sədri*

**...Mən əminəm ki, biz Azərbaycan dövlətçiliyini indiyə qədər qoruyub saxladığımız kimi, bundan sonra da qoruyub saxlayacağıq.**

***Ümummilli Lider Heydər ƏLİYEV***

Böyük ictimai siyasi xadim, dünya şöhrətli diplomat, Ulu Öndər Heydər Əliyevin 30 illik rəhbərlik dövrü Azərbaycan tarixinin yeni mərhələsi salnaməmizə qızıl hərflərlə yazılmış səhifələrdir. Bu illərdə Azərbaycan misilsiz dərəcədə tərəqqi edib çiçəklənmiş, xalqımız soykökünə qayıtmış, milli-mənəvi dəyərlərinə sahib çıxmış, müstəqillik qazanmış və sivil ölkəyə çevrilmişdir.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası BMT-nin, ATƏT-in, İslam Konfransı Təşkilatının, MDB-nin, Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının, Avropa Şurasının üzvü olmuş, Dünya Bankı, AYJB, AİB kimi bank qurumları, Parlamentlərarası İttifaq, Avropa Birliyi, NATO və başqa beynəlxalq təşkilatlarla qarşılıqlı, faydalı əlaqələr yaratmışdır.

Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi ilə Azərbaycan dövlətçiliyini itirməkdən xilas olmuş, beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır.

Azərbaycanda demokratiyanın inkişafında müstəsna rolu və misilsiz xidmətləri olan Heydər Əliyev vətəndaşların sosial-iqtisadi qayğılarına xüsusi diqqət yetirirdi. Elm, mədəniyyət, incəsənət xadimlərinə, eləcə də bütün ziyalılara dayaq olurdu. Onların səmərəli fəaliyyətinə hər cür şərait və imkan yaradırdı.



**Heydər Əliyev və Miri Qənbərov**

Fəxr edirəm ki, mən də Heydər Əliyev məktəbini keçmişəm, bu gün də onun ideyaları ilə yaşayıb fəaliyyət göstərirəm. Həmişəyaşar Prezidentin 16 oktyabr 1994-cü il tarixli fərmanı ilə mən Azərbaycan Respublikasının Ticarət naziri təyin olundum. Bu vəzifədə üç ilə yaxın çalışdım. Heydər Əliyevin 17 dekabr 1996-cı il tarixli fərmanı ilə keçmiş Material Ehtiyatları Nazirliyinin əsasında Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Səhmdar Cəmiyyəti yaradıldı. Ölkə başçısının 24 iyun 1997-ci il tarixli sərəncamı ilə "Azərkontrakt" Səhmdar Cəmiyyətinin sədri təyin olundum.

Dövlət nümayəndəsi kimi Beynəlxalq Bağdad Yarmarkasında iştirak etmiş, Türkiyədə, Almaniyada, Hollandiyada, Sudanda, İtaliyada, Belçikada, Səudiyyə Ərəbista-

nında olmuşam. Xarici ölkələrdəki həmkarlarımla bazar iqtisadiyyatı təcrübəsini öyrənmiş və respublikada geniş yayılmasına təşəbbüs göstərmişəm. İki dəfə hökumət nümayəndə heyətinin tərkibində İrana getmiş, zəlzələdən zərərçəkənlərə kömək göstərmişik. Türkiyə və Almaniya səfərlərində respublikamıza xeyli ərzaq məhsulları gətirilməsini təmin etmişəm.

1998-ci ilin 9 iyul gününü xatırlayıram. Cənub-şərq bölgəsində 6,5-7 bal gücündə zəlzələ baş vermişdi. Son yüz ildə bölgədə bu cür güclü zəlzələ olmamışdı. Heydər Əliyev iyulun-14 də "Azərbaycan Respublikasmın talış regionunda baş vermiş təbii fəlakətın aradan qaldırılması tədbirləri haqqında" Sərəncam imzaladı. Sərəncamda nazirlər, komitələr, səhmdar cəmiyyətlər, müvafiq baş idarələr fəlakət zonasına istiqamətləndirildi. Baş nazirin müavini, Fövqəladə Hallar üzrə Komissiyanın sədri Abid Şərifovun rəhbərlik etdiyi böyük nümayəndə heyəti talış rayonlarına yola düşdü. Mən də nümayəndə heyətinin tərkibində idim. Zəlzələdən ən çox Lerik rayonu zərər çəkmişdi. Hökumət tərəfindən rayona 116 ədəd çadır göndərildi, 150 milyon manat vəsait ayrıldı.

Elimizin, obamızın çətin məqamında rəhbərlik etdiyim cəmiyyətin daxili imkanları hesabına 70 milyon manatlıq tikinti materialı gətirildi. Kəndləri bir-bir gəzib evi zədələnmiş sakinlərə köməklik göstərdik. Leriklilər bu qayğıya, bu təcili yardıma görə Heydər Əliyevin adına yüzlərlə məktub, teleqram göndərdilər. Bu təşəkkür məktublarında onlar Heydər Əliyevi özlərinə çox böyük dayaq hesab edirdilər.

Heydər Əliyevin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi illərdə Lerik seçiciləri mənə etimad göstərib Milli Məclisə deputat seçdilər. Prezident komandasının üzvlə-

rindən biri kimi millət vəkili olduğum illərdə fəaliyyətim daha da genişləndi, həmyerlilərimlə əlaqələrim möhkəmləndi. Rayon rəhbərləri ilə görüşüb problemləri, həll olunmamış məsələləri öyrənib respublikanın əlaqədar təşkilatlarına çatdırırdıq.

Xeyriyyəçilik tədbirlərinin təşkilatçısı olmağım el arasında nüfuzumu qaldırıb. Dəfələrlə qaçqınlarla görüşə getmiş, onlara maddi yardım göstərmişəm. Lerikin bir neçə kəndinə gedən yollarda körpülərin salınmasına, abidələrin bərpasına kömək etmişəm. Bakıda yaşayan ziyalıların mənzil-məişət şəraitini yaxşılaşdırmaq, imkan daxilində ailə üzvlərini işlə təmin etmək diqqətimdən yaymmayıb.

Heydər Əliyev siyasi kursunun davamçısı, ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasət Azərbaycan vətəndaşlarının sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşdırılmasına yönəlmişdir.

Prezident İlham Əliyev xarici siyasətdə Ulu Öndər tərəfindən müəyyənləşdirilmiş vahid strategiya nümayiş etdirir. Prezident haqlı olaraq qeyd edir ki, hər hansı ölkənin inkişafı qanunun aliliyinin qorunmasından, vətəndaş cəmiyyəti təsisatlarından asılıdır.

Prezident cənab İlham Əliyev ayrı-ayrı bölgələrə səfəri zamanı əhali ilə keçirdiyi görüşlərdə xalqın həyat səviyyəsinin yüksəldilməsi, güzəranının yaxşılaşdırılması istiqamətində görülən işlər və həyata keçiriləcək tədbirlər barədə müntəzəm məlumat verir. Bunu cənub bölgəsinə, o cümlədən Lerikə səfərlərindən bir daha yəqin etmək olar. Prezident 2005-ci ilin payızında Lerikə səfəri zamanı Lənkəran-Lerik yolunun əsaslı təmirdən sonra açılışında çıxış edib, növbəti ildə qaz kəmərinin çəkilişini həyata keçirəcəyini bildirdi. 2006-cı ilin oktyabrında ikinci dəfə Lerikə gəldi, qaz kəmərini istifadəyə verdi. Ölkə Prezidentinə

həm Lerikdə, həm də Bakıda görüşlərində bu iki tarixi hadisə münasibətilə rayonun ağsaqqalları adından minnətdarlığımı bildirmişəm.

İctimai fəaliyyətim də möhtərəm Prezident tərəfindən qiymətləndirilmişdir. Mənim 70 illik yubileyimdə Prezidentimizin Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşam. Keçən il anadan olmağımın 75 illiyi münasibətilə Prezidentin fəxri diplomuna layiq görülmüşəm. Bu mükafatları cənab Prezidentin el ağsaqqalına olan hörməti və ehtiramı kimi dəyərləndirirəm.

Azərbaycanın müstəqillik tarixində silinməz izlər qoyan Ulu Öndərin layiqli davamçısı cənab İlham Əliyevin ölkəmizin bütün istiqamətlərdə inkişafı, daha qüdrətli və güclü dövlətə çevrilməsi üçün göstərdiyi fəaliyyət təkcə respublikamızda deyil, beynəlxalq aləmdə yüksək qiymətləndirilir.

# UNUDULMAZ GÖRÜŞ

**Cavid Məmmədov**
*Unikapital ASC-nin baş mühasibi*

Söhbət mənim həyatımda silinməz izlər qoyan bir görüşdən gedir. On il əvvəl boya-başa çatdığım Lerik şəhərindəki Arif Nuriyev adına 1 saylı orta məktəbi bitirmişdim. Sənədlərimi Azərbaycan Dövlət İqtisad Universitetinə verdim. İmtahanlar ədalətli keçdi, nəticələr elan olundu. Mümkün 700 baldan 694 bal toplayıb beynəlxalq İqtisadi Münasibətlər fakültəsinə daxil oldum. Hamıdan çox sevinən mərhum anam Adilə xanım idi. Sevinci dünyalar qədərdi.

İmtahanda topladığım bala görə həmin il ali məktəblərə daxil olan abituriyentlər arasında ikinci yerdə idim. Bu uğuruma orta məktəbdə mənə dərs deyən müəllimlər, sinif yoldaşlarım da sevinirdilər. Məktəbə getdim, müəllimlərimlə görüşdüm. Məni təbrik etdilər, yeni uğurlar arzuladılar.

Ali məktəbdə dərslər başlandı. Xoş xəbər eşitdim. Yüksək balla ali məktəbə daxil olmuş tələbələrlə Ulu Öndər Heydər Əliyevin sentyabrın 3-də görüşü keçirildi. Dahi şəxsiyyət tələbələrlə bir-bir görüşdü. Növbə mənə çatdı. O dahi insan əlimi sıxıb: “Sən Prezident təqaüdünə layiq görülmüsən”, – deyə diplomu təqdim etdi. Sanki bütün dünyanı mənə bağışladılar. Axı Ulu Öndərlə üzbəüz görüşmək heç də hər kəsə nəsib olmur.

Universitetdə təhsil aldığım iilərdə o böyük dahinin etimadını doğrultmaq üçün çalışdım, Prezident təqaüdü aldım. 2005-ci ildə bakalavr pilləsini fərqlənmə dipiomu ilə bitirdim. Diplom mənə təqdim edilən gün Ulu Öndərin

məzarını ziyarət edib tər çiçəklər qoydum.

Təhsilimi davam etdirmək qərarına gəldim. İqtisad Universitetinin magistraturasına daxil oldum. Bu təhsil pilləsini də 2007-ci ildə müvəffəqiyyətlə başa çatdırdım, fərqlənmə diplomuna layiq görüldüm.

Əmək fəaliyyətimə başlayarkən iş tapmaqda çətinlik çəkmədim. Özəl və dövlət müəssisələrinin tikinti, neft, qida sənayesi, maliyyə və bank sektorunda çalışdım. Unikapital Açıq Səhmdar Cəmiyyətində baş mühasib vəzifəsində də işlədim.

Ölkəmizdə gənc mütəxəssislər dövlət qayğısı ilə əhatə olunmuşlar. Ulu Öndər tərəfindən reallaşdırılan gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Gənclərin, xüsusilə müstəqillik dövründə ali təhsil almış gənclərin cəmiyyətin həyatında rolunun artması, özlərinə layiqli yer tutması üçün geniş meydan açılmışdır. 1994-cü ildə Ulu Öndər tərəfindən yaradılmış Gənclər və İdman Nazirliyi ətrafında yüz minlərlə oğlan və qız birləşmişdir. Onlar İlham Əliyevin rəhbərliyi altında fəaliyyət göstərir, Respublikamızın idman şərəfini qoruyur, ölkəmizi bütün dünyada tanıtdırırlar.

İllər keçəcək, Ulu Öndərlə görüşüm unudulmaz xatirəyə çevriləcək, ailəmizdə yada düşəcək və ona Uca Allahdan həmişə rəhmət diləncək.

# O İLLƏRİ XATIRLAYARKƏN

**Abbas Zaidov**
*əmək veteranı*

***Azərbaycanı sevmək azərbaycançılıq hissiyatını özünə qaytarmaq deməkdir.***

**Ümummilli Lider Heydər ƏLİYEV**

Torpağa, zəhmətə bağlı ailədə boya-başa çatmışam. Ata-babadan əkinçiyik. Payızda səpinçi, yayda biçinçi olmuşuq. Torpağın hər qarışından istifadə edib boş qalmağa qoymamışıq. Livədirqənin sarı buğdası adla deyilib, qonşu kəndlərə məhsuldar toxum kimi verilib.

Uşaqlığım Böyük Vətən müharibəsi illərinə düşüb. Onda atam Əli kişi kəndimizdəki "1 May" kolxozunun sədri işləyib. Kolxozda istehsal edilən məhsulun bir hissəsi cəbhə üçün dövlətə verilib, bir hissəsi də kolxozçuların illik azuqəsinə gen-bol çatıb. Üstəlik, qonşu rayonların əhalisinə də əl tutulub.

Müharibə illərində kolxozumuzun əkinçilikdə və heyvandarlıqda qazandığı uğurlar dövlət tərəfindən yüksək qiymətləndirilmişdi. Atam və əmim orden və medallarla təltif olunublar. Nəslimizin torpağa bağlılığı məni də kənd təsərrüfatı mütəxəssisi olmağa ruhlandırdı. Orta məktəbi bitirdikdən sonra Gəncə Kənd Təsərrüfatı İnstitutuna daxil oldum. İllər səssiz-səmirsiz keçdi. Ali məktəbi bitirib kəndə döndüm, kənd təsərrüfatı idarəsində çalışdım. Hansı vəzifəni tapşırdılar, etimadı doğrultdum, xalqın xidmətində oldum.

Heydər Əliyev Azərbaycana rəhbər seçildikdən sonra dağ rayonlarının intibah dövrü başlandı. Qəbul olunan qərarlar həyata keçirildikcə təsərrüfatlar dirçəldi, yeni sahələrin inkişafı üçün geniş meydan açıldı. Ulu Öndərin göstərişi ilə geridə qalan kolxozların bazasında iri dövlət təsərrüfatları, sovxozlar yaradıldı.

1976-cı ildə mənə etimad göstərib rayonun iri təsərrüfatlarından olan Səməd Vurğun adına sovxozun direktoru təyin etdilər. Sovxoz 12 kəndi birləşdirirdi. Təsərrüfatın zəhmətsevər adamlarına arxalanaraq 350 hektar dağ yamaclarında üzüm bağları saldıq. Bizi gələcək məhsulu emal etmək məsələsi də düşündürürdü. Respublika təşkilatlarına müraciət etdik. Ağçay deyilən yerdə üzüm emalı zavodu tikildi. İldə dövlətə 2500 ton üzüm satırdıq. Əldə olunan gəlir hesabına kəndlərə rahat yollar çəkildi, evlər tikildi, camaatın gün-güzəranı yaxşılaşdı.

Səksəninci illərdə üzümçülərin müşavirələrini keçirmək ənənəyə çevrilmişdi. Heydər Əliyevin sədrliyi ilə keçirilən belə müşavirələrin birində bizim rayonun da birinci katibi çıxış etdi. O, ilkin olaraq 2500 hektar üzüm bağlarının salındığını, məhsula düşən üzüm bağlarından 400 ton üzüm yığıldığını bildirdi. Heydər Əliyev zala müraciətlə dedi: “Əl çalın”. Zalda alqışlar eşidildi. Ulu Öndərin çöhrəsində təbəssüm göründü. Sözünə davam etdi: “Lerik camaatı artıq firavan yaşayacaqdır. Cəlilabadın və Şamaxının, Füzulinin yüz min tonlarla istehsal olunmuş üzümündən Lerikin 400 ton məhsulu çox qiymətli və dəyərlidir. Sizə işinizdə uğurlar arzulayıram”.

Bu sözlər indi də qulağımdan getmir. O illər nailiyyətlərimiz məhz bu sözlərin təsiri altında əldə edildi, rəhbərlik etdiyim sovxoz dəfələrlə keçici Qırmızı bayrağa layiq görüldü.

Heydər Əliyev Respublikadan gedəndən sonra Mixail Qorbaçovun üzdəniraq yenidənqurma siyasəti bizim rayonun təsərrüfatlarını müflisləşdirdi. Üzüm bağları məhv edildi, əhali işsiz qaldı. Zavoddakı avadanlıq "bəylərin" hakimiyyəti dövründə dağıdıldı.

Ulu Öndərin ikinci dəfə hakimiyyətə qayıdışı ilə iqtisadiyyatın bütün sahələrində olduğu kimi, aqrar sahədə də islahatlar başlandı, Heydər Əliyev aqrar mülkiyyətçiliyin yaranmasına gedən yoldan danışarkən deyirdi: "Biz aqrar sektorun inkişafı istiqamətində bütün imkanlarımızı səfərbər etməklə yanaşı, kənd təsərrüfatı istehsalçılarından da keyfiyyətli məhsul, mütərəqqi təsərrüfat vərdişləri, yüksək işgüzarlıq və təşəbbüskarlıq gözləyirik".

1994-cü il dekabın 23-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə Respublika sarayında aqrar islahatlara həsr olunmuş Respublika müşavirəsində mən də iştirak edirdim. Onda Rayon Aqrokombinatının baş direktoru vəzifəsində çalışırdım.

Ümummilli Lider dedi ki, kənd təsərrüfatı təkcə iqtisadi fəaliyyət növü deyil, o həm həyat tərzi, həm də xalqımızın uzun illərdən bəri yaşatdığı təsərrüfatçılıq ənənəsidir. Bu sahənin inkişafı ilə əlaqədar sənədlər əsasında islahatlar uğurla başa çatdı. Bu gün islahatların səmərəsi göz qabağındadır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də aqrar sahənin inkişafına, islahatların mütəmadi aparılmasına daim diqqət yetirir. Bu islahatların uğurlu nəticəsidir ki, ölkəmiz taxıla olan tələbatı yerli istehsal hesabına tam ödəyir. Kənd təsərrüfatı məhsulları istehsalına verilən yardımların, texnika və gübrə alınmasına edilən güzəştlər nəticəsində taxıl əkini sahələri ilbəil genişlənir. 2009-2013-cü illəri əhatə edən Regionların Sosial-İqtisadi

İnkişafı Dövlət Proqramında aqrar sahənin inkişafını təmin etmək üçün konkret tədbirlər müəyyənləşdirilmişdir.

Azərbaycanda aparılan quruculuq və abadlıq işləri rayonumuzda da həyata keçirilir və bunun bariz nümunəsi Lerik qəsəbəsinin şəhər statusu alması, Lerikin gözəl və inkişaf etmiş şəhərə çevrilməsidir. Rayonumuzun iqtisadiyyatı, mədəniyyəti, səhiyyəsi, təhsili xeyli dərəcədə inkişaf etmişdir. Bütün bunların əsas səbəbkarı hörmətli Prezidentimiz İlham Əliyev cənablarıdır. Baxmayaraq Lerik rayonu ucqar bir ərazidə yerləşmişdir. Rayonumuza Prezidentimizin həmişə diqqəti və köməkliyini işdə hiss etmişik. Onun rayonumuza üç dəfə gəlişi rayon ictimaiyyətinin nümayəndələri, ağsaqqallar və ziyalılarla görüşü heç zaman unudulmayacaq.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rayonumuza səfərlərində dövlət başçısı ilə görüşmək, çıxışlarını dinləmək, bir ağsaqqal və əmək veteranı kimi mənə də nəsib olmuşdur. Dövlətimizin sükanı etibarlı əllərdədir. Ağsaqqallar cənab Prezidentin daxili və xarici siyasətini bəyənir və dəstəkləyirlər.

Mən taleyimdən razıyam. Ona görə ki Heydər Əliyevin, onun layiqli davamçısı İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə fəaliyyət göstərib təqaüdə çıxmışam.

# MİLLİ MƏCLİSİN DEPUTATI FİRDOVSİ ƏLİYEVİN ÜRƏK SÖZLƏRİ:

– Bu günlər nəslimizin ailəmizin taleyində ən əlamətdar bir dövrü yaşayırıq. Keçirdiyim hissləri təsvir etməkdə acizəm. 1951-1957-ci illərdə atam Şahmizə kişi möhtərəm Prezident Heydər Əiliyevlə tələbə yoldaşı olub. O vaxtlar kimin ağlına gələ bilərdi ki, həmin qrupda oxuyan tələbələr hansı vəzifələrdə, haralarda çalışaçaqlar... 1969-1982-ci illər Azərbaycan tarixində böyük quruculuq illəri, tərəqqi, çiçəklənmə dövrü kimi yadda qalıb. Bu faktdır, həqiqətdir!

XX əsrin ikinçi yarısında Azərbaycan tarixinin ən parlaq səhifələri iki əlamətdar, tarixi hadisə ilə yazılır. Heydər Əliyev 1969-cu il iyulun 14-də birinci dəfə hakimiyyətə gələndə Respublikamızın ictimai, siyasi, iqtisadi və mədəni həyatında böyük dönüş yaratdı. Azərbaycanı keçmiş ittifaqın ən avanqard, ən nümunəvi Respublikası kimi tanıtdı.

1993-cü il iyunun 15-i isə xalqımızın Qurtuluş günüdür. H. Əliyevin həmin gündə hakimiyyətə gəlməsi Azərbaycanı parçalanmaqdan, xalqı vətəndaş qırğınından xilas etdi. Azərbaycanın dünyanın ən nəhəng dövlətləri ilə eyni hüquqa malik olduğunu sübut etdi, onun beynəlxalq nüfuzunu artırdı.

Mən ona görə xoşbəxtəm ki, bir vaxtlar atamla tələbə yoldaşı olmuş hörmətli prezidentin sədaqətli kadrlarından biriyəm. Bunun məsuliyyətini, necə çətin və şərəfli iş olduğunu yaxşı dərk edirəm.

Heydər Əliyev bütün ölkə başçıları arasında öz şəxsi nüfuzu, böyük siyasi xadim və müdrik ağsaqqal kimi tanınır. 1997-ci ilin mart ayında Prezidentimiz Ukraynaya sə-

fərə getmişdi. Nümayəndələr tərkibində mən də var idim... hələ dövlət adamlarını demirəm. Küçələrdə Ukraynanın sadə adamları Heydər Əliyevi necə böyük hörmətlə, ehtiramla, məhəbbətlə salamlayıb əzizləyirdilər. ABŞ prezidenti B.Klintonu da yüksək səviyyədə qarşılamışdılar. Bu təbii idi. ABŞ dünyanın ən aparıcı – böyük dövlətidir. Klinton deyil, həmin ölkədən hər hansı prezident elə qarşılanacaqdı... Amma Heydər Əliyev Azərbaycan xalqının ağsaqqalı, müdrik oğlu kimi, Ukrayna xalqının ən sədaqətli dostu kimi, keçmiş ittifaqın ən prinsipial, pak və cəsarətli lideri - böyük tarixi şəxsiyyət kimi qarşılandı. Görüşlərin birində Ukrayna Parlamentinin sədr müavini çox səmimi və həyəcanlı halda e'tiraf edərək dedi:

***– Çox hörmətli Heydər Əliyev! Mən Sov.İKP-nin son iki qurultayında çıxışlarınızı dinləyib sizə heyran qalmışdım. Hamı ümumi sözlər deyəndə, siz problem qaldırırdınız. Təşəbbüskarlığınız, cəsarətiniz adamı valeh edirdi. Televiziyada çıxışlarınızı eşidəndə, mətbuatda sizi oxuyanda həsəd aparırdım. Həsrət çəkirdim ki, görəsən sizin kimi düha ilə görüşmək mənə nəsib olarmı? Mən çox şadam və xoşbəxtəm ki, bax bu gün arzuma çatıram...***

Mən Ukrayna hokumət adamlarından bu sözləri eşidəndə, sadə əhalinin Prezidentimizə sonsuz məhəbbətini görəndə iftixar hissi keçirirdim.

Prezidentin sadə əmək adamı fermer Xanış Şahıyevlə dostluğu da təsadüfi deyil. Bu, böyük dövlət xadimi H.Əliyevin halal əməyə, zəhmətə, insanlığa verdiyi yüksək qiymətdir. Lerik əhalisinə diqqətidir.

# YADDAŞDAN SİLİNMƏYƏN XATİRƏLƏR
## (O vaxt Bakı şəhər Şərnişin Daşıma baş İdarəsində dispetçer xidmətinin rəis müavini Ehtibar Əliyev)

Ölkəmiz, möhtərəm cənab Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dünya hərb və diplomatiya tarixinə yalnız özünə məxsus yeni bir səhifə yazdı, 30 il düşmən tapdağı altında olan, zəbt olunmuş ata-baba torpaqlarımızı 44 günlük misilsiz döyüş məharəti ilə yağı düşməndən azad etdi. Dövlətçilik tariximizə yazılan bu üğürun, bu qələbənin memarı, şübhəsiz ki, möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev və rəşadətli milli ordumuzun cəsur əsgər və zabitləridir. Hər birimiz bilirik ki, bütün sahələrdə qazandığımız hər bir nailiyyətin əsas ideoloqu, yol göstərəni Ulu Öndərimiz Heydər Əliyev olub və bu yolla da doğma Azərbaycanımız hər bir sahədə uğurla irəliləyir. Ulu Öndərimiz Heydər Əliyevin 100 illik yubileyi ərəfəsində hər bir vətənpərvər kimi, mən də onunla bağlı bəzi xatirələrimi sizlərlə bölüşmək istəyirəm.

O zaman Bakı şəhər Sərnişindaşıma Baş İdarəsinin dispetçer xidmətinin rəis müavini Ehtibar Əliyevin söylədiyi yaddaşlardan silinməyən xatirələri: – 25 yaşım vardı, Bakı şəhər sərnişin daşıma istehsalat idarəsində baş dispetçer vəzifəsində çalışırdım, həm də o zaman idarənin komsomol təşkilat katibi idim. Bakı şəhərində keçirilən beynəlxalq, ittifaq, Respublika və şəhər səviyyəli dövlət tədbirlərinin təşkilat komitəsinin qərargahına nəqliyyat təminatı məsələləri üçün mütəxəsis kimi bilavasitə cəlb edilirdim. Həmin tədbirlərin demək olar ki, hamısında cənab

Heydər Əliyev iştirak edirdi, çox hallarda təşkilati işlərlə özü maraqlanırdı. Belə tədbirlərdən biri də 1980-cı ildə Azərbaycan KP MK-nın 5 ildən bir keçirilən növbəti qurultayı idi. Heydər Əliyev qurultay başlamamışdan qabaq o vaxtkı, "Azərbaycan" mehmanxanasına gəldi və təşkilat komitəsinin qərarargahında təşkilatı məsələlərə cəlb edilmiş mütəxəsislərlə görüş keçirtdi. İlk dəfə idi ki, mən yoldaş Heydər Əliyevi belə yaxından görürdüm. Hər kəslə bir-bir görüşdü və hansı sahəyə məsuliyyət daşıdığını soruşdu. Bir çox sahələr üzrə mütəxəsisləri artıq tanıyırdı və onlara yenə də tövsiyələrini verdi. Növbə mənə çatanda soruşdu:

– "Cavan oğlan, sən hansı sahəyə baxacaqsan?"

Dedim: – Nəqliyyat sahəsinə, yoldaş Əliyev.

Dedi: – "Mən səni birinci dəfədir belə böyük tədbirdə təşkilatçı kimi görürəm, ancaq görünür sənin qabiliyyətin, bacarığın var ki, səni belə bir tədbirdə məsul bir işə cəlb ediblər. Sənin sahən daha çətin bir sahədir, diqqətli, tələbkar və dəqiq ol".

Təşkilat komitəsinin rəhbəri bildirdi: – "Yoldaş Əliyev, biz onun işinə bələdik və hər cür təlimatlandırmışıq, tapşırılan işin öhtəsindən layiqincə gələr".

Ulu Öndərin o görüşdə mənə olan baxışı, diqqəti, tələbkarlığı heç vaxt xəyalımdan çıxmır və örnək olaraq hər zaman fəaliyyətimdə meyar götürmüşəm. Sonralar dəfələrlə bilavasitə onun iştirakı ilə olan tədbirlərdə iştirakçı, təşkilatçı və qonaq qismində olmuşam, hər zaman onun xarakter və davranışında yeni bir çalar, qayğı, diqqət və məsuliyyət görmüşəm.

1994-cü ilin 4 oktyabr hadisələri zamanı mən Bakı şəhərində 2 №-li avtobus parkının direktoru vəzifəsində çalışırdım. Ölkədə gedən proseslərin heç də qənaətbəxş olma-

dığından məlumatlı idim. Rəhbərlik etdiyim böyük bir müəssisənin ölkə və şəhər üçün hansı əhəmiyyət kəsb etdiyini yaxşı bilirdim. Bu səbəbdən də günümün çox hissəsini bilavasitə müəssisədə keçirirdim. Həmin gün də saat 23-30 idi, hələ iş otağımda idim və dövlət televiziyasına baxırdım. Qabaqcadan heç bir məlumat olmadan bir anda verilişlər kəsildi və ölkə Prezidentininin televiziya vasitəsi ilə xalqa birbaşa müraciəti və çağırışı oldu. Ulu Öndərin danışığında, səs tembrində, simasında yaranmış dəyişikliyi görüb, vəziyyətin gərginliyini dərk etdim. Tez avtobus parkının həyətinə düşdüm və parkda olan işçilərin hamısının bir yerə cəlb edilməsi barədə göstəriş verdim. Yığılan insanları bir avtobusa yığıb Prezident Aparatının qarşısına gətirdim. Avtobusda hamıya vəziyyətin nə qədər ciddi olduğunu bildirdim, ölkəmizin, dövlətçiliyimizin nə qədər xoşa gəlməz bir təhlükə ilə üz-üzə gəldiyini başa saldım, hər bir kəsə dövlətçiliyimiz qarşısında konkret olaraq şəxsi məsuliyyətini izah etdim. Biz Prezident Aparatının qarşısına gələndə orada məhdud sayda 10-15 nəfər adam var idi. Baş mühəndis Zahir Hüseynovu işçilərlə bir yerdə qoyub, özüm Prezident Aparatının girişinə getdim. İçəridə 1-2 nəfər var idi, onların arasında o vaxt Bakı şəhər İH-nin 1-ci müavini işləyən Ədalət Əzizov da var idi. Ə.Əzizov məni görən kimi çölə çıxdı və dedi nə əcəb gəlmisən, dedim bir avtobus adam gətirmişəm, baş mühəndis onlara rəhbərlik edəcək, icazə verin mən parka qayıdım və əhalinin şəhərin yaşayış yerlərindən, ətraf qəsəbə və məntəqələrindən prezident aparatının qarşısına gətirilməsini təşkil edim. O fikrimi bəyəndi və bu barədə rəhbərliyə də məlumat verdi. Mən parka gələrək parkda olan avtobusları sürücü və yanacaq ilə təmin edib yenidən marşrutlara göndərdim və səhərə kimi insanların çağırışına səs verərək

Prezident Aparatının qarşısına toplaşmasını təmin etdim. Bu barədə Ulu Öndərin özünün də məlumatı var idi və onun şifahi təşəkkürünü mənə çatdırdılar. Bu gün də həmin hadisədə zərrə qədər də əməyim olubsa, o hərəkətimlə fəxr duyuram və daxili rahatlıq tapıram. Hərçənd ki o zaman gizlənənlər, telefonlarını söndürənlər, ağzına gələnləri danışanlar sonralar böyük vəzifə və səlahiyyət sahibləri oldular.

Həmin hadisə Respublika televiziyası ilə canlı yayımlanırdı, çoxlarının yadında olar. Mən siyasət adamı olmasam da, peşə fəaliyyətim ilə əlaqədar müstəqillik tariximizin müasir dövründə baş vermiş hadisələrin hamısının canlı şahidiyəm, çox hadisələri gözümlə görmüşəm, qulağımla eşitmişəm, bilavasitə hadısələrin içində olmuşam. Düşünürəm ki, dövlətçilik tariximizin ən çətin və təhlükəli məqamı məhz 4 oktyabr 1994-cü il hadısəsi oldu, Ulu Öndərimizin vaxtında xalqa müraciəti, qətiyyətli addımları, cəsarətli tədbirləri dövlətimizin dağılmasının qarşısını aldı və bu gün biz onun bəhrəsini görürük. Təəssüf ki, həmin hadisələr hələ də tarixçilər tərəfindən dəqiq öyrənilməyib, araşdırılmayıb, qələmə alınmayıb.

# İLHAMLA YAŞASIN MEHRİBAN ELLƏR

**Əliyev Ehtibar**

Oğlu , övladıyla tanınar ellər,
Rahatlıq tapacaq, azad könüllər,
Vətəni qoruyar, torpaqçun ölər,
İlhamı vardırsa, çalacaq zəfər,
Yaşa Azərbaycan, yaşasın Öndər.
İlhamla yaşasın mehriban ellər.

Neçə fitnələrə o sinə gərdi,
Neçə cür düşmənlə, üz-üzə gəldi,
Neçə saraylarda səsi yüksəldi,
Sözünü hər yerdə nər kimi dedi,
Yaşa Azərbaycan, yaşasın Öndər.
İlhamla yaşasın mehriban ellər.

Ötsə qərinələr, ötsə də illər,
Yaşar əməlləri, gördüyü işlər,
Susacaq xainlər, lal olar dillər,
Sevinər sevənlər, sevən könüllər,
Yaşa Azərbaycan, yaşasın Öndər.
İlhamla yaşasın mehriban ellər.

Aşdı neçə səddi neçə düyünü,
Pozdu planları, neçə oyunu,
Göz önündə tutdu son öyüdünü,
Yaşatdı vətənə Zəfər gününü,
Yaşa Azərbaycan, yaşasın Öndər.
İlhamla yaşasın mehriban ellər.

**30.04.2023**

# AZƏRBAYCAN RESPUBLİKASININ
# ASTARA RAYONU



**ŞINDAN QALASI**
**(Astara rayonu.  Eramızın III əsrinə aid abidə)**

# RESPUBLİKADA SUBTROPİK TƏSƏRRÜFAT SAHƏLƏRİNİN GENİŞLƏNDİRİLMƏSİ

Azərbaycanın subtropik bitkiçiliyindəvə cayçılıqda, bütövlükdə Respublikanın kənd təsərrüfatında yaranmış vəziyyət həmən dövrlərdə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində yenicə fəaliyyətə başlamış Ümummilli Liderimiz Heydər Əliyevi çox narahat etmiş və onun təşəbbüsü ilə Azərbaycan KP MK-nın avqust 1969 və 1970-ci illərin plenumlarında bütövlükdə çox geniş müzakirə edilmişdir. Respublikada subtropik təsərrüfat sahələrinin genişləndirilməsi, onların ümumi vəziyyətinin yaxşılaşdırılması, suvarma sistemlərinin tikilişi hesabına plantasiyaların su təminatının yaxşılaşdırılması tədbirləri nəzərdə tutulmuş, bütövlükdə subtropik təsərrüfatı sahəsində mühüm vəzifələr müəyyənləşdirilmişdir. Bu dövrdən də, yəni 1970-1980-cı illərdə Respublikada subtropik təsərrüfatların və o cümlədən çayçılığın yeni inkişaf mərhələsi başlanmışdır.

Azərbaycanda subtropik təsərrüfatının bütün sahələrinin bu dövr ərzində inkişafı haqqında ətraflı məlumat vermək üçün mənə ayrılan vaxtın məhdud olduğunu nəzərə alıb, region üçün daha vacib və aparıcı sahə sayılan subtropik bitkilərdən və çayçılıqdan əldə edilmiş nailiyyətlərdən danışmaq istəyirəm.

Respublika çayçılığında yaranmış vəziyyətin yaxşılaşdırılması və çayçılıq sahəsinin daha da inkişaf etdirilməsində sonralar Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin 29 aprel 1972-ci il birgə qərarı böyük rol oynamışdır. Bu mühüm tədbir respublikada çayçılığın ixtisaslaşmasında və təmərküzləşməsi əsasında intensivləşdirilməsinə yönəlmişdir.

XIX beşilliklərdə çay üzrə ixtisaslaşmış sovxozların təşkili istehsalat göstəricilərin əsaslı yaxşılaşmasına, çay plantasiyaları məhsuldarlığının yüksəlməsinə və ümumi çay yarpağı yığımının 2,5-4,0 dəfə artmasına səbəb olmuşdur.



Respublikanın çayçılıq rayonlarında bu dövrlərdə yaradılmış aqrar sənaye birlikləri (Lənkəran, Astara və Masallı) və bunlara daxil edilmiş ixtitisaslaşmış çayçılıq təsərrüfatları və emaledici çay fabrikləri, çayçılığın inkişaf etdirilməsində potensial imkanlardan tam səmərəli istifadə etmək üçün imkan yaratmış idi.

1970-1980-cı illərdə Astara rayonunda Lovain, Lənkəran rayonunda Xanbulançay, Masallı rayonunda Viləşçay su anbarlarının və Lənkəran çayı üzərində su qurğularının tikintisi Lənkəran bölgəsində çay plantasiyalarının

suvarma suyu ilə təminatını əsaslı surətdə yaxşılaşdırdı. Bununla yanaşı, batmış plantasiyaların bərpası və seyrəkliyin ləğv edilməsi sahəsində böyük işlər görülmüşdür. Bütün bunlar imkan vermişdir ki, Respublikada 1980-cı ildə 23 min ton yaşıl çay yarpağı əldə edilsin. Bu da 1970-ci ilə nisbətən 2,2 dəfə yüksək idi. Plantasiyaların məhsuldarlığı isə 7,0 sen/ha artaraq, orta hesabla Respublika üzrə 34 sen/ha çatdırılmışdır.



XIX beşillikdə çayın becərilməsinin proqressiv texnologiyasının təsərrüfatlara tətbiqi nəticəsində çay plantasiyalarının məhsuldarlığı daha da artmağa başlamışdır. Çayçılıq kənd təsərrüfatının ən səmərəli sahələrindən birinə çevrilmişdir.

Bununla yanaşı, onu da qeyd etmək lazımdır ki, çayçılığın ehtiyat mənbələrindən hələ də tam ıstifadə edilmirdi. Yararlı torpaqlar çay altına zəif alınırdı və onların böyük

bir hissəsi tərəvəz və digər bitkilər altında istifadə edilirdi. Çayçılıq mədəniyyətinin yüksəldilməsinə, elmi nailiyyətlərin, texnikanın və qabaqcıl təcrübənin tətbiqinə lazimi səviyyədə diqqət verilmirdi. Bütün bunlar isə çay istehsalına və keyfiyyətinə neqativ təsir göstərirdi. Çay email sənayesinin gücünün çatışmazlığı nəticəsində çay yarpağı istehsalı ilə onun emalı arasında nisbət pozuntusu baş verirdi. Çay emalı edən müəssiisələrin layihələndirilməsi və tikintisi zəif aparılırdı və müasir tələbata cavab vermirdi.

Bu məsələlərlə əlaqədar olaraq Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti 1981-1982-ci illərdə "1982-1985-ci illər ərzində Azərbaycan SSR-də çayılığın və çay emalı sənayesinin daha da inkişaf etdirilməsi" haqqında iki mühüm qərar qəbul edilmişdir.

Bu qərarlar çay istehsalının intensivləşdirilməsi və 4,7 min hektar sahədə yeni çay plantasiyaları salınmasına dair tədbirlər sisteminin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Bu dövrdə çay emal edən sənaye də öz inkişafını tapmışdır. Lənkəran regionunda iki çay fabriki (Çay emal edən və çay çəkicibükücü) və Astara rayonunda bir çay emal edən fabrik tikilmişdir. Bundan əlavə, mövcud fabriklərin texniki təminatı yaxşılaşdırılmışdır. Bütün bunlar xammalın tam emal olunmasına, əmək məhsuldarlığının yüksəlməsinə və məhsulun keyfiyyətinin yaxşılaşmasına imkan vermişdir.

Beləliklə, milli liderimiz Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə Azərbaycan çayçılığın intensivləşdirilməsi hesabına çay becərilməsi və çayçılıq sənayesi kənd təsərrüfatının daimi gəlirli sahəsinə çevrilmişdir. Ölkədə çay plantasiyalarının 13,4 min hektara çatdırılması, çay yarpa-

ğı istehsalının isə ildə 34 min tonu ötməsi, bundan da 8,5 min ton keyfiyyətli Azərbaycan çayı əldə edilməsi mümkün olmuşdur. Eyni zamanda çay yarpağı emal edən 14 və çay çəkibbükən 2 fabrikin tikilməsi, ildə 45 min ton yaşıl çay yarpağı emal olunması üçün imkan yaratmışdı. Bununla yanaşı çay yarpağı istehsalının səmərəliliyi 64 % və əldə edilən gəlir isə 16 milyon manatı ötmüşdür. Çay emal edən fabriklər isə Azərbaycan çayı istehsalından 52 milyon manatlıq dəyərində məhsul buraxılmasına nail olmuşlar. Həmin dövrdə manatın dollara olan nisbətinin təxminən 70 qəpiyin 1 dollara bərabər olmasını nəzərə alsaq, çayçılığın ölkəyə nə qədər gəlir gətirdiyi daha aydın görünər. Çay becərmə və çay emalı ilə bölgədə 6570 adam məşğul idi. Qeyd edilən dövrdə ölkədə mövcud olan çay plantasiyalarının 52 % və ya 7 min hektarı, istehsal olunan 34 min ton yaşıl çay yarpağının 17 min tonu və ya 50 %i Lənkəran rayonu təsərrüfatlarının hesabına idi.

Azərbaycanda 1988-1994-cü illərdə baş verən məlum hadisələr kənd təsərrüfatının digər sahələrində olduğu kimi, çayçılığa da öz mənfi təsirini göstərdi. Bazar iqtisadiyyatına keçid ərəfəsində çay becərilməsi və çay emalı ilə məşğul olanlar maddi texniki və təşkilatı cəhətdən bir sıra çətinliklərlə üzləşdilər ki, bu səbəbdən də çay plantasiyalarında aqrotexniki xidmət işləri dayandırıldı və baxımsızlıq ucbatından külli miqdarda çay kolları quruyub sıradan çıxdı. 1999-cu ilin məlumatına əsasən ölkədə vaxtılə mövcud olan 13.4 min hektar çay plantasiyalarının baxımsızlıq ucbatından 90 %-dən çoxu tədricən məhv olmuşdur.

Hərgah 1980-ci illərdə ölkə əhalisinin quru çaya olan ehtiyacının 60-70 %-i yerli çay istehsalı hesabına (7,5-8,5 min ton) ödənilirdisə, 1990-cı illərdən bu miqdar kəskin surətdə aşağı düşməyə başlamış və son illər cəmi 2,3%

təşkil edir. Bu vəziyyətdə ölkəyə daha da çox çay idxal olunmasına başlanılmışdır. Hazırda ölkə əhalisinin çaya olan ehtiyacı əsasən xarici çaylar hesabına ödənilir.

Umümmilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial-iqtisadi inkişafı yeni keyfiyyət halına yüksəltmək istəyi 24 noyabr 2003-cü il tarixli Fərmanının leytmotivini təşkil etmişdir.

Çayla yanaşı, sitrus və digər subtopik bitkilər plantasiyalarını 300 ha genişləndirməklə, rayonda 5 mindən çox iş yerini açılmasına şərait yaranmış və əhalinin gəlirləri üzrə real artıma nail olunmuşdur.

Bu sahələrin inkişaf etdirilməsi üçün müvafiq biznes planı hazırlanmış, vəsait qoyuluşunu təmin etmək məqsədilə Sahibkarlığa Kömək Milli Fonduna müraciət edilmişdir.

Bütün  göstərilənlər Azərbaycanın dinamik iqtisadi-sosial inkişafında olduğunu və Prezident İlham Əliyevin Öndərimiz Heydər Əliyevin  apardığı strateji xəttini uğurla davam etdirdiyini bildirir.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ASTARA RAYONUNA SƏFƏRLƏRİ HAQQINDA

Ulu Öndərimiz Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə Azərbaycanın digər bölgələri kimi, cənub-şərqə də, xüsusən Astaraya dəfələrlə səfər etmiş, rayonun strateji əhəmiyyətini xatırlatmış, vətənimizin cənub-şərqdən olan giriş-çıxış qapısının inkişafının əhəmiyyətini bəyan etmişdir.

Heydər Əliyevin Astaraya səfərlərini əsasən dörd dövrə ayırmaq olar:

1955-ci ilə qədər – Dövlət Təhlükəsizlik Komitəsində işləyərkən xidməti işi ilə əlaqədar;

1957-ci ildən 1969-cu ilə qədər Respublikanın Dövlət Təhlükəsizlik Komitəsində rəhbər vəzifədə işləyərkən rəsmi səfərləri ilə əlaqədar;

1962-82-ci illər – Azərbaycan KP MK-nın birinci katibi kimi bu bölgəyə səfərləri ilə əlaqədar;

1998-ci ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi.

Maraqlı və tarixi faktlardan biri ondan ibarətdir ki, Heydər Əliyev bu dövrlərdə 11 dəfə Astaraya rəsmi səfər etmişdir.

Heydər Əliyev 1957-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsində şöbə müdiri kimi birinci dəfə Astaraya gəlmiş, "N" saylı sərhəd dəstəsinin kollektivinə "Keçici Qırmızı Bayraq" təqdim etmiş, burada rayon rəhbərliyi və ziyalılarla görüşmüşdür. Bu görüşün canlı iştirakçıları o günləri xoş təəssüratla xatırlayırlar.

1961-ci ildə Astara Rayon Partiya Komitəsinin iclas zalında rayon fəalları və ziyalıları ilə görüş keçirmiş, "Respublika çekistləri kəşfiyyat və əks-kəşfiyyat sahəsində" mövzusunda bir saatlıq məruzə etmişdir.





1967-ci ildə Dövlət Təhlükəsizlik Komitəsinin sədri kimi, Respublika Ali Sovetinin ovaxtkı sədri M.İsgəndərovla birgə Astaraya səfər etmiş, yenə də "N" saylı sərhəd dəstəsinə Pyotr Kujinin adının verilməsi mərasimində iştirak etmiş, ictimaiyyət nümayəndələri ilə görüşmüşdür.

1970-ci il noyabrın 5-də Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev, keçmiş SSRİ Ali Sovetinin sədri N.Podqornı ilə birlikdə Astaraya iki günlük səfərində SSRİ İran beynəlxalq qaz kəmərinin açılışında iştirak etmişdir.

***Sonradan həmin illəri xatırlayan Ulu Öndər Heydər Əliyev belə deyirdi: "Mən Azərbaycanın rəhbərliyində olduğum dövrlərdə bir neçə dəfə Astarada olmuşam. 1970-ci ildə İranla SSRİ arasında qaz ixracı ilə əlaqədar təntənələrdə iştirak etmişəm. Bu artıq tarixə çevrilmişdir. O vaxt həmin qaz kəməri ilə 3 milyard kubmetr qaz gəlirdi. O zaman Lənkəran bölgəsində qaz yox idi. Bəli, məhz o dövrdə Azərbaycan rəhbərliyinin qayğısı nəticəsində bu bölgəyə qaz çəkildi".***

1973-cü ilin mart ayında Heydər Əliyev Astarada olub, rayon zəhmətkeşlərini – tərəvəzçiləri, çayçıları və heyvandarlıq sahəsində çalışanları zərbəçi əmək nümunəsi göstərdiklərinə görə, hər üç sahəni "Keçici Qırmızı Bayraq"la təltif etmişdir.

1974-cü ilin yanvar ayında Ulu Öndər Heydər Əliyev keçmiş Sov. İKP MK Siyasi Bürosunun üzvü, MK-nın kənd təsərrüfatı üzrə katibi F.D.Kulakovla birlikdə Astaraya səfər etmiş, rayonun kənd təsərrüfatı ilə yaxından tanış olmuş, iqtisadi və sosial problemləri təhlil etmiş, bu istiqamətdə konkret tədbirlər planı irəli sürmüşdür. Bundan sonra Astaradan o vaxtkı SSRİ-nin mərkəzi şəhərlərinə və ətraf bölgələrinə külli miqdarda faraş tərəvəz göndərilməsi

üçün geniş şərait yaradılmış, əvəzində rayona maliyyə vəsaiti, kənd təsərrüfatı texnikası və başqa lazım olan avadanlıqlar gətirilmişdir. Nəticədə Astarada inkişaf sürətlənmiş, əhalinin güzaranı yaxşılaşmışdır.

Dövlət rəhbəri həmin dövrdə indiki Kijəbə qəsəbəsinin əmək adamları ilə maraqlı görüşlər keçirmişdi ki, indi o günlər kijəbəlilər üçün xoş xatirəyə çevrilmişdir.

1975-ci ilin iyun ayında Ümummilli Liderimiz Heydər Əliyev keçmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Ziya Nuriyevlə birlikdə Astarada olmuş, əhali ilə görüşmüş, tərəvəzçiliyin və sitrusçuluğun inkişafı ilə maraqlanmış və səmərəli təkliflərini vermişdir.

1980-cı ildə Ulu Öndər Heydər Əliyev Sovet İttifaqı kosmonavtı Kumarovla birlikdə Astaraya növbəti səfərini etmiş, Kijəbə qəsəbəsinin zəhmətkeşləri ilə görüşmüşdür.

1981-ci ildə Azərbaycan KP MK-nın birinci katibi kimi Heydər Əliyev Astaraya gəlmiş, rayonun partiya və təsərrüfat fəalları ilə geniş toplantı keçirmiş, Astaraya 4 “Keçici Qırmızı Bayraq” təqdim etmiş, dərin məzmunlu tarixi nitq söyləmişdir.

Respublika rəhbəri Heydər Əliyev 1982-ci ilin iyun-iyul aylarında (iki günlük) rayonun Ərçivan, Kakalos, Kijəbə, Giləkaran, Kələdəhnə ərazilərində fəaliyyət göstərən ovaxtkı sovxoz əməkçiləri ilə iş yerində görüşmüş, əkin tarlalarının, çay plantasiyalarının, sitrus bağlarının vəziyyəti ilə tanış olmuş, dəyərli tövsiyələrini vermiş, rayon mərkəzində əhali qarşısında nitq söyləmişdir.

1998-ci il oktyabr ayının 5-də müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyev növbəti prezident seçkiləri ərəfəsində Astaraya gəlmiş, şəhərin girəcəyində bir qrup ağsaqqalla görüşdükdən sonra mərkəzi meydanda minlərlə astaralı qarşısında tarixi nitq söyləmiş,

Astara şəhidlərinin Xatirə Kompleksini ziyarət etmiş, general-mayor Arif Heydərov adına "N" saylı sərhəd zastavasında olmuşdur. Astaralı seçicilər həmin il əksəriyyətlə Heydər Əliyevə səs vermişlər.

Ulu Öndər Heydər Əliyev Astara və astaralılar haqqında bir çox dəyərli və maraqlı fikirlər söyləmişdir ki, bununla ancaq fəxr etmək lazımdır.

## 1998-Cİ İL OKTYABR AYININ 5-DƏ MƏRKƏZİ MEYDANDA MİNLƏRLƏ ASTARALI QARŞISINDA ÖZ ÇIXIŞINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEV DEMİŞDİR:

Əziz astaralılar, bacılar, qardaşlar və dostlar mən sizi – astaralıları Azərbaycanın dilbər guşəsinin sakinlərini səmimi-qəlbdən salamlayıram. Sizə cansağlığı, səadət arzulayıram, sizə xoş arzularımı bildirirəm və sizinlə bu gün bu görüşümdən olduqca şad olduğumu bildirirəm. Astaranın Azərbaycanın coğrafi xəritəsində, Azərbaycanın ictimai-siyasi həyatında, Azərbaycanın iqisadiyyatında özünəməxsus yeri vardır. Astara gözəl bir yerdir. Talış dağlarının ətəyi, Xəzər dənizinin sahili, Astara çayı, gözəl meşələr, dağlar, güllər, çiçəklər və otlaqlar. Allah sizə dünyanın ən gözəl güşəsini bəxş edib, ona görə də siz xoşbəxt adamlarsınız. Mən sizə bundan da çox xoşbəxtlik arzulayıram.

Astara müstəqil Azərbaycanın cənub-şərqində Azərbaycanın qapısıdır. Azərbaycanın dayaq nöqtəsidir. Azərbaycanın sütunlarından biridir. Astaranın tarixi xüsusiyyətindən biri də ondan ibarətdir ki, Astara Azərbaycanda İranın tam sərhədində durur. Şimali Azərbaycanla Cənubi Azərbaycanın qovuşduğu nöqtədədir. İndi Azərbaycan bir müstəqil dövlət kimi öz dövlət siyasətini həyata keçirərək, dünyanın bütün ölkələri ilə əməkdaşlıq edərək, ticarət apararaq bir açıq ölkə olaraq qapılarını dünyaya açaraq, Azərbaycan sərhəd ərazilərinə xüsusi əhəmiyyət verir. Onlardan biri, bəlkə də, ən əhəmiyyətlisi Astaradır.

***Astara Azərbaycanın cənub qapısıdır. Sizsiniz, əziz astaralılar. Mən məmuniyyətlə qeyd edirəm ki, müstəqil Azərbaycanın həyatında astaralılar çox mühüm rol oy-***

***nayırlar. Öz tarixi vəzifələrini yerinə yetirirlər. Azərbaycanın dövlət sərhədlərinin möhkəmlənməsi, Azərbaycanın dövlətçiliyinin inkişaf etməsi yolunda böyük xidmətlər göstərirlər. Bütün bu xidmətlərinizə görə müstəqil Azərbaycanın inkişafında göstərdiyiniz şücaətə görə, qəhrəmanlığa görə mən sizə təşəkkür edirəm.***

Sərhəd orqanlarında işləyərkən, sərhəd işləri ilə məşğul olarkən Astaraya çox gəlirdim və demək olar ki, sizin rayonun ərazisində olan sərhəd nöqtələrinin əksəriyyətini gəzmişəm, keçmişəm. Ayaqla, piyada gəzmişəm. Ən gözəl meşələri görmüşəm, həm qayaları, dağları görmüşəm. 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra mən Azərbaycanın cənub-şərq bölgəsinə, o cümlədən Astaraya, bildiyiniz kimi, xüsusi qayğı göstərirdim. Azərbaycanın cənub-şərq bölgəsi öz iqlim şəraitinə görə, təbiətinə görə, torpaqlarına görə o illərdə həm Azərbaycana xidmət edirdi, həm də öz iqtisadiyyatını inkişaf etdirirdi. O illər də xatirinizdədir. Azərbaycanın cənub-şərq bölgəsi, xüsusilə Astara həm Azərbaycanın, həm də yaşadığımız ölkə üçün böyük bir meyvə-tərəvəz hazırlayan bazaya çevrilmişdi. O vaxt görülən işlərin əhəmiyyəti vardır. Ona görə yox ki astaralılar 100.000 tona qədər meyvə-tərəvəz istehsal edib satırdılar. Ona görə ki o qədər meyvə-tərəvəz istehsal edərək siz özünüz öz rifah halınızı yaxşılaşdırırdınız. Astaranın iqtisadiyyatını inkişaf etdirirdiniz. Və Azərbaycan iqtisadiy-yatının inkişaf etməsinə kömək edirdiniz. O illərdə burada kəndlərdə, qəsəbələrdə, Astara şəhərinin özündə nə qədər yaşayış evləri tikilibdir. İnsanlar öz evlərini yeniləşdiriblər, yenidən tikiblər. Özlərinin güzəranını yaxşılaşdırıblar. Mülklərini artırıblar, yaxşı yaşayıblar, bu, həqiqətdir. O dövr bunları tələb edirdi. Astaranın çay bağları həm çox mənfəət gətirirdi, həm də Azərbaycanın iqtisadiyyatı-

na xidmət edirdi. Astaranın naringisi, Astaranın başqa çox ləzzətli meyvələri və sizin kütüm balığınız və toyuq ləvənginiz, bunlar da hamısı sizin yaşayışınızı gözəlləşdirirdi. Həm də bütün dünyada kütüm balığının nə olduğu, ləvənginin nə olduğu və Azərbaycanda belə gözəl yeməklər olduğu bütün dünyada təbliğ edildi.





Bunlar hamısı sizin, bizim, hamımızın birgə tariximizdir. Eyni zamanda 1970-80-cı illərdə görülən işlər yaranmış iqtisadi potensial maddi-texniki baza indi müstəqil Azərbaycanın yaşaması üçün, inkişaf etməsi üçün çox böyük əhəmiyyət kəsb edir. Mən bura Astaraya gələn kimi İranla Azərbaycan arasındakı körpüyə getdim. O körpünün yanındakı sərhəd zastavasına getdim. Mənim xatirimdədir, o zastavaya hələ 40 il bundan öncə bir zabit kimi gəlmişəm. Sonra Azərbaycanda rəhbər olarkən Azərbaycanın İranla sərhədlərinin qurulması, yaranması, inkişaf etməsi, möhkəmlənməsi üçün çox tədbirlər görərərək həmin bu Astara zastavasında inkişaf etməsinə xidmətlər göstərmişəm. O illər zastavada Sovetlər İttifaqında nümunəvi zastava var idi. Onları o illər biz qurduq, yaratdıq, amma bunlar indi bizim üçün müstəqil Azərbaycan üçün nə qədər gərəklidir. İndi təsəvvür edin, o qurulmuş, yaranmış Astaranın yanındakı zastavanı deyirəm. İndi elə bir zastavanı tikmək üçün, yaratmaq üçün nə qədər bizə vəsait lazım olacaqdı? Nə qədər iş görmək lazımdır? Ancaq o illər biz bunları yaratmışıq. Demək, bu günümüz üçün bunları yaratmışıq. Müstəqil Azərbaycan üçün yaratmışıq. Bir bu zastavanı deyil, bütün Astarada olan əmlakları, binaları, müəssisələri bu gün üçün – Azərbaycanın müstəqilliyi üçün yaratmışıq. Ona görə də bunları qorumaq, saxlamaq lazımdır, onları inkişaf etdirmək lazımdır və yeni-yeni iqtisadiyyat sahələri, istehsal sahələri, yaşayış binaları yaratmaq lazımdır.

Sizin rayonun imkanları böyükdür və ümid edirəm ki, siz bu imkanlarınızdan istifadə edəcəksinz. Bilirsiniz ki, indi müstəqil Azərbaycanda bütün keçmişdə olan iqtisadi-siyasi quruluş dəyişilib. Azərbaycan müstəqil dövlət kimi demokratiya yolu ilə gedir. Demokratik hüquqi dövlət qu-

rur. Sizə bildirmək istəyirəm ki, ötən beş ildə Azərbaycan dövlət quruculuğu sahəsində çox işlər görülüb. Bu gün Azərbaycan demokratik, hüquqi və eyni zamanda çox qüdrətli dövlətdir. Azərbaycanın müstəqil dövlət kimi öz sərhədlərini qorumaq üçün, bu gün Azərbaycanın sərhədlərinin keşiyində durmaq üçün, etibarını qorumaq üçün Azərbaycanın Sərhəd Qoşunları var. Son beş ildə biz Azərbaycanda ordu quruculuğu ilə çox məşğul olmuşuq. Azərbaycan ordusu beş il bundan öncə yox vəziyyətində idi. Azərbaycan dövlət müstəqilliyi əldə etdiyi zaman müharibə başlamışdı. Amma vaxtında öz ordusunu yaratmadığına və yaratmağa başladığı zaman, ordu cürbəcür nadanların əlində olduğuna görə, Azərbaycanın rəhbərliyində qanun-qayda olmadığına görə, ordu quruculuğu ilə məşğul olmadığına görə Azərbaycanda, demək olar ki, milli ordu yaranmamışdı. Azərbaycanda ordu quruculuğu 1993-cü ildən başlayıbdır. Mən bu gün sizə bəyan edirəm ki, ötən illərdə bu sahədə çox işlər görülüb. Bu gün Azərbaycanda onun torpaqlarını müdafiə edən, vətənini müdafiə edə bilən Azərbaycanın müstəqil dövlətçiliyini qoruya bilən güclü, etibarlı Milli Ordusu var. Ötən beş ildə Azərbaycan iqtisadi islahatlar aparıb. Keçmişdə olan iqtisadiyyat dəyişdirilir, yenidən qurulur. Azərbaycan bazar iqtisadiyyatı ilə gedir. İqtisadi reformalar həyata keçirilir. Özəlləşdirmə proqramları həyata keçirilir. Torpaq islahatı proqramı həyata keçirilir. Torpağın şəxsi mülkiyyətə verilməsi proqramı həyata keçirilir. Bu işlərlə siz məşğulsunuz. Güman edirəm ki, artıq bu islahatların nəticələrini görürsünüz. Mənim xatirimdədir, 1995-ci ildə biz torpaq islahatı haqqında qanun hazırlayarkən və bu qanunu müzakirə edərkən talış elindən elə səslər gəlirdi ki, bu islahatları talış elindən həyata keçirtmək çətindir. Çünki torpaq azdır,

əhali çoxdur. Bunu bölmək, paylamaq çətin olacaqdır. Bəlkə, bu sözlərdə də əsas var idi, çünki 70 il müddətində torpaq insanların əlindən alınıb dövlətə verilmişdi və guya dövlət mülkiyyətində idi. Biz o dövrləri yaşamışıq, o dövrün də bəhrələrini görmüşük. Ancaq bütün bu məsələləri ölçüb biçəndən sonra biz belə qərara gəldik, mən həm o dövrdə işləyən adam kimi, həm də indi Azərbaycanın yeni inkişafını təmin etməyə çalışan bir adam kimi belə fikirdə idim və bu fikri də xalq dəstəklədi ki, iqtisadi torpaq islahatı keçirilməlidir. Siz artıq bunları keçirtmisiniz. Neçə faiz? 100 %. Mal-qara hamısı. Bunun nəticəsi nədir? Siz mal-qaranı artırmısınız, həm də əvvəllər istehsal etmədiyiniz 15.000 ton çəltik istehsal etmisiniz, taxıl istehsal etmisiniz, bağlar da sizin ixtiyarınızdadır. Hər şey sizin ixtiyarınızdadır.

Mən güman edirəm ki, torpağın xüsusi şəxsi mülkiyyətə verilməsi, mal-qaranın şəxsi mülkiyyətə verilməsi, ümumiyyətlə, şəxsi mülkiyyətin özəlləşdirilməsi ilbəil, aybaay iqtisadiyyatı inkişaf etdirəcək və hər bir Azərbaycan vətəndaşının rifahını yaxşılaşdıracaqdır. Mən buna inanıram. Bu sizin özünüzdən asılıdır. Əgər siz sizə verilən torpağı, sizin mülkiyyətinizi səmərəli istifadə etsəniz, əgər sizə, özünüzə verilmiş bağı, bağçanı, mülkünüzü siz səmərəli istifadə etsəniz, əgər özünüzün mal-qaranızı səmərəli istifadə etsəniz, həm istehsalı artıracaqsınız, həm gəliri artıracaqsınız, həm iqtisadiyyat yüksələcək, həm sizin güzəranınız yaxşılaşacaqdır. Həyat tərziniz düzələcək.

Mən inanıram ki, bunlar hamısı sizə faydalar gətirəcəkdir. Astaranın Azərbaycanın xarici ticarətində, sərhəd ticarətində də çox böyük rolu var. İndi sizdə artıq sərhədlər açılıb. Qonşu ölkəyə gedib-gələ bilirsiniz, başqa ölkələrə gedib-gələ də bilirsiniz. Öz həyatınızı və başqaların

həyatını da görə bilirsiniz. Bunları tutuşdurub öz güzəranınızı görə bilirsiniz. Ona görə də müqayisə edib görə bilirsiniz harada nə var. Mən hesab edirəm ki, hansı ölkədə nə varsa Azərbaycanda bu gün də və gələcəkdə də onlardan hamısından yaxşıdır və gələcəkdə də yaxşı olacaqdır. İndi Azərbaycanda insan azaddır, çünki Azərbaycanda hər bir insana sərbəstlik verilibdir. Azərbaycanda demokratiya inkişaf edib. Çünki Azərbaycanda mədəniyyət də inkişaf edibdir. Məsələn, Astara Azərbaycanda cənub nöqtəsidir. İnsanlar nə qədər yüksək mədəniyyətə malikdirlər. Şeir yazır, ədəbiyyat əsərləri yazırlar. Astaralılardan nə qədər böyük elm xadimləri, nə qədər böyük incəsənət xadimləri var. Astaradan Azərbaycanda nə qədər görkəmli adamlar var, iş adamları var, biznesmenlər var. Astaralılar bütün Bakını, bütün Azərbaycanı tutublar. Başqa yerləri də tutublar. Mən inanıram ki, bundan sonra siz Azərbaycanda ən yüksək yer tutacaqsınız.  Bizləri burada çox məhəbbətlə qarşılayırsınız və burada danışıqlarınızda, çıxışlarınızda mənim həm keçmiş fəaliyyətimə, həm də beş illik Azərbaycandakı indiki fəaliyyətimə yüksək qiymət verirsiniz. Buna görə sizə təşəkkür edirəm. Bir şey sizə də, mənə də məlumdur. Vaxtilə SSRİ sovet hakimiyyəti vaxtında yaşayaraq Azərbaycanı qurmuşuq, yaratmışıq, inkişaf etdirmişik. Ancaq təəssüflər olsun ki, 1988-ci ildən Azərbaycanda tənəzzül başladı. Azərbaycana Ermənistanın təcavüzü başlayandan Azərbaycan ağır bir vəziyyətə düşdü. Azərbaycanda daxili ictimai-siyasi vəziyyət gərginləşdi, sonra isə pozuldu. 1990-cı ildə yanvar hadisələri baş verdi. Bundan sonra isə Azərbaycanda hakimiyyət davası getdi. Ayrı-ayrı qruplar, dəstələr silahlı qruplar, cinayətkar dəstələr, Azərbaycanın ictimai-siyasi vəziyyətini pozdular və Azərbaycan, o cümlədən siz də, astaralılar ağır bir vəziyyətdə

yaşayırdınız. Özbaşınalıq, hərc-mərclik, hakimiyyətsizlik, dərəbəylik tüğyan etmişdir, siz bunu bilirsiniz. Xüsusən xalq cəbhəsi hakimiyyəti vaxtı siz bilirsiniz, mən o vaxt Bakıda deyildim, Naxçıvanda yaşayırdım. Amma eşitmişdim ki, İsgəndər Həmidov guya Daxili İşlər Nazirliyi gəlib burada öz dəstəsi ilə bir ailəni dağıtmışdı, insanlara nə qədər zərbə vurmuşdu. Qanunsuz hərəkətlər etmişdir cinayətlər etmişdi. Bəli, təkrar edirəm, İsgəndər Həmidov kimi yaramaz bir adam gəldi bura, Astarada bir ailəni məhkəməsiz, istintaqsız, filansız atəşə tutdu, dağıtdı, çıxıb getdi, siz heç bir şey edə bilmədiniz. Çünki Azərbaycan o cürə nadanların əlində idi. Onlar Azərbaycanı dağıtdılar. Beləliklə, biz sizin ilə gözəl Azərbaycan yaratdıq, qurduq, inkişaf elətdirdik. Onlar isə dağıtdılar. Bəli, siz də burada dediniz. Təşəkkür edirəm. Çox sağ olun. Bəli, mən yenidən müstəqil Azərbaycanın qurulması üçün çalışıram. Sizin dəstəyinizlə, sizin köməyinizlə bunu edəcəyəm və Azərbaycan müstəqil dövlət kimi günü-gündən inkişaf edəcəkdir.

Talış dağlarının ətəyində bu gözəl dilbər guşədə yaşayan talışlar, azərbaycanlılar hamısı birdirlər, hamısı vahid Azərbaycan xalqıdırlar.

Siz yenidən mənim namizədliyimi irəli sürmüsünüz. Yenidən məni Azərbaycanın Prezidenti seçmək istəyirsiniz. Mən buna razılıq vermişəm. Sizin bu təşəbbüsünüzə görə sizə təşəkkür edirəm.

Qarşımda burada çıxış edənlər doğru və düzgün dedilər. Mən o fikirlərlə tamamilə razıyam. Azərbaycanda prezident olmaq istəyənin gərək idarəçilik təcrübəsi olsun, o gərək hansısa bir müəssisədə, hansısa bir kollektivdə rəhbər olsun ki, bilək, necə idarə edə bilib, onun gərək iqtisadi təcrübəsi olsun. Onun gərək elmi təcrübəsi olsun. Başqa

adamlarda bunların heç biri yoxdur. İri bir kollektivə belə rəhbərlik etməyiblər. Buna görə belə adamlar heç vaxt, bu gün də, gələcəkdə də Azərbaycanın etimadını qazana bilməzlər. Azərbaycan öz taleyini belə adamlara tapşıra bilməz. Mən inanıram ki siz hamınız oktyabrın 11-də seçki məntəqələrinə gələcəksiniz, Azərbaycanda prezident seçkiləri yüksək səviyyədə keçiriləcəkdir. Mən inanıram ki, siz oktyabrın ayının 11-də Heydər Əliyevə səs verib onu yenidən Azərbaycanın Prezidenti seçəcəksiniz. On illərlə Azərbaycan xalqına sədaqətlə xidmət etmişəm. Son beş ildə müstəqil Azərbaycana sədaqətlə xidmət etmişəm. Siz mənə yenidən etimad göstərsəniz, oktyabr ayının 11-də məni yenidən seçsəniz, əmin olun ki, mən sizin etimadınızı doğruldacam. Ömrümün son dəqiqəsinə qədər Azərbaycan xalqına sədaqətlə xidmət edəcəyəm.

**Eşq olsun Astaraya, qəhrəman astaralılara!**

**Eşq olsun qəhrəman Azərbaycan xalqına!**

**Yaşasın müstəqil, dönməz, qüdrətli, demokratik Azərbaycan!**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV ASTARA VƏ ASTARALILAR HAQQINDA

Ziyalılarla görüşmək həmişə böyük bir bayram təsəvvürü yaradır. Mən həyatım boyu belə düşünmüşəm, belə fikirləşmişəm.

Ziya Bünyadov xalqımızın XX əsrdə yetirdiyi ən görkəmli alimlərdən, ən görkəmli tarixçilərdən və ən görkəmli insanlardan biri idi. Elə bir nadir insan idi ki, böyük, şərəfli həyat yolu ilə elə bir yüksək səviyyəli şəxsiyyət adı almışdı ki, onun haqqında nə qədər çox desək də, yenə də tam qiymətini verə bilməyəcəyik. O, xalqımızın XX əsrdə dünyaya gətirdiyi, xüsusi fitri istedada malik olan, eyni zamanda öz cəsurluğu, rəşadəti, zəkası, fədakarlığı, zəhmətkeşliyi, işgüzarlığı ilə cəmiyyətdə görkəmli yer tutmuş insandır. O, insan üçün xas olan, bəzən də yalnız nadir insanlara xas olan keyfiyyətləri özündə cəm edən bir insandır.

Ziya Bünyadovun xüsusi keyfiyyəti ondan ibarətdir ki, hərbçi zabit, qəhrəman, döyüşçü keyfiyyətləri ilə yanaşı, o həm də İkinci Dünya müharibəsi bitəndən sonra özünü elmə həsr etmişdir.

Ziya Bünyadov bizim üçün çox vacib olan milli oyanış, milli dirçəliş hisslərinin inkişaf etməsinə bir tərəfdən öz əsərləri ilə, digər tərəfdən isə məhz ictimai-siyasi fəaliyyəti ilə xidmət etmişdir.

Ziya Bünyadovun Azərbaycan elmində öz dəst-xəti, öz yolu, müstəqil fikri olmuşdur və özünəməxsus böyük xidmətləri var. O, alimlərin, akademiklərin, professorların içərisində öz elmi yaradıcılığına, elmi əsərlərinə görə və elmdə tutduğu mövqelərinə, prinsipiallığına görə seçilən, fərqlənən bir alim idi. Bunu anlamaq, bilmək lazımdır.

Bunu bütün xalqımız bilməlidir. Onun elmi yaradıcılığı, Azərbaycan elminin inkişafına göstərdiyi xidmətlər haqqında kitablar, əsərlər yazılmalıdır.

Ziya Bünyadov adi bir tarixçi, adi bir tarix tədqiqatçısı deyildi. O, mübariz bir tarixçi idi. Onun mübarizəsi də Azərbaycanın milli mənafelərinin müdafiəsi ilə bağlı olmuşdur.

Ziya Bünyadov bir alim kimi heç nədən qorxmayaraq, heç kəsdən çəkinməyərək öz elmi fikrini söyləyirdi.

Ziya Bünyadov xüsusi bir xarakterə malik adam idi. Onun özünəməxsus elə keyfiyyətləri var idi ki, bunun təkrarını mən cəmiyyətimizdə görməmişəm, bəlkə də, olmayacaqdır.

Ziya Bünyadov meydanlarda nitq söyləyən, Ermənistanın Azərbaycana təcavüzünə qarşı səsini qaldıran və erməni qəsbkarların haqsız iddiaları əleyhinə etiraz edən, bu sahədə ən qabaqda gedən insanlardan biri idi. Məhz Ziya Bünyadov kimi hörmətli adamların sözü ilə, Ziya Bünyadov kimi mötəbər adamların hərəkətləri ilə bizim minlərlə, on minlərlə insanlarımız, gənclərimiz bu hərəkatlara, bu cərəyanlara qoşuldular. Onlar Azərbaycanın milli azadlığına, müstəqilliyinə, Azərbaycanın ərazi bütövlüyünə qarşı edilən təcavüz əleyhinə öz etirazını bildirir, milli azadlıq uğrunda, müstəqillik uğrunda mübarizəyə qoşulurdular.

İlk Azərbaycan Demokratik Respublikasının yaranması ərəfəsində gedən prosesləri də, o dövrü də doğru-düzgün tədqiq edənlərin biri də Ziya Bünyadovdur. Onun böyük xidmətlərindən biri də bolşevizm terroru nəticəsində 1920-30-cu illərdə Azərbaycanda aparılmış repressiyalar haqqında həqiqətləri aşkara çıxarmaqdan, repressiya qurbanlarının adlarını açıb göstərməkdən, onlara bəraət qazandırmaqdan, onların adlarını tarixdə bərpa etməkdən və

beləliklə, o dövrü doğru-düzgün işıqlandırmaqdan ibarət olmuşdur.

Ziya Bünyadovu çoxları sevirdi, mən də sevirdim, ona xüsusi hörmət edirdim. Bəzən o kiməsə acı söz deyə bilərdi, lakin onu anlamaq lazım idi ki, o acı sözün içində xeyirxah münasibət vardı, onun arxasında vətəndaşlıq vardı, onun arxasında Azərbaycan xalqına sevgi, məhəbbət vardı, onun arxasında böyük insan dururdu.

Ermənistanın Azərbaycana təcavüzü başlayandan bəri Ziya Bünyadov xalqı Ermənistana qarşı mübarizəyə və torpaqlarımızın müdafiəsi uğrunda mübarizəyə səfərbər etməkdə həmişə ön sıralarda getmiş adam olubdur, həmişə mübarizə aparıbdır, həmişə öz sözünü deyibdir, heç vaxt çəkinməyib, heç vaxt kənarda durmayıb, heç vaxt gizlənməyibdir.

Ziya Bünyadov Azərbaycan xalqını ən gözəl təmsil edən şəxsiyyətlərdən biri və o şəxsiyyətlərin içində ən seçiləni idi.

Ziya Bünyadov mübarizəmizin ön cərgəsində duran şəxsiyyətlərdən biri idi. Ziya Bünyadov bu mübarizənin qurbanı oldu.

Ziya Bünyadov öz yaradıcılığı ilə, öz böyük həyat yolu ilə özünə böyük heykəl yaratmışdır, özünə böyük bir abidə qoymuşdur.

Mərhum akademik Ziya Bünyadovun əsəri, ("Azərbaycan Atabəylər dövləti" nəzərdə tutulur, red.) deyə bilərəm ki, Azərbaycan tarixində yazılmış ən qiymətli əsərlərdən biridir. Azərbaycanda işlədiyim zaman bu əsərə görə ona Dövlət mükafatı verdim. Bu əsərə qədər Atabəylər dövləti və Azərbaycanın XII əsrdəki dövlətçilik tarixi məlum deyildi.

Ziya Bünyadov böyük bir tarixi ixtira edib.

Mən, deməк olar ki, Astaranı piyada, qarış-qarış gəzmişəm, burada hər yer, hər bir guşə mənə tanışdır, doğmadır.

Astaralılar zəhmətsevər, dövlətə və dövlətçiliyə sədaqətlidirlər.

Astara Azərbaycanın cənub mirvarisidir. Astaralılar Azərbaycan torpaqlarının müdafiəsi üçün böyük xidmətlər göstəriblər. Mən buna görə sizə – astaralılara təşəkkür edirəm.

Astaranın Azərbaycanın coğrafı xəritəsində, Azərbaycanın ictimai-siyasi həyatında, Azərbaycanın iqtisadiyyatında özünəməxsus yeri vardır.

Astarada insanlar torpağın vurğunudurlar.

Astara torpağı bərəkətli, insanları zəhmətsevər, təbiəti də gözəldir.

Lənkəran torpağına qədəm qoyanda təbiət elə bil səni qoynuna alır, Lənkərandan Astaraya gedəndə təbiət sanki səni bağrına basır.

Astaranın çay bağları həm astaralılara çox mənfəət gətirir, həm də Azərbaycanın iqtisadiyyatına xidmət edir.

Astaranın narıngisi, Astaranın başqa ləzzətli meyvələri və o cümlədən kütüm balığı, ləvəngisi çox dadlıdır.

Astara Azərbaycanın cənubunda dövlətçiliyin sütunlarından biridir, astaralılar bu sütunun etibarlı keşikçiləridir, dövlətçiliyə sədaqətlidirlər.

Müstəqil Azərbaycanın həyatında astaralılar çox əhəmiyyətli rol oynayırlar,

Astaralılar Azərbaycanın dövlət sərhədlərinin möhkəmlənməsi, Azərbaycan dövlətçiliyinin inkişaf etməsi yolunda böyük xidmətlər göstərirlər.

Bu Talış dağlarının ətəyində, bu gözəl güşədə yaşayan talışlar, azərbaycanlılar hamısı birdirlər, hamısı vahid Azərbaycan xalqıdır.

Astaranın ən böyük neməti, ən böyük sərvəti burada yaşayan insanlardır.

Astara Azərbaycanın dilbər guşələrindən biridir.

Astara gözəl bir yerdir. Talış dağlarının ətəyi, Xəzər dənizinin sahili, gözəl meşələr, güllər, çiçəklər...

Allah astaralılara dünyanın ən gözəl guşəsini bəxş edibdir.

Astara Azərbaycanın ərazisində mühüm bölgələrdən biridir, bəlkə də, ən əhəmiyyətlisidir.

Astaranın Azərbaycanın xarici ticarətində, sərhəd ticarətində çox böyük rolu var.

Azərbaycanın cənub-şərq bölgəsi olan Astarada insanlar yüksək mədəniyyətə və mənəviyyata malikdirlər.

# ULU ÖNDƏRİN DEDİKLƏRİ

Azərbaycanın hər bir vətəndaşının vətən, torpaq dərdi bizim ümumxalq dərdimizdir, mənim dərdimdir. Hər bir vətəndaşın öz ailəsinə, öz həyatına məxsus olan kədəri, dərdi Azərbaycan Prezidenti kimi mənim özümün dərdimdir.

Azərbaycan zəngin təbii sərvətlərə, yüksək elmə, mədəniyyətə, təhsilə, tərəqqiyə malik olan bir ölkədir. Ona görə də bizim öz vətənimizlə, doğma Azərbaycanla fəxr etməyə haqqımız vardır.

Mən fəxr edirəm ki, azərbaycanlıyam. Mən fəxr edirəm ki, Azərbaycan torpağı mənim doğma torpağımdır. Mən fəxr edirəm ki, mənim Azərbaycan kimi millətim var. Mən fəxr edirəm ki, mənim doğma ana dilim, Azərbaycan dilim var. Mən fəxr edirəm ki, müstəqil, azad, qüdrətli Azərbaycan dövləti var.

Mənə ilham verən ən böyük qüvvə Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir, Azərbaycanın gələcəyidir.

Mənim bütün həyatım xalqıma xidmətə həsr olunub. Amma bu gün həyatımın mənası, məqsədi müstəqil Azərbaycanın gələcəyini təmin etməkdir. Yəni Azərbaycan bir müstəqil dövlət kimi yaşasın və müstəqilliyi əbədi olsun. Azərbaycan inkişaf etsin və inkişaf etmiş dövlətlər səviyyəsinə çatsın. Azərbaycan yüksək iqtisadiyyata malik olsun və Azərbaycan xalqı, Azərbaycan vətəndaşları, Azərbaycanda hər bir insan xoşbəxt yaşasın, firavan yaşasın, rahatlıq şəraitində yaşasın, sabitlik şəraitində yaşasın, qorxu altında olmasın, təhlükə altında olmasın, gələcəyə baxsın və gələcək haqqında düşünsün. Budur mənim həyatımın bugünkü mənası və gördüyüm işlərin məzmunu!

Mən həm bugünkü nəsillər, həm də gələcək nəsillər üçün, öz uşaqlarım, öz nəvələrim üçün və xalqımın gələcəyi üçün sülh, sülh, bir də sülh yaratmaq istəyirəm.

Sülh və təhlükəsizlik təmin olunmasa, nə demokratiya, nə iqtisadi inkişaf, nə də insanların rahatlığı ola bilər. Ona görə də mən ömrümün böyük bir hissəsini buna həsr etmişəm. Ömrümün qalan hissəsini də buna həsr edəcəyəm.

Mən belə hesab edirəm ki, insan harada yaşayırsa-yaşasın, öz Vətənini unutmamalıdır, Vətəninin taleyinə və orada baş verən proseslərə biganə qalmamalıdır.

Mən dünyada özüm üçün ən böyük xoşbəxtlik onu hesab edirəm ki, Azərbaycanda sülhün, əmin-amanlığın yaranmasına nail ola bilim.



**Mən həyatım, bütün əmək fəaliyyətim dövründə ancaq xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün yaşamışam, insanlar üçün yaşamışam.**



# ASTARANIN MİLLİ QƏHRƏMANI YALÇIN NƏSİROVUN ƏMİSİ RAFİQ MURAD

## ULU ÖNDƏR

Öz dəst-xətindir Azərbaycanım,
Onu qüdrətinlə sən yaratmısan.
Zəfər sevincimlə qaynayır qanım,
Bu yatmış ruhumu sən oyatmısan.

Məkana sığmayan ümman yaratdın,
Xainlər, bədxahlar baxdılar məlul.
Əsrin kontraktına sən imza atdın,
Dünya tərəfindən olundu qəbul.

Dövlət təhlükədə olan zamanda,
Xalq Ulu Öndərin Yolunu seçdi.
Düşmənə od vurub, çaxdı o anda,
Qəhrəman Yalçınım canından keçdi.

Ərdoğan İlhamla ön cərgədədir,
İki dövlətimin vuran qoludur.
Qurub-yaradanlar bu bölgədədir,
Ulu Öndərimin quran yoludur.

Belə yüz yaşını qeyd edirik biz,
Daha nə nadanıq, nə də naşıyıq.
İndi alnıaçıq, şax gəzirik biz,
Qalib bir ölkənin vətəndaşıyıq.

**25.04.2023**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV – 100 İL

Ulu Öndər Heydər Əliyev haqqında kitab yazmaq təklifimi 2 dekabr 2022-ci ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində ölkəmizdə yaşayan və fəaliyyət göstərən etnik icmaların rəhbərləri ilə görüş zamanı vermişdim. O an bu işin nə dərəcədə məsuliyyətli olduğunu anlamasam da, amma işə çox həvəslə başladım. Ümummilli Liderlə bağlı olan materiallarla yaxından tanış olmalı idim. Odur ki birinci üz tutdum Azərbaycan Milli Kitabxanasına. Orada işçilər tərəfindən mənə göstərilən köməklik əvəzsiz oldu. Heydər Əliyev haqqında yazılan istədiyim kitablar mənə təqdim edildi. Açığı dahi Heydər Əliyev haqqında çoxlu kitabların yazıldığını bilirdim. Mən isə fərqli bir kitabla oxucularımla görüşə gəlmək istəyirdim. Ümummilli Liderin Azərbaycanın cənub-şərqində yerləşən rayonlarda gördüyü işləri, orada görüşdüyü kənd zəhmətsevərləri və ziyalılarının onunla söhbəti zamanı maraqlı və yaddaşlara həkk olan tarixə çevrilmiş hadisələri oxuculara çatdırmaq idi fikrim. Buna nə dərəcədə nail ola bilmişəmsə, buna oxucularım dəyər verə bilər. Bir qəzet redaktoru kimi və xidmətdə olduğum bu rayonlarda Heydər Əliyevin tarixi izini, yolunu görməmək mümkün deyil. Bu nəhəng insanın talış xalqı üçün etdiklərinə biganə qala bilməzdim.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul tarixli plenumunda Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərək 1982-ci ilə qədər Azərbaycan SSR-yə rəhbərlik etmişdir. Odur ki uzun illər rəhbərlik etdiyi vaxtda müdrik Heydər Əliyevin talış regionu üçün etdiklərini insanlara bir daha xatırlatmağı özümə borc bildim. Onun müdrikliyi sayəsində Azər-

baycanda Sovetlər dönəmində elə tikintilərin təməli qoyulmuşdur ki, hansı ki Azərbaycan Cümhuriyyəti qurulandan sonra belə bir nəhəng zavod və fabriklərin, yeni-yeni istehsal sahələrinin tikilməsi az bir zamanda mümkünsüz olardı. İnsanların yaxşı yaşaması üçün salınan çay plantasiyaları, üzüm bağları, pambıq tarlaları buna bariz nümunədir. Yetişdirilən məhsulları elə yerindəcə emal etmək üçün su bəndləri, su anbarları, fabrik və zavodların, sanatoriyaların, xəstəxanaların, texnikumların, universitet və məktəblərin tikintisi bu regionda yaşayan sakinlər üçün əvəzolunmaz hədiyyədir.

Müdrik və uzaqgörən dövlət xadimi olan Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıtdıqdan az sonra – 1994-cü ilin mayında Ermənistanla atəşkəs müqaviləsinin imzalanmasına nail oldu. "Bişkek protokolu" adlandırılan atəşkəs müqaviləsi mayın 12-də qüvvəyə mindi.

Heydər Əliyev kimi uzaqgörən bir dahinin ikinci qayıdışının daha da məhsuldar olmasının qarşısını alan Qarabağ savaşları olmuşdur. Əgər Azərbaycanımızın müstəqilliyi qurulduqdan sonra ölkəmizdə müharibə olmasa idi, Ana Yurdumuz Azərbaycanımız Uu Öndərin sayəsində daha da çiçəklənəcəkdi. Bu amansız müharibə onun sayəsində sülh yolu ilə dayandırıldı.

2023-cü il isə Azərbaycanda "Heydər Əliyev İli" elan olunub. Bu barədə Prezident İlham Əliyev 29 sentyabr 2022-ci il tarixində Sərəncam imzalayıb. Sənəddə oxuyuruq: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Da-

vamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".

Müqayisə aparmaq istərdik: Heydər Əliyevin 1993-cü ilin yayında ölkəmizin siyasi rəhbərliyinə qayıdışı Azərbaycana sülh gətirdi. Bəs "Heydər Əliyev İli"ndə Azərbaycanla Ermənistan arasında çoxdan gözlənilən və arzu edilən sülh müqaviləsi, nəhayət ki, imzalanacaqmı?

**Atəşkəs Azərbaycana nə üçün lazım idi?**

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanla Ermənistan arasında atəşkəsin imzalanması Ulu Öndərin çox böyük səyləri və uzaqgörənliyi sayəsində baş tutdu. Bəs atəşkəs Azərbaycana nə üçün lazım idi? Suala cavab vermək üçün həmin dövrə qısa ekskurs etmək kifayətdir. Heydər Əliyev Azərbaycanın siyasi rəhbərliyinə qayıdanadək Respublikamızın mənzərəsi çox acınacaqlı idi. 1992-ci ilin yazında qeyri-legitim yolla hakimiyyətə gələn AXC-"Müsavat" iqtidarı ölkəni, sözün əsl mənasında, uçurumun kənarına gətirib çıxartmışdı. Vətəndaş qarşıdurması, müstəqilliyin yenidən itirilməsi təhlükəsi tam real idi. Respublikamızda xaos hökm sürürdü, iqtisadiyyat dağılmışdı, sosial gərginlik pik həddə çatmışdı. Azərbaycandakı idarəolunmaz vəziyyətdən istifadə edən Ermənistan havadarlarının dəstəyi ilə ərazilərimizin işğal coğrafiyasını durmadan genişləndirirdi. Həmin dövrdə silahlı qüvvələrin düşmənə müqavimət göstərmək imkanları yox səviyyəsində idi. Onlar pərakəndə halda fəaliyyət göstərir və əslində, bir-biri ilə ədavət aparan siyasi qüvvələrin, ayrı-ayrı "liderlərin" əlində alətə çevrilmişdilər.

Belə bir şəraitdə cəbhədə açıq-aşkar üstünlüklərə malik Ermənistanla sülh müqaviləsinin imzalanması sıradan bir hadisə deyildi. Ulu Öndər dəyərləndirirdi:

– Azərbaycanın potensialını səfərbər etmək,

– iqtisadiyyatını dirçəltmək,
– ölkənin investisiya cəlbediciliyini artırmaq,
– cəmiyyətdə konsensusa nail olmaq, vətəndaş həmrəyliyini təmin etmək,
– nizami, vahid komandanlığa tabe olan ordu yaratmaq və digər ümdə məsələləri həll etmək üçün vaxt və münbit şərait lazım idi.

Heydər Əliyev əsaslandırırdı ki, bütün bu strateji məqsədlərə nail olmaqdan ötrü mütləq Ermənistanın aramsız hücumlarının qarşısı alınmalıdır. Qeyd etdiyimiz kimi, xalqımızın Ümummilli Lideri buna özünün müdrik siyasəti sayəsində nail oldu. Heydər Əliyev bir sıra zəruri siyasi gedişlər etdi. 1993-cü il noyabrın 2-də Azərbaycan Dövlət Televiziyası və Radiosu ilə xalqa müraciət edən Heydər Əliyev hamını bir nəfər kimi düşmənə qarşı mübarizədə fəal iştirak etməyə çağırdı. Ulu Öndər müraciətində təkcə hərbi uğursuzluqların səbəblərini deyil, həm də vəziyyətdən çıxış yollarını göstərdi. Beləliklə, Heydər Əliyev ilk növbədə cəmiyyətin sabaha olan ümidini, milli gücə inamını geri qaytardı, ipə-sapa yatmaq istəməyən siyasi dəstələri ram etməyə başladı, iqtisadi islahatların anonsunu verdi. Təbii ki, həmin dövrdə öz üstünlüyündən istifadə edən düşmən ağır şərtlər irəli sürürdü. Ancaq Heydər Əliyevin atdığı addımlar və verdiyi qərarlar sayəsində düşmən, necə deyərlər, atəşkəs sənədini imzalamaq məcburiyyətində qaldı. Ölkədə Ümummilli Liderin səyləri ilə qısa müddətdə ordu quruculuğu sahəsində görülən işlər nəticəsində cəbhədəki vəziyyətdə dönüş yarandı. 1994-cü il yanvarın əvvəllərindən etibarən həyata keçirilən Horadiz əməliyyatı nəticəsində erməni silahlı birləşmələrinin Beyləqan istiqamətində hücumunun qarşısı alındı və Azərbaycan Ordusu əks-hücuma keçərək 21 min hektar ərazini – Füzu-

li rayonunun 20 Arazboyu kəndini, Horadiz qəsəbəsini və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini işğaldan azad etdi. Bütün bunlar Ermənstanı qorxuya saldı. Gözü qorxan düşmən atəşkəs müqaviləsini imzaladı.

Atəşkəsdən sonra qazanılan ən böyük nəticə "Bişkek protokolu"nun qüvvəyə minməsi ilə Azərbaycan strateji məqsədlərini reallaşdırmaq imkanı qazandı. "Atəşkəs Azərbaycana nə verdi" sualının cavabında aşağıdakıları sadalamaq mümkündür:

– Atəşkəsin əldə olunması xarici investorların Azərbaycana yönəldəcəkləri sərmayələrin qorunacağına inamı artırdı. 1994-cü ilin sentyabrında transmilli şirkətlərlə Xəzərin Azərbaycan sektorundakı zəngin karbohidrogen ehtiyatlarının işlənməsinə dair "Əsrin müqaviləsi" imzalandı.

– Sonrakı mərhələdə ölkəmizə daxil olan böyük həcmlərdə neft gəlirləri iqtisadiyyatın dirçəldilməsinə və şaxələndirilməsinə, insan kapitalının formalaşdırılmasına, irihəcmli infrastruktur və sosial layihələrin reallaşdırılmasına yönəldildi,

– Qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində Dövlət proqramları qəbul olundu və onların icrası təmin edildi,

– Ölkə boyunca genişmiqyaslı quruculuq işlərinə başlanıldı, milyonlarla yeni iş yerləri yaradıldı,

– Hakimiyyətlə cəmiyyətin sıx həmrəyliyinə nail olundu.

– Atəşkəs illərində Azərbaycan siyasi revanşlar sayəsində Ermənistanın yalan üzərində qurulan təbliğatını darmadağın etdi. Xatırlayaq ki, Heydər Əliyev xaricə səfərləri çərçivəsində keçirdiyi görüşlərdə keçmiş Dağlıq Qarabağ münaqişəsinin ən xırda məqamlarını belə auditoriyaların diqqətinə çatdırmaqdan usanmırdı, hətta bir sıra hallar-

da xəritə önünə keçərək Ermənistanın işğal altına aldığı ərazilərimizi əyani şəkildə göstərirdi. Beynəlxalq arenada aparılan belə məqsədyönlü fəaliyyət öz nəticəsini verdi – Azərbaycanın haqlı mövqeyini dəstəkləyən ölkələrin və beynəlxalq təşkilatların sayı artdı, erməni lobbisinin yalan üzərində qurulan təbliğatı, necə deyərlər, küncə sıxışdırıldı.

28 ili əhatə edən atəşkəs dövründə Azərbaycanın əldə etdiyi daha bir uğur barədə isə ayrıca söhbət açmaq istərdik. Bu uğur yüksək səviyyəli ordu quruculuğu ilə bağlıdır. Atəşkəs dövründə əvvəlcə Heydər Əliyevin, sonrakı mərhələdə isə Prezident İlham Əliyevin səyləri sayəsində Azərbaycan müasir ordu quruculuğuna nail oldu. Respublikamızda vahid komandanlığa tabe olan ordunun yaradılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyev son 19 il ərzində ordu quruculuğuna müstəsna diqqət göstərib. Bəhs olunan dövrdə ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq güclü, qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirməyə qadir olan ordunun yaradılması ilə bağlı davamlı şəkildə həyata keçirilən tədbirlər kompleks xarakter daşıyıb. Dövlət büdcəsindən Silahlı Qüvvələrin möhkəmləndirilməsinə lazımi qədər vəsait yönəldilib. Bütövlükdə, davamlı dövlət qayğısı sayəsində Azərbaycan Ordusunun maddi-texniki təchizatını yüksək səviyyəyə çatdırmaq mümkün olub.

Atəşkəs dövründə Azərbaycanın iqtisadi müstəqilliyini təmin etməsinin və bu əsasda güclü Ordu yaratmasının ən böyük nəticəsi 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbəmiz oldu.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində yeni əsrin yeni müharibə modelini

tətbiq etdi. Ordunun yüksək döyüş hazırlığına, innovativ tətbiqlərə, şəxsi heyətin vətənpərvərliyinə əsaslanan bu müharibə modelinin tətbiqi sayəsində Azərbaycan üç onillik ərzində düşmənin nəzarəti altında qalan torpaqlarını geri qaytarmağa və özünün ərazi bütövlüyünü təmin etməyə nail oldu.

Müharibənin başa çatmasından ötən iki ildə Azərbaycanla Ermənistan arasında münasibətlərin nizamlanmasında müəyyən yol keçilib. Belə ki, indiyədək Moskvanın və Brüsselin vasitəçiliyi ilə iki ölkənin liderləri və digər yüksək səviyyəli rəsmiləri müxtəlif məkanlarda çoxsaylı görüşlər keçiriblər. Azərbaycanın postmüharibə dövrünün gündəliyində Ermənistanla sülh razılaşmasının əldə olunması prioritet istiqamətlərdən birini təşkil edir. Üç onillik ərzində qarşıdurmalardan əziyyət çəkən respublikamız müharibə səhifəsini bağlamaq və gələcəyə baxmaq istəyir. Əslində, qalib Azərbaycanın müharibə başa çatandan sonra regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün nümayiş etdirdiyi davranışların dünya tarixində analoqu yoxdur. Döyüş meydanında düşməni diz çökdürən, onu kapitulyasiya sənədini imzalamağa məcbur edən respublikamız qarşısına bundan hansısa imtiyazlar qazanmaq məqsədi qoymayıb. Postmüharibə dövründə Respublikamız qarşı tərəfə beş bənddən ibarət sülh paketi təqdim edib. Bu paket hansısa subyektiv istəklər nəzərə alınmaqla hazırlanmayıb, əksinə, sırf beynəlxalq normalara istinad olunub. Sənəddə beynəlxalq hüququn beş əsas prinsipi, xüsusən də ölkələrin ərazi bütövlüyünün qarşılıqlı tanınması, gələcəkdə ərazi iddialarından çəkinmək, güc tətbiq etməmək və ya güc tətbiq etmək hədəsindən çəkinmək, dövlət sərhədlərinin müəyyən edilməsi və kommunikasiyaların açılması müddəaları öz əksini tapıb. Bunlar iki

ölkə arasında sülh sazişinin imzalanması və sərhədlərin müəyyənləşdirilməsi üçün baza prinsipləri kimi əsas götürülə bilər.

Azərbaycanın real məzmunlu sülh gündəliyi təqdim etməsinə rəğmən, Ermənistan hələ də revanşizm cəhdlərindən geri çəkilmək istəmir. 2022-ci ilin birinci yarısında bu ölkənin baş naziri N.Paşinyan və digər rəsmiləri Azərbaycanın sülh çağırışlarına müsbət yanaşdıqlarını bildirirdilər. Sonradan müəyyən güclərin, xüsusilə də Ermənistanı özünün bacısı adlandıran Fransanın təhriklərinin nəticəsi olaraq forpost dövlət qeyri-məqbul şərtlər diktə etməyə başladı. Dünya tarixində müharibədə uduzan tərəfin sülh prosesində hansısa şərtlər irəli sürməsi praktikası olmayıb, belə ölkələr məhz sülhə məcbur ediliblər. Məğlub Ermənistan qalib Azərbaycanın xoş niyyətini, sülh təkliflərini dəyərləndirməli və özü üçün nəticələr çıxartmalıdır. Əks halda bu ölkə sülhəməcburetmə tədbirləri ilə üzləşə bilər. Bunun fəsadları isə məğlub ölkə üçün daha ağır olacaq.

BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

İRADƏ MƏLİKOVA

# AZ FƏXR KARDƏM Kİ, AZƏRBOYCONİJİM

BOKU - 2025

**Redaktoron**: **Tolışə zıvonədə - Baladdin Veşo**
**şair-publisist**
**Azərboyconə zıvonədə - Rauf İlyasoğlu**
**şair-publisist**

**İradə Məlikova. Az fəxr kardəm ki, azərboyconijim. Bakı:**
**"Max Ofset" MMC, 2025, 312 səh.**

ISBN: 978-9952-8461-8-8

**© Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi 2025**



UMİMMİLLİ LİDER HEYDƏR ƏLİYEV

***"AZ HEJO FƏXR KARDƏME,***
***IMRUJƏN FƏXR KARDƏM Kİ,***
***AZ AZƏRBOYCONİJİM."***

**HEYDƏR ƏLİYEV**

# ÇI UMİMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİ MULTİKULTURALİZMİ SİYOSƏT

Umimmilli Lider Heydər Əliyev Azərboyconədə çı mıstəqil dovlət soxtemoni bani, siyosətəvon-mıtəfəkkir, inson şəxsiyyət be-be tarixi şohrət ğəzənc kardəşe. Əv, çı elkə siyosi, iğtisodi iyən mədəni inkişofi ro de mıəyyən karde dınyoədə çı Azərboyconi imzo doy zıne mıvəffəq bıə. Həmən multikulturalizm sahədə Azərboyconədə bə jimon dəvoniyə de siyosəti oşnə beədə əhəmiyyətinə ovandon bə dast varda bey şoyd bedəmon.

Dastdoə coğrafi movqeədə səbəro bıə Azərboycon tarixən vey konfesiyayn, vemillətin yurd ğəzinə zınəbıə. Imi çəmə nezə tarixədə-soveti dovrədə mışohidə karde kifoyəte. Çı mıstəqil Azərboycon Respublikə soxtəbıə dovrədə Heydər Əliyev ın həğiğəton bə nəzə səy vemədəniyyətəti inkişofi ğəyğu mande lozim zınəşe.

Çı xəlğon mənəvi-əxloği irsi əsos çəşmonku qılə bıə xəlğ ofəyevonəti iyən de ədəbi abidon oşnə beədə əy çı ofəyəvonon əsos səciyyə mıyyən kardey çətin ni. Azərboyconi ədəbi-tarixi ənənəonədə vemədəniyyətəti ıştəni nişo doydə. Bə vemədəniyyətəti dastək doə Heydər Əliyev bı həğiğəti peştıpur bıə. Bə ədəbiyyoti tarix kırt ekskurs bıkon, “Kitobi- Dədə Qorqud”ən, Nizami, Nəsimi, Fuzuli, Vaqif, Huseyn Cavid iyən çı cokəson əsəronədə ın həğiğəton bədii əksi mışohidə karde bəbe.

Etnik millətəti xəlğon aradə bə mınoqişə səbəb beyı mıdrikonə vində Heydər Əliyev çı Azərboyconəti ideoloqiyə bənav kəşe-kəşe ibemoni ğoym kardeyro baza soxtışe. Səkıştədə Azərboyconədə jiyə həmmə xəlğon ibemon təmin be. Umimmilli Lider həxin be-be votəşbe:

"...ləzqiən, avarən, kurdən, tolışən, udinən, kumıkən, cokəsən həmiyəvo Azərboyconijim".

"Çı Heydər Əliyevi şah əsər Azərboycone"- votə prezident İlham Əliyev çı multikulturalizm syosəti de ovandi dəvom kardedə. Çı multikulturalizmi Azərboyconi model veynə xarici elkə unversitetonədə tədris beydə.

Im siyosəti nəticəye ki, oxonə vaxton tolışə zıvonədə folklorə irsi, ədib iyən şairon ofəyevonəti məhsulon, antoloqiyon nəşr kardə bedən, əholi kompakt jiyə vıronədə tolışə zıvon tədris beydə. Bı zıvonədə beşə "Dodo" iyən "Toloşon sədo" qəzeton əhandon tərəfiku de rəğbəti ğəbul kardəbeydə.

Umimmilli Lider çı Heydər Əliyevi bə dovlət siyosəti səviyyə rost kardə multikulturalizm siyosəti çəmə xəlğon mədəni-etnik irsi bo nığo doy iyən bə inkişof karde xıdmət karde ğəzinə vahid  çəmə Azərboycon vətəni nığo doy roədə əməni həniyən ğoym i kardeydə.

***İmamverdi Həmidov***<br>
*Çı Tolışə icmo sədr*<br>
*Filoloqiyə elmon doktor,*<br>
*professor*

# TOLIŞƏ ZIVONƏDƏ-REDAKTORİKU

Azərboyconi tarıxədə ve səoşandə şəxsiyyəton bıən ki, ısətən xəlğ əvoni ıştə virədə jiyovındə, əçəvon nomi de şəni kəşedə. Çəmə Azərboyconi məmələkət bəştə be səhisob dəvləti səbin be ve mıftəxoron, ğəsbkoron tamə nışon eqınə. Im məmləkəti zəmini jiən, peyən sərvəte. əmma çəmə ənkə boboon bə ha çətini, vəynə de əzmi pemandə, sinəşon dəhaştə. Bəyro ki, Azərboyconi ve yolə sərkərdon, rəhbəronış bıə, hınəmandə xəlğış hıste, hınəmandə xəlğiən dərosnə hınəmandə avlodonış heste. Əmə Babəki, Cəvanşiri, Şah İsmayil Xətai, Şah Əbosi nomon bıqətomon, xəlğ əvoni həməy zındə. XX nə əsri təlatuminə vaxtono bə Azərboyconi bəxti ğısmət kardə yolə sərkərdə Heydər Əliyevən həmonə nomon rədədə bıə, dahi şəxsiyyətonədəy. Xəlği ən çətinə rujədə bəçəvon sədo hay doy, deştə nığılə fəhmi, zəndi xəlğış labudə ğırğuniku, ve yolə bəlonku hifz kardışe, elkəş nığo doy, bə ğəsbkorə hamsiyon və deştə siyosəti, deştə bıremoni bəndış noy, çəvon vəş səy. Bo maşkinə ruji, bo Azərboyconi ovci, inkişafiro ve yolə qəmonış şıdoy, dıjdə koon binoş noy.

“Az fəxr kardəm ki Azərboyconijim” kitobi hozo əkə, “ Dodo” qəzeti sərredaktor İradə Məlikovə deştə şodoə ım qəmi nişo doydə çəmə xəlği bə yolə rəhbəri bıə mehubbəti, hurməti besone. In kitobədə doəbıə zəhmətkəşə insonon, alimon, şairon, rəhbər koədə bıəyon, dahi şəxsiyyət həxədə  xatiron handeycən handey loyiğin. xatirələri olduqca oxunaqlıdır.  Çəmə İqtisadiyyati inkişofi iyən çəmə xəlği quzəroni çok beyro Heydər Əliyevi nişo doə  xidməton, çəy kardə koon beəvəzin. Azərboyconədə jiyə bənə əlheydə xəlğon bo Tolışə xəlği çəmə elkə inkişofi, çəmə ləşqəri ğoymbey dıl okardə hole.

Çı jurnalist İradə Məlikova hozo kardə bı kitobədə dahi Heydər Əliyevi de soyə cəmati çoknə nez be, bə çəvon ğəyğu çoknə de mehribanəti mande insonon bət çoknə hurmət nişo doy, tolışə xəlği həxədə votə xoşə sıxanon məseədə i kərən qururə hisson dəvoniyedəmon.

Umdəvomon ki, İradə xanım Uli Navəjən Heydər Əliyevi bo 100 sornə yubiley ərməğon hozı kardə ın kitob çı Tolış xəlğiən bə Uli Rəhbəri bıə hurmət iyən ehtirami i kərən sıbot kardə.

Az bənə redaktori kitobi de dığğəti hande-hande, şeyron bə Tolışi tərcumə kardeədə çəmə xəlği bə Uli Heydəri bıə mehibbəti vindeku ve xoşhol bim, Heydər Əliyevi timsolədə Azərboycon xəlği çoknə zunin be vinde, xəlği rəhbəri arədə bıə munosibəti pardi çoknə sofə, pokə təməli səpe be vinde bəpeştə, həyğətənən fəxr kardəm ki, Azərboyconijim!

İradə Dodo de yolə zəhmət iyən mehubbəti hozı kardə ın kitobədə Azərboyconi vəomə nəsli, bo Toləşə balon molyətinə vəsoite. Uli Navəjən Heydər Əliyevi kardə koon, okardə roon, xəymandə ovardon zıneroən qləy çokə vəsoite. Umi kardəm ki, çı İradə Dodo kəşə zəhmət ıştə ğıyməti bəste iyən təğdimbıə kitob əhandon tərəfo de rəğbəti ğəbul bəbe!

Bənə qıləy ğələmbədasti azən bə Uli Navəjəni həsr kardə ıştə şeiri təğdim kardəm:

## RUŞNƏY HAR KƏDƏ HEYDƏR

Bə perz rost bə zu bimon,
Navədə dədə Heydər.
Tərvuni ordu bimon,
Çə ordu sədə Heydər.

Nohəx həxi kudəbe,
Dəvlət dasto şedəbe,
Xəlki həray pidəbe,
Oməy bəvədə Heydər.

Xəlğ mudrik pande həməy,
Bə dıvo mande həməy;
Ki şər beyvande, həməy
Ekıştо bıdə Heydər.

Okışyə çoj pekarde,
Vətən bə vəyşt peqarde,
Həməş bə ruşt bekarde,
Ruşnəy har kədə Heydər.

Bədxahonış bışte əy,
Boəmə roj rışte əy,
Tarıxış nıvışte əy,
Bəjye, jiyə, jidə Heydər!

***Baladdin Veşo***

*Şair-publisist*

# AZƏRBOYCONƏ ZIVON-REDAKTORİKU

